www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

“Gənc yazarın e-kitabı” N 56 (106 - 2013)

## Ülviyyə Tahir

# Şeytanın missiyası

**İstedadlı gənc yazar Ülviyyə Tahir 1980-ci ildə Göyçayda anadan olub, 1998-ci ildə BDU tarix fakultəsinə daxil olub, oranın məzunudur. Uşaqlıqdan yaradıcılıqla məşgul olsa da, 4 ildir ədəbiyyata ciddi bir iş kimi önəm veririr. Dövri mətbuatda ardıcıl çap olunur, keçən il ilk kitabı - " Şeytanın missiyası" adı altında işıq üzü görüb. İkinci kitabı çapa hazırlanır, bu yaxınlarda işıq üzü görəcək. E-kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.**

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

2013

Yeni Yazarlar və Sənətçilər Qurumu. e-nəşr N56 (106 - 2013)

www.kitabxana.net
Milli Virtual Kitabxananın təqdimatında

"Gənc yazarın ilk e-kitabı" 56 (106 – 2013)

**Bu elektron nəşr Yeni Yazarlar və Sənətçilər Qurumu http://www.kitabxana.net - Milli Virtual Kitabxananın kulturoloji-innovativ layihəsi çərçivəsində nəşrə hazırlanıb və yayılır.**

**Elektron Kitab N 56 (106 – 2013)**

**Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum:**

**Yeni Yazarlar və Sənətçilər Qurumu**

**http://www.kitabxana.net - Milli Virtual Kitabxana**

**Ülviyyə Tahir**

# Şeytanın missiyası

İstedadlı gənc yazar Ülviyyə Tahir 1980-ci ildə Göyçayda anadan olub, 1998-ci ildə BDU tarix fakultəsinə daxil olub, oranın məzunudur. Uşaqlıqdan yaradıcılıqla məşgul olsa da, 4 ildir ədəbiyyata ciddi bir iş kimi önəm veririr. Dövri mətbuatda ardıcıl çap olunur, keçən il ilk kitabı - " Şeytanın missiyası" adı altında işıq üzü görüb. İkinci kitabı çapa hazırlanır, bu yaxınlarda işıq üzü görəcək.

**E-kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.**

YYSQ - Milli Virtual Kitabxana. Bakı – 2013. E-nəşr N 56 (106 - 2013)

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

**"Gənc yazarın ilk e-kitabı" silsiləsindən bütün kitablarla buradan tanış olun:**

**http://www.kitabxana.net/?oper=e_kitabxana&cat=167**


Ölviyyə
TAHİR
Şeytanın
missiyası

## *GİROV*

Bakı ... Bütün meqapolislər kimi neçə min təbəqədən ibarətdir. Sən onun dibinə baş vurmağa cəhd etmə! Onun dərinliyini bilməyəcəksən. Bu şəhərin də oğruları, kiçik və böyük cinayətkarları, bəzən cinayətkarlardan heç də geri qalmayan qanuni qanunpozan məmurları zahirdən parlaq, lakin içəridən dağılan möhtəşəm ailə holdinqləri var. Qarabağ müharibəsindən sonra əhalisi daha da alabəzəkləşən Bakı bəlkə də dünyanın heç bir yerində anoloqu olmayan bir yaşama qədəm basdı. Bu yaşama yamaq adını versək daha doğru olar. Avropa ilə Asiya arasında can çəkişən bu şəhər öz müvəqqəti immiqrantlarına- vətəndən vətənə qaçmışlara yarıkönül qucaq açsa da, tədricən onlarla yaşamağa alışdı. Bakıya vurulmuş bu yamaq dəbə uyğun olsa da kobud və etinasız vurulmuş tikişlər onun hələ də yamaq olduğunu kimlərəsə xatırladırdı. Universitet yataqxanalarında daha tələbədən çox Qərbi Azərbaycandan gəlmə qaçqınlara rast gəlmək təbii qarşılanırdı.

Əhməd həyatın ilk qoxusunu alanda burnuna dəyən yarıçürümüş kanalizasiya iyi sanki ona xoşgəldin etdi. O, bu qoxu ilə böyüdü. Yaşadıqları yer nə qədər iyrənc olsada onları yaman tez-tez yada salardılar. Bayramlarda, seyranlarda çiyinləri kameralı oğlanlar və cins şalvarlı qızlar hey onları çəkməyə gələrdilər. Əvvəllər Əhməd bu gəlişləri həvəslə gözləsə də sonralar buna da öyrəşdi. Yaşadıqları bina yarıuçuq vəziyyətdə olsa da buna etiraz etmək ya kiminsə ağlına gəlmir, ya da bunu məqsədə uyğun hesab etmirdilər. Əhməd üçünsə bunun elə də fərqi yox idi. O, bu yaşamın elə belə olacağını qəbullanmışdı. Məktəbdən evə döndükdə elə qapıdan babasının zığıltısını eşidərdi. O, revmatizmlərindən şikayətlənə-şikayətlənə Şuşanı da yada salırdı. Əhməd Şuşanı görməmişdi . İndi atasının belə zorla xatırladığı o şəhəri Əhməd vur-tut bir dəfə yuxuda görmüşdü. O yuxudan da yaddaşında yalnız bulaq şırıltısı və bir də ciyərlərinə çəkdiyi təmiz dağ havası olmuşdu. Babası bu yuxunu ona dəfələrlə təkrarladıb qulaq asmış və hər dəfəsində Əhməd ona bir az başqa bir şeylər uyduranda babası etraz etmədən nəvəsinin bu şirin yalanlarının altında xəyala gedərdi. Əhməd atasının məhəllədə “kişinin bir gözü torpaqdadır” deyəndə heç nə anlamamışdı. Ümumiyyətlə, Əhməd bir çox sözlərin lüğəvi mənasına varsa da əsil mənasına varmaqda çətinlik çəkirdi. Məsələn: ona məktəbdə qaçqın deyirdilər o isə -mən Bakıda döğulmuşam haradan qaçmışam -deyə o sözü deyənlərə sual verirdi. Evdə anasına sual verəndə isə anası “biz Şuşa qaçqınıyıq ona görə deyirlər. Lakin bu izahat Əhmədə bəs eləməzdi. “Necə yəni qaçqınlıq irsi keçir? Bu ki xəstəlik deyil?!”

Məktəbdə müəllim Qarabağ müharibəsinin onlara başa salanda torpaqların müvəqqəti ermənilərdə qaldığını deyir və bu torpaqların nə vaxtsa azad olacağını söyləyərdi . Yenə Əhməd qalxıb müəllimə sual verəndə ki, "müharibədə niyə atəşkəs olub? Onda müharibə bizə ötürülüb" deyəndə müəllim otuz yeddinci il vahiməsi ilə "Otur yerində bilmədiyin şeyləri danışma!" deyə onu susdurardı.

Meqapolis öz cazibəsi və sirrləri ilə gəncliyin kövrək addımlarını atan Əhmədin də ağlını oğurlamağa başlamışdı. Daha babasının revmatizmləri qarışıq Şuşa inləmələri onu o qədər də narahat etmirdi. Yaşı irəlilədikcə bu yarıuçuq binada yaşayan insanların rəngarəngliyi Əhmədin diqqətindən yayınmırdı.

Bəzən kasıbçılıqdan onların ağzı qoxuyanda, qonşuluqdakı Ataşgilin manqalları daim tüstülənərdi. Kabab qoxusu göyəcən millənir, bir Əhmədgilin, bir də ac pişiklərin vəziyyəti gərginləşərdi.Atası "onlar kirli işlə məşğul olurlar .Bunun geci-tezi var – deyə onların vəziyyətinə öngörücülük edərdi. Amma bu gec-tez heç gəlib çıxmaq bilmirdi. Köhnə maşınlarının yeni çıxanlarla əvəzləyən qonşuları zaman keçdikcə daha da parlaq həyata qədəm qoyurdular. Əhməd gəncliyin bitməz tamahı ilə tədricən bu parlaq həyatın əhatə dairəsinə düşürdü. Atasının verdiyi qəpik-quruşlar Əhmədin gözündə iyrənc bir təhqirə dönür və O, bunları tez xərcləyib qurtarmaqla sankli həyatdan , yaşadığı zamanədən acığını çıxırdı. Atası daim onu "tin" uşaqlarından ayırmağa cəhd etsə də buna nail ola bilmirdi. Evdəki dava-dalaşlar adi bəhanələrdən döğsa da onların səbəb adlı kötüyü başqa idi. Əhməd bu yaruçuq binanın yerində durmayan daşları tək laxlayırdı.Bu daşın yerindən çıxması isə ani bir təkanla: bir telefon zəngi ilə oldu.

Qış gecəsinin soyuq nəfəsi hərəni bir deşiyə soxmuşdu. Əhməd nazik yorğanına bürünüb, balaca elektrik plitəsinin istisini acgözlüklə mənimsəmək istəyirdi. Bacısı yenə qayınanası ilə tutaşıb acıq edib gəlmişdi. Iki yaşlı uşağını sakitləşdirməyə çalışan bacısının içini tez-tez çəkməyindən Əhməd onun ağladığını anladı. Yorğanını çiyninə ataraq qalxıb bacısının yanında yerə çökdü. Bacısı burnunu silə-silə uşaqlıqda olduğu kimi onun qucağına sivişdi. Səssiz bir neçə dəqiqə ağladı, sonra boğula-boğula:

- Heç olmasa, bir göz otaq olsa cəhənnəm olub cıxarıq. Beş qardaş iki yataqxana otağında........ İki siçan dalaşsa biri ocağa düşər. Arvad da it kimi gedənə gələnə də hürür. O birisi gəlinlər bəxtəvər olmuşlar arxalı, dayaqlıdırlar. Hərəsi bir yana çıxa bildi. Bəs mən?.... Mən neyləyim?!.. Üç gündən bir acıq edib gəlməkdən başqa çarəm yoxdur. Dalımca niyə gəlirlər? Ona görə ki, əl altında bir nökərə ehtiyacları var. –bacısı dayanmadan danışır, Əhməd isə cümlələri eşitmədən belə bu iyrənc həyatı xəyalında qılınclayırdı.

Bacısı mızıldana –mızıldana onun dizinin üstündə yuxuya getdi. Əhməd onun başının altına yastıq qoyub, qayıdıb öz yerinə uzandı.  Divarın nəmişlikdən köpüb çıxmış suvağı min cür xəstəlik vədi ilə qabarmağında idi. Əhməd bunu görməmək üçün başını yastığın altına soxdu. “Sabahı bu gündən fərqlənməyən həyatda yaşamağın mənası nədir ki?!......Milyoncunu da qarışqa yeyəcək, məni də....”- bu düşüncələr Əhmədin başını necə ağrıtdısa yorğanı üstündən atıb, daim qış ehtiyatları yığılmış arxa balkona çıxdı. Onu ispan çəkməsi tək sıxan həyatın fikri burnuna dəyən kanalzasiya və çürüntü qoxusu ilə beynində daha da bulanıq şəkil aldı. Ürəyinin bulandığını hiss edən kimi istədi yerinə qayıtsın lakin bu an həyətdən gələn səslər diqqətinin cəlb etdi. İki kölgə surətlə qaçırdı. Qaçanın birini yerişindən qonşu Ataşa bənzətdi. Bənzətməsində yanılmamışdı. Bu doğurdan da Ataş idi. O, Əhmədin balkondan onu gördüyünü sezən kimi cəld ona tərəf telefon işarəsi verdi. Əhməd nəyinsə baş verdiyini anlasa da, heç vaxt ona salam belə verməyə cəhd etməyən bu adamın ona telefon işarəsi verməsini anlamadı. Əyilib o biri balkonlara: yan və birnci mərtəbələrə baxdı və heç kəsin olmadığına əmin olduqdan sonra işarənin məhz ona verilməsindən arxayın oldu. Bunu anlayan kimi cəld içəri keçib, telefonunu qapdı. Tanımadığı bir nömrədən zəng gəlirdi. Telefonu açan kimi lovğa Ataşın səsinə bənzəməyən zəif bir səs:

- Nə olar, qapını aç.

Əhməd onun qapını niyə döymədiyini anlaya bilmədi. Yavaşca dəhlizdən keçib, taxta qapını açdı. Qapının ağzında heç kəs yox idi. Əhməd “Lənət şeytana gecənin bir aləmi mənimlə məzələnməkləri tutub. Dayanın köpəkuşağı, mən sizə sabah gününüzü göstərərəm”-deyə hirsli-hirsli qapını çırpmaq istəyirdi ki, Ataş tazı qovlamış dovşan kimi özünü tövşüyə -tövşüyə çatdırdı. Yarımqaranlıq bloku nəzərdən keçirə -keçirə əlindəki çantanı Əhmədə uzatdı və şəhadət barmağını dodaqlarının üzərinə qoyaraq susmaq işarəsini verdi. Əhməd əl işarəsi ilə ondan bunun nə olduğunu soruşdu. Ataş:

- Bunu iki gün saxla. Yalnız iki gün.-dedi və gəldiyi kimi də qaçaraq uzaqlaşdı. Əhməd bir əlindəki çantaya bir də Ataşı udmuş qaranlığa bir neçə dəqiqə baxaraq, başını qaşıdı və cırıltı olmasın deyə qapını ehtiyatla örtərək otağa qayıtdı. Döşəyinin üstündə bardaşqurma oturub,çantanı qarşısına qoydu. Əvvəl açmağa cəsarət etmədi. Sonra ehtiyatla  əlini uzadaraq, çantanı açdı.İçndə qəribə bükülülər olan bu çanta elə həmin an Əhmədə Ataşgilin nə işlə məşğul olduğunu açıqladı.”Deməli belə bu boyda vur-çatdasının dalında duran bu murdar bükülülər imiş”-deyə ildırım sürəti ilə beynindən keçirdi.”bəs bu qədər malı niyə mənə etibar etdi?...” Çanta qarşısında elə fikrə getmişdi ki, bacısının oyanmağından xəbəri olmadı.

-Əhməd, o nə çantadı elə?- bacısı yarıyuxulu səsləndi.

- Elə-belə şeydi. Yat!- əhməd bacısını sakitləşdirdi. Sonra özü-özünə”Şey olmağına şeydi,amma ay bacı, bilsən bu nədir”- deyə şən-şən düşündü.

Səhər bütün binaya zur düdüyü vuruldu. Səhərin gözü açılmamış Ataşı və üç qardaşının həbs olunması hamını heyrətə saldı. Qonşuların dediyinə görə onlarla münasibətdə olan qonşuların da evlərini axtarıblar. Bu xəbərləri işə-məktəbə getməsə də yenə erkəndən oyanıb həyətə çıxan atası gətirdi. Əhməd bunları eşidəndə canına vicvicə doldu. Atası vəcdlə öngörücülüyünü danışdıqca Əhməd gözucu babasının köhnə paltarları arasında gizlətdiyi çanta istiqamətinə baxırdı.

-Bir bizim evi, bir də Kərəmgili axtarmayıblar. Bu hökumət dovşanı arabaynan tutur. Bilir kim kimin süfrəsinin qırağında sülənir.- Atasının bu sözlərinin eşidəndə Əhməd sanki yuxudan ayıldı. “Deməli ona görə mənə.........” Atası isə dayanmadan halal çörək qazanmağından və bundan hökumətin də xəbəri olmasından öyünə-oyünə danışırdı. Əhməd qarşısındakı çayı bitirər-bitirməz cəld süfrədən qalxdı.O, atası ilə babasının son xəbərləri necə həvəslə müzakirə etmələrinə fikir verməyərək əynini qalınlaşdırmağa başladı. Onun otaqdan çıxması hec kəsin diqqətini cəlb etmədi. Əhməd birbaşa tində daim bekarçılıqdan milçək tutan bina uşaqlarının yanına yollandı. Səhər erkəndən orada bir kəs olmadığına görə Əhməd məcburən tək –tənha asfaltla səki arasında çömbəldi. Əllərini nəfəsi ilə isidərək gecə baş verənlərlə səhər eşitdiklərini analiz etməyə çalışdı:”yaxşı Ataşı buraxmasalar bəs onda nə olacaq?.. Bu malı mən nə edəcəm?! Atamın bu işdən xəbəri olsa vallah məni övladlıqdan rədd edər. Hər nə isə, ən yaxşısı səbir etməkdir. Görək nə olur?”- deyə oturduğu yerdən qalxıb evə yollandı. Gecənin narahatlığından sonra səhərin şirin yuxusu bütün bədənini bürüyür və onu çarpayıya sürükləyirdi. Əhməd atasının deyinməyinə baxmayaraq yerinə uzandı və o anda yuxuya getdi. Nə qədər yatdığından xəbəri olmadan doyunca yatdı. Göz qapaqlarını zorla aralayıb ətrafa baxanda yenə atasının siqaretin dumanında itib batdığını gördü. Ona elə gəldi ki, yatdığından bəri heç zaman keçməyib . Atasını elə həmin yerdə qoyub yatmışdı. Amma səhərkindən fərqli olaraq atasının üzündə şən ifadənin əvəzində yorğun bir üzüntu var idi. Əhməd gözünü ovxalayıb özünə gələn kimi anasına tərəf işarə edərək nə baş verdiyini lal dili soruşdu. Bunu sezən atası:

- Heç. Ataşgili dəlil yetərsizliyindən buraxıblar. –dedi
- Buna sən niyə pərt olusan ki? Elə bil onları axtaran dedektiv sənsən.-Əhməd zarafatla onun könlünü almaq istədi.

- Yox, ay bala, mənə dəxli . Sadəcə olaraq mən əmin idim ki,onlar tozla varlanıblar.Demək belə deyilmiş. Onlar haqqında pis fikirləşmişəm. Nə isə vicdan.

Əhməd atasının bu sadəliyinə ürəkdən yandı. Az qala atasına "sən haqlısan" demək istədi, amma bu coğrafiya müəlliminin qatı "kominist" xarakterini xatırlayıb susdu.

Bayırda əsən külək gecənin daha soyuq olacağını pəncərəyə taqqıldadıb bildirdikcə, babasının yorğana daha çox bürünürdü.. Əhməd qaranlıq çökmüş pəncərəyə baxaraq bayıra çıxmaqdan vaz keçdi.

Axşam yeməyində atasının pərtliyi hamıya sirayət etmişdi. Hər kəs Ataşgilin məsələsinə toxunmadan hər şeydən danışmağa çalışırdı. Əhməd həvəssiz-həvəssiz yeməyi çeynəyib udmağa çalışırdı.Onu belə görən atası:

- Tənbəl, butun günu yatırsan yorulmursan ki , yemək də sənə dadlı gəlsin.-deyə ona tənə vurdu.
- Onda milyonçular heç nə yeməsin, cünki heç yorulmurlar.-Əhməd mızıldandı.
- Sən nə bilirsən ki?! .... 20 yaşın var iyrimi qramlıq ağlın yoxdur. Milyonçu da işləyir, kasıb da işləyir .
- Baxır kim nə səviyyədə-deyə Əhməd atasını daha da cırnatmağa çalışdı.
- Mən Alahın mənə verdiyindən çox razıyam. Mənim cəmiyyətdə üzüm ağdır. Birdə ki, insanın səviyyəsi qazandığı pulla qalxıb enmir.
- Ata, sənin bu fərziyyələrin çürüyüb. Bu fərziyyələr heyf ki, mənə iki mərtəbəli ev, maşın vermir. Quru ideyalardı. Min ildir ki, kasıblar özlərini bunlarla aldadır. Sənin demədiyin bircə şey əksik qaldı: mən burada kasıbşılıqdan gəbərim, Allah mənə cənnətdə əvəzini verəcəkdir. – hirslənən Əhməd sözünü bitirəndə bağırdığının fərqinə vardı, çünki hamı süfrədən əlini çəkib onun üzünə mat-mat baxırdı. Əhməd sərhəddi aşdığını anlayan kimi süfrədən qalxıb otağı tərk etməyə başladı.Qapını arxasınca örtəndə atasının "bu qoduğun Amerika filmlərinə baxmaqdan başı xarab olub."-dediyini eşitdi.

Çölün şaxtası bıçaq kimi üzünü döğrayanda paltarlarının nazik olduğunun fərqinə vardı hər şeyə acıq edib səkinin üstünə çökdü. Qollarını qucaqlayıb, üzünü ovxaladı" Həyat ötüb keçir, zamanı tutmaq olmur . Bu iylənmiş yataqxanalarda çürüyüb gedəcəyik. Bakının bu parıltısından bizə nə......."- Əhməd bu fikirlərlə Qavroşsayağı büzüşdü. Kürəyindən külək döşəməsin deyə köhnə pivə budkası ilə divarın küncünə sivişdi.Təzəcə öz yerini rahatlamışdı ki,bir qara kölkə qarşısında bitdi. Bu gölgə ağzını açana kimi Əhmədin ağlına yüz fikir gəldi. Gölgə siqaret yandırıb birini də Əhmədə uzadıb dedi:

- Necəsən?

Əhməd yalnız bundan sonra Ataşı tanıdı. Onun dünən gecəki zəif səsindən əsər əlamət qalmamışdı. Onun uzatdığı siqareti alan Əhməd:

- Dünən gecəyə qədər yaxşı idim- dedi.
- Mal etibarlı yerdədir?- Ataş ətarafa baxa-baxa pıçıldadı.
- Nə mal?- Əhməd heç nə bilmirmiş kimi səsləndi. Əhməd bu sözlərdən sonra ayın tutqun işığında Ataşın ağzının sanki bıçaq kəsmiş kimi açıldığını gördü. O əlləri əsə-əsə Əhmədin yaxasından yapışdı:
- Əyə oğraş, sənə dünən gecə əlli min manatlıq  mal əmanət etmişəm.
- Sən mənə yalnız çanta vermisən, içində nə var onu bilmirəm. –Əhmədin bu sözlərindən sakitləşən Ataş onun yaxasını buraxaraq əllərini arxasında gizlətməyə çalışdı
- Get gətir! – amiranə tərzdə dedi.
- Sən mənə etibar etdin, mən də insanlıq etdim . İnsan kimi de gedim gətirim . -Əhməd incik –incik üzünü çevirdi.
- Yaxşı-yaxşı  incimə . Dəyən yerin yaxındı deyəsən . – Ataş səsini yumşaltdı.  Əhməd onun gözlərinin canavar gözləri tək parladığını gördü. Bu gözlərdə dünya ehtirası o qədər cox idi ki, Əhməd bu qaranlıqda belə  bunu sezdiyinə görə əti ürpəşdi. Ürpənti və maraq içində soruşdu:
- Niyə mən ? Mənə niyə etibar etdin?

Ataş ürəklə sümürdüyü siqareti bitirib, kötüyünü bir az aralı ataraq:

- Sizin ailədə  əmanətə xəyanət yoxdur. Bunu mən belə bilərək böyümüşəm. Bu aksiom mənə yetərlidir. –dedi.

Əhməd evdə əsən soyuq küləklərə baxmayaraq sakit-sakit içəri keçdi və birbaşa çanta qoyduğu yerə getdi. Çantanı çıxarıb qoltuğuna vurdu və sürətlə qapıya tərəf yeridi. O an atası bir müəllim zəhmi onun qarşısında bitdi. Əhməd bu eynək taxılmış gözlərin birində şəfqəti, birində hiddəti görəndə özündən asılı olmadan yerində duruxdu.Qolunu bədəninə tərəf sıxaraq sanki çantanı əlindən alacaqlarmış kimi  hazır durdu.

-Hara ?- atasının səsi içəridə ildırım tək çaxdı.

- Gəlirəm-Əhməd mümkün qədər yumşaqlıqla cavab verməyə çalışdı.

- O çanta nədir?

- Ata, mən uşaq deyiləm. -Əhməd bunu deyərək yavaşca atasının yanından keçib otağı tərk etdi. Ataş çantanı onun əlindən qapan kimi cəld içindəki bükülüləri saydı. Sayından

əmin olan kim Əhmədə quru bir sağ ol belə demədən uzaqlaşdı. Əhməd bu iki günlük həyəcanı beyninin bir küncündə dəfn edib yenə həmişəki yeksənək həyatına qayıtdı. Yenə bacısı dalaşıb gəldi . Yenə sabaha kimi uşağını saxlaya-saxlaya ağladı. Atası yenə əlindəki kitabda başını gizlətməyə çalışdı. Anası isə evdəki tarazlığı qorumaq üçün pələsəng oldu. Əhməd boş vaxtında babasının ayaqlarını ovxalayır O, isə "əgər Şuşada olsaydıq yəqin sənin mütləq bir qoyun sürün olardı, ya da sən yaxşı muğam oxuyardın"deyəndə Əhməd gülərək "baba, mənim heç səsim yoxdur axı" deyəndə O, isə etiraz edərək deyərdi "sən Bakının çirkli suyunu içmisən sevin ki, hələ səsin batmayıb. Sən o İsa bulağından içəydin onda görərdin səsin var ya yox..." Əhməd babasını cırnatmaq üçün şou biznesdəkiləri tərifləyəndə qoca cin-cin olur və əsasını qaldıraraq əli yetdiyi Əhmədi vurmağa çalışardı. Nənəsi öləndən az sonra babasının da ayaqları tutulmuşdu. Həkim qaldığnız yeri tərk edin oranın rütubəti kişini xəstə edib dedisə də, buna bir əlac tapa bilmədilər .Babasını isə qaldıqları yerdən daha çox basdırılacağı yer maraqlandırırdı. Hey deyirdi "Kaş mən ölənə qədər Şuşa qaytarıla idi. Məni burda-Bakının min cür hoqqa çıxarılan qəbirstanlıqlarında dəfn etməyin." Əhməd isə üzə vurmasa da özü-özlüyündə"Qəbirstanlıqda nə baş verə bilər ki,...." düşünür, amma heç cur anlaya bilmir, soruşmağa da utanırdı.

Heç iki gün keçmədi yenə Ataş yarasa kimi gecənin qaranlığında Əhmədin yolunun üstünə yapışdı.. Əhməd ərzaq dolu çantanı qolunu dincəltmək üçün yerə qoyub, siqaret yandırmışdı. Ataş qəfil pivə dükanın yanından çıxaraq:

-Bəuuu! – deyə qiyyə vurdu.

Əhməd tövrunu pozmadan:

- İndi də xoxan olmağa qərar vermisən.

- Mən həmişə xoxanam. Xəbərin yoxdur.- Ataş onun qorxmamağından pərt olaraq cavab verdi.

- Ataş, mənim xoxandan qorxacaq yaşım keçıb.

Ataş yenə ətrafı sürətlə süzərək , yağdan tük çəkirmiş kimi bütün diqqətini Əhmədin gözlərinə topladı və pıçıldadı:

-Şef səni görmək istəyir.

- Hansı şef?- Əhməd siqaretin tüstüsünü soyuq havanın içinə üfürərək soruşdu.

Ataş onun sualını cavablandırmadan:

- Gecə saat ikidə elə burada görüşürük. – dedi və gəldiyi kimi yox oldu.

Əhməd Ataş gedən qaranlığa baxaraq" vallah bir gün mənə bu Ataş vampirdi desələr, buna heç təəccüblənməyəcəm" –deyə fikrindən sürətlə keçirdi. Bu qarmaqarışıq fikirlərlə ikinci mərtəbəyə qalxdı və evlərinin məscid kimi daim açıq olan qapısından içəri keçdi. Atası həmişəki tufanını qaldırmışdı. Əhmədin içəri girməyi də elə bil odun üstünə benzin tökdü:

-Budur ey, baş müftəxor gəldi. Gəl, gəl başda əyləş –deyə atası rişxəndlə dedi.

- Ata, sənin məndən başqa mövzun yoxdur? Təzə püskürən vulkanlardan danış, onlar olmasa bütün müəllimlər kimi direktorun əleyhinə danış. - Əhməd atasının rişxəndinə zarafatla cavab verməyə çalışdı.
- Indi lağ yeri olmuşam?! Ay yazıq, mən sən yaşda universiteti qurtarırdım. Sən isə heç özünə iş belə tapacaq qüvvədə deyilsən.

- Sən bir dəfə də mənə bir axşamı haram etməsən yata bilmirsən eləmi? - deyə Əhməd əlini var qüvvəsi ilə divara çıpdı. Əli ağappaq əhəngə bulaşmış vəziyyətdə atasının üstünə getdi və nəfəsi kəsilə- kəsilə :

-Siz insanı qatil edərsininz . Neynim? Haradan iş tapım? Ağzımı açan kimi sən qaçqınsan nə vecinə deyirlər. Bax budur , budur mənim vecimə: rütubətli həyat kanalzasiya qoxusu verən yuxular. – çığırdı.

-Sən cızığından çıxmısan – deyə atası bağıranda anası da "vallah bunlara əməl ediblər, bunların arasına qurd yağı sürtüblər deyə "- mızıldana-mızıldana ağlayırdı.

-Əclaf, elə maaşımın yarısı sənin siqaretinə gedir. Bundan sənin xəbərin var?

- Ey namuslu coğrafiya müəllimi, sən bizi yaşada bilmədin ,bacarmadın bunu etiraf et .

- Sən yaşat! Tin avarası, görək nə bacarırsan. – atası sinəsini ovxalaya-ovxalaya divana çökdü.

Əhməd səsinin tonunu alaraq demək olar ki, pıçıldadı:

-Hər halda mən səni, sən babamı yaşatdığından yaxşı yerdə saxlayacam .

Atası onun bu pıçıltısına cavab olaraq:

-Əgər bu kasıb komanın qanınları ilə yaşamayacaqsansa burdan rədd ol!

- Gedərəm.

-Get, cəhənnəm ol!

- Gedərəm, gedərəm , tələsmə!-deyə Əhməd çarpayının üstünə atdiği cındırı çıxmış gödəkcəsini dartdı. Onun burun pərələri şişir, atası kimi hirsindən bədəni əsirdi..

Anası Əhmədin qolundan yapışıb zarıdı:

-Axı, hara gedəcəksən səəəən, gecənin bu aləmi?

Lakin o, anasını kənara itələdi

-Qoy getsin, bu yolunu azmış ! Qoy getsin məlun! Yeri, yeri rədd ol!- Atası ucadan qışqıra-qışqıra qapını taybatat açdı. Əhməd sıçrayıb bloka çıxdı və eşitdiyi axırıncı səs – anasının ağlar səsi idi.

Əhməd bayıra çıxanda ilk öncə başından çıxan alovla soyuğu hiss etmədi. Bir neçə dəqiqədən sonra üzünə tökülüb hərarətindən əriyən qarın mayesi dodaqlarına axanda qar yağdığınını fərqinə vardı. Birinci ağlına gələn şey binadan sürətlə uzaqlaımaq oldu.Sonra yavvaş-yavvaş harada qala biləcəyi haqqında düşündü. Əlini cibinə atdı. Bayaqkı bazarlıqdan cibində vur –tut səksən qəpik qalmışdı. Sonra Ataşın saat ikiyə təyin etdiyi görüş yadına düşdü. Özü- özülyündə “ora gedim getməyim” deyə tərəddüd içində qövrılmağa başladı.Sonra cıbındəki səksən qəpiyi , daha sonra isə evə qayitmağın bir qürur məsələsi olduğunu xatırlayıb “ lap dilənçi mafiyasına qoşularam amma o evə qayıtmaram “ deyə özü üçün bir qərar qətiləşdirdi.

Ataş görüş yerinə gələndə Əhmədin donmayan bircə dişləri qalmışdı.

Ataşın düşdüyü maşın qışın ayazında par-par yanırdı . O, heç bir söz demədən Əhmədin qolundan yapışıb maşına otuzdurdu. Əhməd maşının istisində bir az özünə gəlib Ataşdan hara getdiklərinin soruşdu. Ataş isə”tələsmə” deyə onu sakitləşdirdı. Əhməd üzünü maşının şüşəsinə söykəyərək bir məchulluqda itib- batdığının fərqinə belə varmadan dolaşıq fikirlərin içində tora düşmüş balıq təki çapalayırdı.

Gecənin qaranlığı maşını udduqca şəhərin işıqları uzaqda bir mayaka dönürdü.Əhməd maşının aynasından Ataşın ona baxan gözlərinə baxaraq:

- Sən ancaq gecələr uçursan?-deyə ona sual verdi.
- Sən də görəcəksən . Biz bu şəhərin yarasalarıyıq .Biz gecə ova çıxmasaq ac qalarıq.
- Indi sən məni hara aparırsan? Yoxsa şahiddən can qurtarma əməliyyatını keçirisən?

- Yox, səndən hələ can qurtarmağa var. Hələ sən nə bilirsən ki, təzə qansan çirklənməyinə çox var.- Ataş gülərək cavab verdi.
- Hə, nədi çirkləndə siləcəksəniz məni? -Əhməd onun gülüşünə ciddi sualla qarşılıq verdi. Ataş isə maşının sürətini daha da artıraraq:
- Hələ bilinmir kimi –kimi siləcək.-deyə Ataş bayaqkı şən səsindən fərqli olaraq qəmli-qəmli dedi.

** *

Qar kəsmışdi lakin şaxta şiddətlənirdi. Ataş gedərək maşının sürətini azaldırdı. ətrafda canlı həyatın olacağı belə şübhəli olan bir məkanda maşını saxlamağın ağılsızlıq olduğunu Əhməd Ataşa demək istəyirdi ki, qəfil qarşıdan düşən gur işıq hər ikisinin gözünü qamaşdırdı

Ataş bu işığa cavab olaraq iki dəfə maşının işıqlarını yandırıb söndürdü. Əhməd bunu bir parol olduğunu anlayana qədər qarşıdakı maşından düşən hündürboy cantaraq biri gəlib maşında oturdu. Oturan kimi cəld başını arxa tərəfə çevirərək Əhmədi yarımqaranlıqda süzdü və Ataşa tərəf dönərək:

- Problem yoxdu?

Ataş əminliklə:

- Tərtəmizdi.-deyə cavab verdi.

Bu qısa polemikadan sonra Ataş başı ilə Əhmədə düşmək işarəsi verdi və onlar hər üçü qarşıdakı maşına tərəf getdilər.

Səhərin soyuğu cana işləyəndə ayıldı. Ataş burnunu ovuşdura-ovuşdura yuxunun dərin qatlarında idi. Onun başı oturacaqdan yana sallanmışdı.Əhməd bir gecədə başına gələnləri sıra ilə xatırlamağa çalışdı. Evə dönməyini atası ilə dalaşmağını, sonra evi tərk etməyini aydın xatırlasa da ondan sonrakı hadisələr dumanlı idi. Maşından çıxan kimi gərnəşib əlini sinəsinə döyəclədi. Fevral ayazı əlini –üzünü yalayanda bir az ayılan kimi oldu. Əlini cibinə salanda orada bir bükülü olduğunu hiss etdi. Elə o an gecəki hadisəni nöqtəsinəcən xatirladı.

Qaranlıq gecənin sifəti tək qapqara olan fordda onları bir eynəkli adam qarşıladı. Onun üzü içərinin zəif işığında demək olar ki seçılmirdi. “buqələmun”- deyə Əhməd gizli-gizliu

düşündü.Qaranlıqda yalnız iri dodaqları seçilən bu adam xırıltılı səslə sabah gecə cənub sərhəddinə getmələrini və Əhmədin Ataşa kömək etməsini söylədi. Sonra o bayaqkı cantaraq adama işarə verdi və o Əhmədin qarşısına bir bükülü qoydu. Ardınca Əhmədin buqələmun adlandırdığı adam "bu hələ avansdı keçən dəfəki etibarına görə. İşlərə uğur gətirsən bu artacaq . Görək  anlaşa biləcəyik. " – dedi. Əhmədgil forddan düşəndən sonra ford işıqlarını belə yandırmadan qaranlığa qarışdı.

Əhməd yaddaşını qurdalayandan sonra əlini bükülüyə atdı. Kağızı ehtiyatla aralayaraq içnə baxdı. Əhməd yalnız bu zaman insanın həyaını bir anda dəyişə biləcək o yaşıl pulları gördü. Əli əsə-əsə saydı: tam iki min dollar idi. Əhməd onların əziz bir varlıq kimi qoxusunu sinəsinə çəkdi. "Pulun qoxusu necə cəlbedicidir. Bu qoxu sanki bir az tər, bir az ətir, bir az benzin bir az da insanın heç də dərk etmədiyi xöşbəxtlikdən yoğrulub.Neçə dərdimimzin dərmanı pul məni belə yollara sala biləcək qədər qüvvəyə malik olan bir topa kağız"- düşünərək  pulları kürkünün içəri cibinə qoydu.  Əhməd şövqlə əlini -əlinə sürtərək qızışdırdı. Cibindəkilər ona elə bir istilik vermişdi ki, sabahın ayazı belə ona xoş gəlirdi.Başı necə qarışmışdısa,Ataşın belə yuxudan oyandığını görmədi.

- Ey kolleqa, franklin deyəsən öz təsirini edib?- Ataş arxadan qəfil səslənəndə Əhməd diksindi.
- Yox, yox elə evi fikirləşirəm . Harada qalacam, bu gündən sonra nə edəcəm?- Əhməd başını qaşıya-qaşıya diksindiyini büruzə vemədən dedi.
- Sənin etdiyin bu işdən coğrafiya müəlliminin xəbəri olsa....
- Hə başqa ev tutmalıyam. Məh həyatımı o cirkabdan qurtarmaq istəyirəmsə, birinci addım başqa ev tutmaqdı.
- Mənim novastroykada bir otaqlı evim var. Bir il olar almışam. Hələki gedib orada qala bilərsən. Həm də mənim və işimiz üçün bu avantajdır. Gəl gedək  mədəm sıyrıldı. Bir yerdə bir şey yeyək.

Əhmədin sürətlə sürükləndiyi həyat artıq onu ağuşuna almaqda idi.Pul,pul. Ətafındakı cərayan edən hadisələr, gördüyü işlər, hətta həyatını təhlükəyə belə atanda belə onun üçün bir streotip var idi: dörd- dördlük bir həyat yaşamaq.Birinci qazancını vaxt itirmədən bacısına apardı. Bacısı onu qızarmış gözləri və kirli önlüyü ilə qarşıladı. Pulu əlinə alanda sualedici nəzərlərlə qardaşına baxdı. Əhməd gözlərini ondan yana qaçırdaraq:

- Kirayəyə çıxın. Aylığ bütün ehtiyaclarınızı ödəyəcəm..
- Sən bu qədər pulu haradan almısan?
- Oğurluq etməmişəm, arxayın ol!

- Atamın bundan xəbəri var?
- Mən daha oraya qayıtmayacam. - Əhməd bunu deyib bacısını qucaqladı. -Siz yaxşı olun, bu mənə yetər. Məni axtarma mən lazım olanda səni tapacam.- Əhməd sürətlə bacısından aralanıb pılləleri düşdü. Bacısı pəncərədən onun Ataşın maşınına mindiyini görəndə yarı-yarımçıq nəyin baş verdiyini anladı. Əlindəki pulu bağrına basaraq , bu dəfə tamam başqa səbəblə ağladı.

Iki gün sönra cənub sərhəddindən küllü miqdarda mal gətirdilər. Bütün işlər tamamilə təhlükəsiz sovuşanda Əhmədin gəlişini uğur kimi qeyd eləməyə getdilər. Əhməd şəhərin kənarındakı bu köhnə otelin belə gözəl olacağını xəyalına belə gətirmirdi. Hər şey su, sel kimi idi.Yeməklər az qala stoldan axıb tökülür , bahalı içkilər töküldükləri bakallar kimi işıq saçırdılar. Bir azdan Əhmədin tanımadığı bir sıra gənclər də məclisə qoşuldular. Səs- küydən qadınların və kişilərin səsini ayırd etmək mümkün deyildi. Əhməd Amerika filmlərində gördüyü parti səhnələri bu partinin gölgəsində qalardı. Əhmədin bu qarışıqlıqda qucağında ilk dəfə bir qadın oturdu sonra işıqlar qırmızılaşdı sonra yaşıllaşdı . Səs –küy bir topa iynə olub Əhmədi qulağına batmağa başladı. Siqaret dumanın içində qəfildən Əhmədə tanış sifət bir doğuldu. Bu sifət böyüyüb otaq boyda oldu. Bu yekəpər sifət cibindən bi həb çıxarıb Əhmədə uzatdı və uzaqdan zorla eşıdılən bir səslə-“bunu at düzələrsən”- dedi . Yekəpər sifət yox oldu . Əhməd əlindəki həbə baxaraq nə olduğunu anışdırmadan belə ağzına atdı.

Səhər ayılanda birinci hiss etdiyi küt bir baş ağrısı idi. Yerindən qalxıb ayağını çarpayıdan yerə salladı. Ürəyinin bulandığını hiss edən kimi cəld yerindən tullanıb özünü tualetə çatdırdı. O ki var qusdu. Qusduqca ona elə gəlirdi ki, dünyanı yeyib və mədəsindən gələn bu axın bitməyəcək. Ağzını su krantında yaxalayandan sonra üst- başının batdığını görüb çimməyə qərara aldı. Su şırıltı ilə üstünə töküldükcə elə bədəni yüngülləyir , canı dincəlirdi. Duşdan çıxanda əlini dəsmala atanda onun yerinin boş olduğunu görüb otağa elə çılpaq qayıtdı. Otağa girəndə gözləri kəlləsinə çıxdı.Ona elə gəldi ki, sanki indicə bu otaqdan çıxmayıb. Çarpayıda başı balışın altında olan bir qadın, yerdə xalçanın üzərində bir qadın yatmışdı. Yerdəki qadının ayağnı Ataş quçaqlayıb yatmışdı. Əhmədi gördüyü mənzərə nətəhər çaşdırmışdısa özünün çılpaq oldüğünü unutmuşdu. O, qızların birinin qımıldandığını görəndə bir göz qırpımıda özünü əlinə ilk keçən mələfəyə bükdü. “ Bu qızlar bura hardan gəlib çıxıblar ? Ataş niyə bu evdə qalıb? Axşam nə olub ki, mən evə qayıtmağımızı xatırlamıram?” bu suallar Əhmədin beynini necə gic etdisə dizini yerə atıb üzünü ovuşdura-ovuşdura fikirləşməyə başladı. “Mən xatırlamıram, yəqin Ataş nəsə xatırlayar” fikri ilə onu sirkələməyə başladı. Ataş gah o tərəfə gah bu tərəfə dönərək mızıldanır və yanında uzandığı qızın qılçasına daha da sarılırdı.Əhməd onu sürüyüb qızdan araladıqdan sonra çiyinlərindən

tutub silkələməyə başladı. Ataş sərxoş adamlar təki ayıldı və ağzına gələn ən pis küçə söyüşləri ilə Əhmədin səhərini bəzəməyə başladı.Əhməd:

-Ayıbın, ədəbin olsun burada qızlar var. Heç olmasa, onlardan utan- deyə onun ağzını əli ilə qapamağa çalışdı.

- Burax əclaf ağz...- Ataş onun əlini üzündən kənarlaşdıraraq söyləndi-....ımı. sən elə bilirsən onlar mələkdi?!. Narahat olma onlar bu söyüşlərin lap göbəyindən gəlirlər. Qarğalar oyanmamış yapışmısan gənə kimi yaxamdan hələ bir ağzımı da tutur. – Ataş yerindən qaxıb gərnəşə- gərnəşə hamama getdi.

Əhməd yenə vəziyyətdən bir şey anlamayaraq Ataşın hamamdan çıxmasını gözləməli oldu. Oturduğu yerdən qalxaraq büründüyü mələfəni özünə daha da bükərək yerə tökülmüş paltarların içindən özününküləri zorla taparaq bir yerə topladı və geyinmək üçün mətbəxə getdi. Təzəcə geyinmişdi ki, bir hənirti eşidib geri döndü. Ataşın belə tez hamamdan çıxmasına təəcübləndi. Lakin gələn qızlardan biri idi ki, Əhməd onun Ataşın yanında uzanan qız olmadığını gördü. Qızın dağınıq saçlarının qapadığı üzündən yalnız al qırmızı dodaqları görünürdü. Yarıçılpaq bədənini yalnız tül kimi bir gecəlik örtmüşdü. Əhmədə bir anlıq elə gəldi ki, möhtəşəm bir gözəlliyi muzeydə şüşə arxasından ona nümayış etdirirlər. O nəfəs aldıqca əynindəki nazik paltar sanki onun bədənindən qaçıb qurtulacaq tək titrəyirdi. Əhməd ürəyinin başına çıxdığını zənn etdi. Nəfəsi təngiyə-təngiyə diqqətini qızın bədənindən ayıraraq əllərinə dikdi. Qız əlinə keçən ilk stəkana su qrafinindən su tıkməyə çalışırdı lakin suyu stəkandan başqa hər yerə dağıdırdı. Əhməd ürəksiz-ürəksiz qıza yaxınlaşaraq:

- Qoyun mən edim.-dedi.

Qiz gözlərini Əhmədin üzünə dikəndə O, bu qədər gözəl olan bir varlığın heç bir şey ifadə etməyən bulanıq gözlərini görəndə əti ürpəşdi. Qız heç nə demədən stəkanı Əhmədə tərəf uzatdı. O, sürətlə stəkanı su ilə doldurub geri qaytardı. Qız eyni Ataş kimi sol əli burnunu ovuşdura-ovuşdura suyu titrəyən sağ əli tutmağa çalışırdı. Əhməd “ bəlkə də xəstələnib ona görə belə titrəyir” düşüncəsi ilə :

- Özünüzü pis hiss edirsiniz?- yavaşca soruşdu.
- Yoooox-sözü uzadaraq səslənən qız səndələdi. – Ataş hanı? Onu tez çağır!- əli ilə mətbəx stoluna dayaq verib özünü düz tutmağa çalışdı.
- Nə lazımdırsa mən edə bilərəm. Bəlkə həkim çağırım?!- Əhməd cani-dilldən nə isə etməyə çalışan adam səsi ilə soruşdu.

- Nə həkim bazarıdı?!...tez Ataşa denən ki,..............-qız artıq heç nə deyə bilməyərək boğulmağa başladı.Əhməd nə edəcəyini kəsdirə bilmədi. Qız artıq balıq kimi yerdə çapalıyırdı. Onun sürətlə yerə yıxılması və gözlərinin hədəsindən çıxması Əhmədi necə qorxutmuşdusa o yerində donub qalmaqdan başqa bir şey edə bilmirdi. Elə bu an Ataş göydən düşmüş kimi mətbəxin ortasında peyda oldu. O, cəld qızı qaldırıb divara söykədi və yataq otağına qaçdı. Heç bir dəqiqə keçməmiş geri döndü və cibindən rezin çıxararaq qızın qoluna sarıdı. Əhməd olanı bitəni heykəl kimi izləyirdi.

Ataş:

- Nə gözünü döyürsən, kömək elə- deyəndə dik atıldı. Tez qıza dayaq verdi. Qız ət kimi o yana bu yana sürüşür, Əhmədə qəribə izah olunmaz bir duyğu yaşadırdı. Ataş isə Əhmədin rəngi – ruhuna fikir vermədən əlindəki şprisi qızın vena damarına boşaltdı. Işini bitirəndən sonra onu qucağına alaraq yataq otağına apardı. Əhməd  səhər –səhər acqarına baş verən bütün bu adrenalinin hesabını Ataşdan soruşmaq üçün  özünü ələ almağa çalışdı. O, yataq otağına keçəndə yerdəki qız tərpənmədən ölü kimi yerində yatmağında idi. Ataş  sağ qolundakı rezını açmağa çalışırdı.
- Iynə vurursan?  Bunun axırı yoxdur bilirsən?-Əhməd Ataşın qolundakı rezini açmaqda ona kömək edə -edə dedi.
- Amma sən indi mənə kömək edirsən. Yaxşı dostlar sağ olsun.
- Ataş, yaxşı dost adamı iynəyə oturtmaz.
- Atan kimi danışma. Məlum oldu başlayacaqsan qəzəl oxumağa . Bildik atanın oğlusan. Qonşunun səndən xəbəri yoxdu.- Ataş gözləri axa-axa Əhmədin kürəyinə döyəclədi.
- Yaxşı bəs bu qızlar? Bunları haradan tapmısan? Ona vurduğun iynə də bunan idi?
- Əhməd,sualları bir- bir ver nəfəsim tıncıxdı.
- Bəlkə də onun heç iyrimi yaşı da yoxdur.- Əhməd heyfsilənə-heyfsilənə qıza tərəf baxdı.
- On səkkiz , on səkkiz yaşı var . Onu üç ildi tanıyıram . Hə bir də onları biz tapmırıq, onlar bizi tapır.Bunlardan paytaxtın küçələrində yüzlərlədi. Bir qram heroyinə nəinki özlərini, hətta nəsillərini də satarlar.- Ataş qızın saçlarını qarışdıraraq dedi.
- Əlini onun saçından çək!- Əhməd Ataşı itələdi.
- Ey,ey özünə gəl! Bir geçə sənin yanında yatdı deyə bəlkə  durub namus ustundə məni öldürəsən?!...
- Yox, yox ona görə demirəm, nə isə mənə baş qoşma.- Əhməd belə deyərək çarpayıdan qalxıb pəncərəyə tərəf getdi.Günəş  boz buludların arxasından utancaq-utancaq boylanırdı.  Yazın  sehrli əli təbiətə yavaş-yavaş  əl gəzdirirdi. Ağacların kövrək pöhrələri Əhmədin olduğu dördüncü mərtəbədən görünməsə də, Əhməd pəncərədən vuran mehin

qoxusundan onları hiss edirdi. Əhməd qəfil bu yarı bozumtul mənzərədən aralanaraq üzünü Ataşa tərəf tutdu:

- Mənə həbi axşam kim verdi?
- Neynirsən, xoşuna gəlmədi?- siqaretin tüstüsünə bürünmüş Ataş suala sualla cavab verdi.
- Mənə birdə elə bir şey verməyin. Əgər versəniz, öldürsəniz belə çıxıb gedəcəm.Tüpürəcəm hər şeyə.
- Yaxşı, mən bunu uşaqlara deyərəm. Mən....- Ataşın danışığını yataqdakı qızın ayılması yarımçıq qoydu. Qız oturuşuna fikir vermədən qalxıb Ataşa söykəndi. Əhməd bu mənzərəyə baxmamaq üçün yenə üzünü pəncərəyə tərəf çevirdi.Ataş isə qızı özündən aralayaraq dedi:
- Gülya, sən əvvəl-axır məni bəlaya salacaqsan. Əgər şefin bu gecədən xəbəri olsa, sən bilirsən o nə edər?... Ən azı pişiyimizi ağaca dırmaşdırar.
- Kef elə bir ..........yeyəmməz – Gülya Əhmədə qəribə gələn bir tərzdə söyüş söydü. Bir qızın bu şəkildə oturması( o gecəliyini tamamilə yuxarı sıyıraraq budlarını açıq buraxmışdı) belə Əhmədə necə pis təsir etmişdisə O, üzünü geri çevirməkdən daha çəkindi. O, qorxdu ki, onun bütün bədənin tər basmasını elə Ataş bilsə, biabır olacaq. Qız isə heş nəyə məhəl qoymadan Ataşın əlindən siqaretini qaparaq çəkməyə başladı.
- Ay dəli, anaşadı. İynə sənə indicə vurulub. Ölüb ayağımda qalacaqsan. Nadya ayılmamış cəhənnəm ol, get buradan- Ataş siqareti onun əlindən alaraq üstünə qışqırdı.
- Axı niyə məni heç kəs başa düşmür- qız qəfildən içini çəkə-çəkə ağlamağa başladı. Sən heç vaxt qanmayacaqsan ki, o əntərin qoynuna girmək nə qədər əzablıdır.
- Hə, düz deyirsən. Bu mənə qismət olmayacaq, amma başına dönüm məni qana çalxama . Bu əyri dünyada bir tikə çörək tapıb yeyirik, onu da zəhər etmə. O əntərin, o da sən .

Ataşın bu sözlərindən sonra qız paltarlarını axtarmağa başladı. Əhməd pəncərədən aralanaraq stulda oturdu. Onun qıza tamaşa etdiyini anlayan Ataş:

- Ac qurd kimi baxırsan xəbərin var?- deyə pıçıldadı

Əhməd Ataşın nəfəsini qulağının dibində hiss edəndə ,sözləri belə eşitmədən qızardı. Qız işarələşmədən nə anladısa, üzündə qəribə bir ifadə ilə gülməyə başladı və asta- asta Əhmədə yaxınlaşdı. Ataşa fikir vermədən :

- Bəlkə, məni evə qədər ötürəsən. Yol- yurd avara ilə doludur. – nazla Əhmədə dedi
- Yox, O, iş dalınca gedəcək. Birinci dəfə deyil ki, tək gedə bilməyəsən... Guya bu şəhərin küçələrində böyümüş qız deyilsən?! .- Ataş Əhmədə macal vermədən tez etiraz etdi.
- Mənim işim var ki? Bunu mənə niyə deməmisən ki?- Əhməd məsum şəkildə Ataşdan bunu soruşduqda, O, hirslə hər ikisinin üştünə çığırdı:

- Cəhənnəm olun gedin! Allah bəlanızı versin. Qanmaz köpəkuşağı.

Onun çığırtılarından bir dəqiqə sonra Əhməd Gülya ilə binanı tərk edirdi.

- O, niyə o qədər hirsləndi?- Əhməd dodağının altında mızıldandı.
- Sadəcə olaraq bizi qorumaq istəyir.
- Kimdən?- Əhməd ona sual verdi.
- Ehh . Cəhənnəm olsun hamısı. De görüm adın nədir?- qız dirsəyi ilə onu dürtmələdi.
- Əhməd.
- Barrıkasan? Yoxsa ........
- Yox. Deyilənə görə əsas işdəyəm.
- Çəkmə, vurma, iyləmə hansından xoşun gəlir?- Gülya maraqla onun üzünə baxdı.
- Heç birindən təmiz.
- Inanmaram. Mənim bildiyimə görə bu işin polis iti olmaq belə, onu dadına baxmaqla başlayır
- Təbiətdə buynuzlu ilan var eşitmisən? Çətin eşidəsən. Atam həmişə deyir ki, yeganə su heyvanıdır ki, bütün həyatı sudan asılı olsa da üzməyi bacarmır.
- Yox eşitməmişəm-Gülya məsumcasına boynuna aldı- yəni işi işə bulaşmadan görmək olar, amma bu məndən keçib.
- Səni müalicə etdirmək olar, bəlkə də. - Əhməd dedi
- Yox, olmaz. Mən artıq butun həyatımı girov qoyaraq bu aləmdə yaşayıram. Müalicə olunub nə edəcəm? Bizim kimilərə bu həyatda heç vaxt yer olmayıb. Biz bu dünyanın artıq kəsilmiş dırnaqlarıyıq. Gəl, burada oturaq- qız içindən keçdikləri parkdakı skameykanı göstərdi.
- Hə oturaq . Sən burada gözlə, mən bir şey alım yeyək.- Əhməd onun cavabını gözləmədən oradan aralandı.Günəş yavaş- yavaş günota xəttinə yaxınlaşırdı. Əhməd bulka və bir az da şirə alaraq cəld geriyə döndü. O, skamyanın yanına çatanda Gülya artıq orada yox idi. Əhməd nə qədər ətrafa boylansa da, onu görə bilmədi. Əlindəkiləri yanına qoyaraq oturdu və bir siqaret yandırdı.

***

Əhməd içində alışıb yanan qəribə bir hissin ayaqları altında idi. O, indi Gülyanı görmək ümidi ilə demək olar ki, hər gün "mərkəzə" baş çəkirdi. Mərkəz adlandırılan yer önü maşın təmiri, arxası böyük bir sex idi. Lazım olan məsələlər, malın bölüşdürülməsi və xainlərin cəzalandırılaması belə bu məkanda baş verirdi. Əhməd diqqət çəkməmək

üçün əvvəlcə maşını təmirə verir sonra şübhəli bir şey sezməyəndə içəri sızırdı. Bir dəfə uzaqdan Gülyanın buradan çıxdığını görəndən sonra içindəki bir qırıq ümid onu hər gün bura sürükləyirdi.  Iki- üç günlüyə ölkəni tərk edəndə isə geriyə qayıtmaq üçün az qala zamanın ipini çəkirdi. Yenə təmir sexinin qarşısında stulda oturub ayaqlarını laqeydcəsinə uzatmışdı. Günəş zalımcasına parlayır, səmadan yerə yay alovunu püskürürdü. Əhməd  kepkasının günlüyünü gözünün üstünə basaraq özünü yuxululuğa vurmuşdu. Elə bu zaman  tanış bir səs qulağnın dibində çınladı:

-İyrimi iki yaşlarında boyu bir metr yetmiş beş, alagöz, dərisi günəşdən yanaraq miş rəngə düşmüş, əynində son moda cıns şalvar və ağ futbolka olan  Əhməd adlı oğlan evdən çıxmış və bir daha geri qayıtmamışdır. Görənlərdən xahış olunur ki, qaqaşı Ataş ondan ötru möhkəm darıxmışdır.-Əhməd Ataşın bu sözlərinə qəhqəhə çəkərək qalxıb onunla qucaqlaşdı. Ataş isə dil boğaza qoymadan döğrayıb tökürdü:

- Ay şərəfsiz, haralardasan ? Niyə evə gəlmirsən? Qara pişik keçib aramızdan?
- Alə, yox . Yaydı da,  elə maşında yatıram. Yuxum gəlir ki....
- Məcnun olub düşmüsən çöllərə, amma qardaşım səhv yoldasan- deyə Ataş başını buladı.

Əhməd heç nə anlamırmış kimi:

-Nə deyirsən? Heç nə başa düşmədim

- Lazım olmayan adamın dalınca düşmüsən.

- Sən haradan bilirsən?

-Mən sevən adamı nəfəsindən hiss edirəm.Gəl gedək, bir yerdə oturaq. Danışmaq lazımdır.

Ataş Əhmədi dəniz qırağındakı həmişə oturduqları restorana apardı. Ataş siqareti siqaretə calayaraq  hey susurdu.

- Ataş, di balala. Ürəyim partladı.- Əhməd səbirsiz-səbirsiz dilləndi.
- Heç bilmirəm haradan başlayım. Qaqaş, sən doğurdan bu Gülyanın dalınca sürünürsən?
- Bayaq soruşdun, mən də boynuma aldım. Hə vurulmuşam.
- Sən onun haqqında hər şeyi bilirsən?
- Insan bildiyini deyil, duyduğunu sevər.
- Yaxşı, yaxşı anladım. Indi sənə onun kim olduğunu desəm, yəqin ki vaz keşərsən bu sərsəm fikrindən.
- Başla! Ürək dərmanı atım?

- Lağ eləmə! Əhməd, mən səni qorumaq istəyirəm.
- Atam deyilsən ki,, De görüm, nə deyirsən.- Əhməd əsəbi şəkildə ona cavab verdi.
- Əhməd, o qız şefin məşuqəsidir. Bunu  dəstədə hamı bilir. Onun on səkkiz yaşı tamam olandan bəri O, ən yaxşı kamikadze kimi ad çıxarıb.
- Yəni bətnində mal keçirdənlərdən eləmi.- bunu deyərək Əhməd başını qucaqladı və bir neçə dəqiqədən sonra- Qaqa, əgər məni bircə damcı istəyirsənsə, onun ünvanını ver .
- Olmaz! – Ataş qəti şəkildə etiraz etdi.
- Vallah öləcəm. Buram məni öldürəcək.- Əhməd əlini sinəsinə döyəclədi- Ver ünvanı!
- Verə bilmərəm.Onun evi daim nəzarət altındadır amma səninlə onu bir dəfə görüşdürə bilərəm. Bir şərtim var .
- Nə şərt?
- Bu birinci və axırıncı görüş olacaq.
- Sən görüşü təşkil et mən şərti fikirləşərəm.
- Yox fikirləşməyəcəksən! Edəcəksən!- Ataş qəti səslə bildirdi. Əhməd çarəsiz şəkildə onun üzünə baxdı.

Əhməd dəstədə olduğu müddətdə, dəqiqliyi və etibarı ilə ad qazanmışdı. Əldə etdiyi qazancın yalnız otuz faizini özündə saxlayardı. Qalan hissəsi bacısına çatardı. Bacısıgil bu müddətdə kirayəyə çıxmışdılar, hətta Bakı ətrafından torpaq da ala bilmnişdilər. Yeznəsi bəzən qudurmışluğuna salanda Əhmədin cibində az qala siçanlar oynayırdı. Canını bu qədər riskə atmağının yeganə qazancı isə aldığı ikinci əl qara Mersedes idi

Ataş günortaya ünvanı gətirib verəcəyini boyun olmuşdu. Səhər erkəndən oyanmışdı. Ürəyi sinəsində quş balası kimi çırpınırdı.  Hey saata baxmaqdan canı boğazına yığıldı. Vaxtı öldürmək üçün geyinib evdən çıxdı.Özündən asılı olmadan bir anda bacısıgilin evinin qarşısında özünü tapdı. .

Adəti üzrə maşınını səliqə ilə kənarda saxlayıb, balaqapıya doğru irəlilədi. Əlini bala qapıya atmışdı ki, əli havada qaldı. Balaqapının o tayında bir tanış üz ona baxırdı. Bu tanış üz necə də arıqlamışdı, necə də gözlərinin altı torbalanmışdı. Istədi salam versin lakin dilinin ağzında necə ağır olduğunun fərqinə vardı. Birtəhər özünü topalayıb kənara çəkildi. Onları bu ağır vəziyyətdən bacısı vaxtında qurtardı:

-Ata, tələsmə qoy bunu da verim- deyərək əlindəki bükülü ilə arxadan yaxınlaşdiğinda Əhmədi görərək duruxdu.

- Lazım deyil. Evə getmirəm.- atası yorğun səslə cavab verdi.

Bu iki adamın burada qarşılaşması  Gulnarı necə çaşdırmışdısa bilmirdi Əhmədim üzünə baxsın, yoxsa atasının.

Qafar balaqapıdan asta – asta uzaqlaşarkən Əhməd:

-Babam nə təhərdi?- deyə arxadan səsləndi.

-Yaxşıdı.-deyib əlini maşının üstünə qoydu- Daha pullu kişi olmusan həyatda istədiyinə nail olmusan. Bizim kimi kasıb- kusubu saymarsan.

Əhməd yalnız atasına məxsus olan bu kinayəli ifadəni onun üzündə gördükdə yenə əvvəlki vaxtlar kimi qıcıqlandı.

- Gördüyün kimi bacaran tapırmış sürünməyə ehtiyac yox imiş- Əhməd atasına yaxınlaşaraq demək olar ki, pıçıldadı.
- Mən səndən iyrimi ildə oğul düzəldə bilmədim, maşallah görürəm sən altı ayda kişi olmusan. Amma özün bulaşdığın haramı bu yazıqların evinə də daşıyırsansa, vay onda hamımızın halına.
- Mən bütün bunlardan ötrü əziyyət çəkmişəm. Niyə haram olur ki?!
- Düz deyirsən. Oğrular da əziyyət çəkir, amma yadında saxla alti aya kişi olanı altı gündə sünnət edirlər.- Qafar oğluna yenə həmin kinayəli ifadə ilə baxaraq uzaqlaşdı.

Əhmədin kefi tamamilə pozulmuşdu. Daha bacısının yalvarmağına da baxmayaraq maşınına minib oradan uzaqlaşdı. Ha çalışırdısa da, atasının bu acılı mövqeyinə özlüyündə bir bəraət qazandıra bilmirdi.” Bu kişi niyə məni qəbullanmaq istəmir. Onun üçün pulum olsa da, birəm olmasa da birəm. Deyəsən dəyişən bir şey olmayacaq. Nə orda qoymadı yaşayam, nə burada olmağımı qəbullanmır. Bu kişi elə sovet düşüncəsi ilə də bu kapitalizmdə yaşayacaq, deyəsən”- Əhməd fikrin –zikrin içində boğularkən telefonun zənginin fərqinə vardı. Ataş idi, ona həmişə  otuduqları restorana çağırırdı. Əhməd bu zəngi səbirsizliklə gözləməyinə baxmayaraq içindəki anlamadığı bir sıxıntıya görə heç buna sevinmədi. Yolunu dəyişərək dənizkənarı parka doğru yol almağa başladı.

Əhməd restoranın həyətinə girəndə Ataşın yenə öz stolunda burnunu ovuşduraraq siqaret tüstülətdiyini  gördü. Özünü stula necə yıxdısa, Ataş az qala siqareti əlindən yerə salmışdı.

- Əə, adamlığın olsun adam da özünü stola polis kimi yıxar? Ürəyimi –göbəyimi saldım az qala.
- Çəkdiyindən mənə də ver!- Əhməd dodağının altında mızıldanaraq əlini Ataşa uzatdı.

- Ah, nakoneç sən də qoşuldun da bu ceyillərə. Bu gün nə günüdür belə?!.... eşq əzabına düşmüş Məcnun iyrimi birinci əsrdə səhraya düşməz, nəşələnər.
- Ataş, sən canın çərənləmə bir siqaret istədik dünya dağılmadı ki?
- Sən əla bilirsən ki, məndə siqaret olmaz. Məndə olandan verə bilərəm.
- Ver gəlsin! Nə verirsən ver amma məni bu içimdəkindən qurtar.
- Qoy ayın tarixinə baxım .
- Ayın tarixini neynirsən?-Əhməd əlini qaytarıb cibinə qoydu.
- Bu gün sən altı ayda ilk dəfədi ki, məndən nəşə istəyirsən. O sən ki, həmişə deyərdin ki, "yox qardaş mən bu işi bu işə bulaşmadan görə bilərəm".deyəsən fikrindən döndün.
- Dözə bilmirəm. Bu gün atamı gördüm.
- Coğrafiya müəllimi bu gün nə deyirdi?
- Altı ayda kişi olanı altı gündə sünnət edərlərmişlər.
- Eləmi?!- Ataş əlini cibinə ataraq ortalığa bir qutu siqaret atdı- ağır sözdü. Bəlkədə kişi düz deyir, amma sözü elə belə həzm edə bilməyəcəksən cək, qardaş . Gülyanın dərdi bəs deyil, hələ bu harasıdı.

Əhməd hələ tüstüsündən hallandığı bu şeyin dadına baxanda iyunun on doqquzu idi. Iyunun on doqquzundan sonra onun həyatında vur tut üç rəng oldu. Ağ, qara və mavi. Tapıb çəkə bildiyi günlərdə həzzdən gözünə heç nə görünməzdi. Dünya ağğapaq pambıq kimi onu ağuşuna alardı. Ona elə gələrdi ki, yerə yıxılsa asfalt belə onu əzməyəcək.Ani gecikmə ilə tapmadığı anlarda gözünə hər şey qara görünərdi. Bir sıxıntı alardı içni. O sıxıntı da, qara rəngdə olardı. Qazancının əlli faizi artıq özünü bu həzzlə təmin etməyə sərf olunurdu.

Üçüncü rəng mavi idi: bu Gülya idi. Mavilərə bürünüb gələrdi onun görüşünə.Zarafatla deyərdi: "mən görüşə ata qorxusu ilə gələn qızlara bənzəyirəm.O qızlardan bir fərqim var: o da divdən qaçıb Məlikməmmədin görüşünə gəlməyimdir. Bizi görsələr ən azından doğrayıb zibil qabına yığacaqlar.Bəs sən? Sən də əsl Məlikməmməd olmadığına görə bizə əl fatihə......."

Əhməd iyunun on doqquzu iki şeyin dadına baxdı: biri onu sıxıntının əlindən qurtarıb həyatı onun üçün maskaladı, digəri isə ..... Digəri onun ilk dəfə gördüyündən fərağında yandığı Gulya idi. Ünvanı Ataşdan alan kimi onun məsləhətinə baxmayaraq gecəni gözləməyərəq birbaşa onlara getdi. Qapını Gülya açdı. Uzun uzadı bir- birlərinə baxdılar. Sonra Gülya səssizcə onun boynuna sarıldı. Ağladı, o qədər ağladı ki, Əhmədin çiyni əməlli başlı islandı. Sonra içəri keçdilər. Elə yerdəcə- xalının üzərində səssiz bir –birlərinə sarıldılar.Sonralar bol- bol danışdılar bu ilk görüşdən. Gülya eyni hissləri necə səs çıxarmadan keçirmələrindən möcüzə kimi hey danışırdı. Gizlin görüşməyə başladılar. Ataşa and içdi Əhməd "görüşmürəm bitdi o məsələ"-

deyə az qala qadın cildinə girdi Əhməd. Ataş da inanan kimi oldu onun sözlərinə. Əhmədin bu qədər aşiq olacağını, həyatını belə girov qoyacağının ağlına belə gətirmədi.

Gecə düşən kimi qaranlığın məhzun qanadına baxmayaraq qaçardı Gülyanın yanına . Gülya "Hey Betmən, sənin bir gün qanadlarını kəsəcəklər" desə də nəfəsi kəsilə- kəsilə öpərdi onu odlu dodaqları ilə. Gülyadan bir xəbər çıxmayanda mərkəzə gedərdi, yavaşca içəri sızardı bir məlumat qoparanda qəlbi də parça- parça olurdu. Deməli yenə gedib. Sərhədin o yanı Əhmədin qarğış yeri olmuşdu. Həyatın iradə adlı ipi Əhmədin əlindən çıxmışdı. Arabir ona elə gəlirdi ki, pişik kimi doqquz canı var və hərəsini bir yerdə qoyub gedir. Cildini dəyişirdi sanki. Ataşın yanında hələ də özünü itirməyən mütəxəssis, bacısının yanında həlimdil və namuslu qardaş , Gülyanın yanında isə hər şeyi itirəcək qədər dəli olurdu. Son güvənci ehtiyatda zənn etdiyi altı canı idi. Bəzən tək tənha çarpayısında qurcalananda beynində iki eşq bir birini yeyib dağıdırdı. Birini pulla satın alıb səbbini ala bilirdisə də, digərini- Gülyanı tapa bilməyəndə dəli olmaq səviyyəsinə çatırdı. Növbəti gedişdən qayıdandan sonra Gülyanı görmək üçün günəşin az qala ipini çəkirdi. Dörd dolanıb dururdu otağın içində, özünə yer tapa bilmirdi. Qapı döyüləndə sanki yuxudaymış kimi dik atıldı. Gələn Ataş idi. Içəri girən kimi özünü divana yıxdı. Nəfəs almamış bir siqaret yandırdı, birini Əhmədə uzatdı. Əhməd onun belə sakit halından ürəyi düşdü. "görəsən xəbər tutub" təşvişlə dilini dodağını gəmirməyə başladı.

- Hə Ataş, xeyir ola? Nə əcəb səndən?
- Ə, demə day. O tərəfə getməliyik. Yeni mal gəlib İran Atarasında qalıb. Mən getməliyəm amma mama yaxşı deyil. Onu sabah apris edəcəklər. Ümid azdı sən gəl, qaqa, mənim əvəzimə get .
- Yox ey, mən gedə bilmərəm. Başqa adam tapa bilmərsən?
- Yox. Mal böyükdür. Heç kəs, artıq adam bilmir bu söhbəti. Bircə səni şef təsdiqlədi. Hesab elə ölmüşəm yerdən götür. Nolar ...........

Əhməd bir yerə baxdı, bir göyə baxdı. Nə dostuna getmirəm deyə bildi, nə Gülyadan vaz keçə bildi.

- Nə vaxt gedilməlidi?
- Bu gecə saat beşdə çıxılmalıdır. Üç nəfər olacaqsınız. Biri qadındı.

Ataş siqaretını külqabıda söndürərək yavaşca evi tərk etməyə başladı. Qapıdan çıxanda qəfil geri döndü.

- Ehtiyatlı ol, Haaa. Gedən qadın Gülyadı.

Ataş sözü deyib getdi. Söz havadan asılı qaldı. Sözə sahıb çıxmağa Əhmədin gücü yetmədi. "Niyə Gulya? Niyə mən? Bütün bunlar qurmadı yəni hər şeyi təşkil ediblər? Onda bilirlər.

Əgər bilirlərsə niyə bu ağır işin ardınca onu göndərirlər. Başçının ikisinə güllə sıxmağa gücü yetmir.?!...” Suallar üstünə yağış kimi səpələndikcə Əhməd başını itirirdi. Evin divarlar da sanki- hamı hər şeyi bilir. Bu da son -deyə pıçıldayırdı.O, canını götürüb evdən qaçmaqdan başqa bir çarə tapmadı. Ürəyindən “əgər bu doğurdan da sondursa gedim Gülnarı görüm.”- keçirtdi.

Maşın yolu qarşısına aldıqca Əhmədin başı da ayazıyırdı. Hər şeyi daha məntiqlə düşünməyə çalışırdı. Bu məsələni bilsəydilər, ikimizi bir yerdə göndərməzdilər. Əgər bu məsələni bilsəydilər, qadının kimliyini niyə Ataş mənə deyərdi ki, .............

Cürbəcür versiyalarla beynini yükləyəyirdi ki, Gülya zəng vurdu.

Salamsız kəlamsız təlaşla :

-Bet, Ataş bura gəlmişdi.

- Eləmi?- Əhməd özündən asılı olmadan ağlına ilk gələn sözü dedi.

- Bizi bir yerdə cənuba yollayırlar. Nə olub? Bunların nədənsə xəbəri olub?

- Sən bilən elədi?- Əhməd canı bu cavabdan asılı imiş kimi ürəyi döyünə -döyünə cavabı gözlədi

- Pis olma.- Gülyanın  səsinin bir az qırılması onun ürəyini daha da ayağnın altına saldı- Bilirəm bunu eşidəndə özünü pis hiss edirsən, amma o vurulmuş üç gündü burdadı. İki saat olar gedib. Həmişəki kimi idi. Bir şey bilsəydi hər halda bir şey sezərdim

Gülyanın bu sözləri Əhmədə içindəki qorxudan da pis təsir etdi.Qısqanclıq elə bil kəlləsinə qədər çıxıb ora mismar çalırdı. Udquna udquna yalnız:

-Həmişəki yerə gəl saat üçdə - deyə bildi və telefonu arxa oturacağa vızıldatdı.

Bacısı bu dəfə də əri ilə sözləşib ağlamışdı. Əhməd onun qızarmış gözlərinə fikir vermədən :

- Bir çay gətir – dedi.

Gülnar ərinə tərəf dönərək “ona sən deyəsən bəlkə” pıçıldayanda bunu Əhməd də eşitdi.

- Yenə pul istəyəcəksiniz eləmi?! Siz belə mundar adamsınız Bir stəkan çay istəyirəm də. İmkanınız olsa, onun da pulunu alarsınız. Baxın, mən öləcəm, onda siz mənim meyidimi də soyarsınınz.
- Yox, Əhməd nə olub sənə belə?! Vallah pul istəmirdik. Üç həftədi haralardasan? Səni tapmaq vallah indiki zamanada pul tapmaqdan da çətin olub.

Lakin Əhməd bacısının bu sözlərini dinləmədən sürətlə yerindən durub otaqdan çıxdı.Gülnar onun ardınca ha nə qədər cəldilkə çıxdısada artıq gec idi. Uzaqlaşan maşının ardınca yalnız bunu pıçıldaya bildi:

- Mən yalnız babamızın öldüyünü deyəcəkdim.

Kişinin gözləri dirənmişdi. Həkimlər bir ürəkdən başqa bütün orqanların iflic olduğunu söyləyirdilər. Qafar başını qucaqlayıb yenə divanın küncündə oturmuşdu. Qonşular gəlib dəyir, son zamanlarında onu heç tək qoymurdular. Gələnin gedənin arasından qocanın gözləri hey kimisə arayırdı. Bunu demək olar ki, hamı bilirdi, amma heç kəs Qafar müəllimin qorxusundan bunu deyə bilmirdi. Qoca aradığının adını çəkməsədə, nisgilini soruşmağı unutmurdu. Yarıxırıltılı səslə:

- Bala, Şuşanı qaytarmırlar?

Ürəyi yumşaqlar :

- Darıxma! Baba, deyirlər ki, erməni vurulmuşlar yeddi rayonu verəcəklər.-deyə qocanı aldadırdılarsa,

Insafsızlar:

- Ay baba, qiyamətə qaldı. Çətin görərik oraları deyib, kişinin üzülmüş ürəyini daha da üzürdülər.
- Mən burada ölmək istəmirəm.
- Nə ölmək, ay kişi, sən hələ yüz il yaşayacaqsan- bu yalıanı da həkim söyləyirdi.

Axırıncı günlərdə dili də batdı. Bircə gözləri danışdı. Qonum-qonşu yanından əl çəkmirdi. Əhməd evi tərk edəndən sonra ilk dəfə idi ki, Ataşın anası Məleykə də, gəlmişdi kişiyə dəyməyə. Salam- kəlamdan sonra əyilib xəstənin yastığının altına bir topa pul basdı. Qafar bunu sezən kimi cəld yerindən durub çarpayıya tərəf irəlilədi, lakin arvadı bunu tez başa düşüb qəfil onun qabağına keçdi:

- Ay kişi, bir sən bəri gəl – deyərək arxa balkona tərəf işarə elədi.Qafar əlacsız-əlacsız qonaqlara baxıb, dişi dodağını gəmirə- gəmirə arvadının arxasınca getdi. Qafarın otağı tərk etdiyini görəndə Məleykə dərindən nəfəs alaraq arvadlarla söhbətə başladı:
- Aaz ,vallah mən evdə də deyirəm bu kişinin indi belə xəstələnən vaxtı deyildi. Bu kişini buranın rütubəti elədi. Biz də bu binada oluruq amma elə qəşəng təmir elətdirdik Ataşım arçipannan yığdırdı.

- Ay Məleykə, indi sənin oğlun edir, bu yazıqlarınkın kim eləsin. Bir müəllim maaşıynan bu bədbaxt oğlu nağarsın hay?- Kərəmin arvadı başındakı alabəzək yaylığın ucunu dartışdıra- dartışdıra dedi.
- Aaz, guya bunun oğlu Əhməd də Ataş işləyən yerdə işləmir?! Niyə qoymur gədəni qapıya?-Məleykə piyin içində itib- batmış gözlərini süzdürdü.- Bu Qafar haram deyə-deyə camaatın halal işinə də şər atır. Biz nağardıq ki, aparıb balasına çörək verdik dəə.
- Ay Məleykə, bildiyin də var bilmədiyin də. Sən bilmədiyini danışırsan.
- Aaz, get o yoluğ Kərəmin dərdin çək. Sən indi mənə qanmaz deyirsən? Acından günorta dur, sonra da de ki, bu haramdı bu halal.  Qoyaydı balasını qapıya bizə nə olub ki?!.... Biz indi yolkəsənik?!...
- Ay arvadlar, səsininzi içinizə salın! Ayıbdı. Xəstə yanına gəlmisiniz- içlərində ən yaşlı olan Həlimə dilləndi. Inşallah, Əhməd də gələr bu kişi də sevinər. Onun bu sözlərinə arıqlayıb uzunsov suyu cəkilmiş yemişə bənzəyən başını qaldıran baba demək olar ki, xırıldayaraq:
- Əhməd, Əhməd niyə onu çağırmırsınız?- dedi
- Aaz, qaç!, qaç Qafar kişiyə de ki, kişi danışdı.

Arvadlar necə səs- küy saldılarsa kişinin olan qalan səsi də bu uğultunun içində batdı.

Qafar arvadının dalınca arxa balkona çıxan kim onu sıxma –boğmaya saldı:

- Elələrinin pulu mənə lazım deyil. Haramdı haram.
- Bircə sənsən halal. Cəbiş müəllimə dönmüsən.
- Dayan! Qoy, cəhənnəm olsun götürüb ordan səpəcəm balkondan aşağı görərsən.
- Elə sən dörsən milləti bizim evdən didərgin salan. Əminoğlu o boyda qaçkınkomu əlində fırlayır, hamı qabağında şax durur sən ona salam da vermirsən. Guyamış ki,adamın ehtiyacı vardı sənə?!
- Kəs səsini! Camaat eşıdır. Arvadsan cəhənnəm ol, yeməyini bişir paltarını  yu!

Arvadı gözünün yaşını silə-silə:

- Mən cəhhənəm,  yad qızıyam, belə erməniyəm. Bəs atan o boyda kişini çürütdün buralarda. Yaxşı bu da cəhənnəm, Bəs oğlun? Onu niyə həsrət qoymusan buralara budu ey –səsini daha da aşağı salaraq pıçıldadı- Məleykə piyli qaza oxşayır, telləri parildayır. Kaftar çağında məndən cavan görünür. mənə bax, ona bax: zıbillik pışıyinə oxşayıram.- arvadın son sözlərini içəridən qopan səs-küy batırdı. Arxa balkona özünü atan Kərəmin arvadı:

- Gözün aydın. Ay Qafar qardaş, kişi danışdı. Deyəsən üzü bəridi- dedi

Qafar yarıümid otağa qaçdı. Lakin qoca daha danışmadı.

Gözlərindən nisgil yağa-yağa canını tapşırdı. Əhmədi əl altından axtardılar tapa bilmədilər. Qonşular əl-ələ verib mağar qurdular, odun yardılar.Qafarın ağzını bıçaq kəsmədi. Gələnə gedənə rəhmət diləyənə başını tərpətməklə reaksiya verdi. Gülnar Ataşı da, aradısa da tapa bilmədi. Elə bil yer yarılıb udmuşdu bu ikiliyi.Bu gündə bütün günü atasıgildə vaxt keçirdəndən sonra axşam düşəndə evə qayıtdılar. Əhməd gələndə Gülnar ha çırpındı söyləsin amma uzaqlaşan maşının dumanı elə bil Əhmədin hirsi kimi duman olub yayıldı şəhərin havasına, oradan da hopdu Gülnarın ürəyinə. “Nə isə var. Allah xeyir etsin . Bu uşağın başında bir qan çanağı var nə zamansa çatlayacaq.”-deyə O, dodağnın altında pıçıldaya-pıçıldaya evə qayıtdı.

Əhməd başını alıb gedirdi.  Külək kimi yolu, mənzili də elə bil itirmişdi.neçə saat idi dolaşırdı şəhərin küçələrində. Saatı da, zamanı da untmuşdu.Gah beynində Gülyanın obrazı min cür məchulluğa qarışır, gah da o məhculluqdan atasının “mən demişdim” ifadə edən üzü görünürdü. Bu məhculluq beynində bir- birinə qarışanda kasıbçılığın qılnc kimi sərt üzü qabarırdı qarşısında.Özündən asılı olmadan  əlini cibinə atdı pulları yerində idi. Ürəyi azca isinən kimi oldu. Maşını birbaşa Gülya ilə həmişə görüşdükləri yerə - dəmir qəbirstanlığa sürdü. Gülya əvvələr bura gələndə qorxsa da buranın yeganə etibarlı yer olduğunu anlayandan sonra Əhmədlə razılaşdı. Bura Əhmədin böyüdüyü   yerə yaxın idi. Əhməd bu qəbirstanlığın hər küncünü –bucağını tanıyırdı.Uşaqlığında məktəbdən gələndə qəbirstanlığın içindən keçmək qəhramanlıq hesab olunurdu.Sonralar dəfələrlə polis tələsinə düşməmək üçün burada gecələmişdi. Bu qəbir daşları onun nə qədər malını mühavizə etmişdi. “ ölülər ən yaxşı dostdular çünki onların danışma ehtimalı yoxdur.” gülərək bunu özünə deviz də seçmişdi. Bunu Gülyaya da deyəndə O,da buna mərcan kimi kimi ağ dişlərini ağardaraq qəhqəhə çəkmişdi.

Maşını aralıda saxlayaraq qəbirstanlığa piyada gəldi. Agaclar gündüzki istidən sonra gecənin sərinliyində asta-asta yarpaqlarını tərpədirdilər. Dənizdən əsən azacıq meh sanki Əhmədin üzünə sığal çəkirdi. Gözləməklə heç arası olmayan Əhməd bu dəfə həmişəkindən fərqli olaraq tələsməyərək bir siqaret yandırdı. Ürəklə bir qullab vurub  beynindəki məhculluğu araşdırmağa başladı.Etdiyi bütün cəhdləri boşa gedirdi. Beyni elə bil sulanmışdı. Olan qalan fikirlərini də əlindəki siqaretdən qalxan duman parçalayırdı.Bir qaraltının yaxınlaşdığını görüb qəbirstanlığın dəmir məhəccərinə tərəf sindi. Yaxınlaşan qaraltı  o tərəf, bu tərəfə baxıb Əhməd tərəfə irəlilədi.Əhməd onu ətirinin qoxusundan  tanıdı.

- Gülü, qorxma burdayam.- deyə əlini qaranlıqdan ona doğru uzatdı.

- Hiss etmişdim. Canım qorxmuram. Belə yerdə küçədə böyüməyim arada karıma gəlir, amma həmişə yox- Gülya belə deyərək onun boynuna sarıldı.
- Canım, sənin qucağın mənim cənnətimdir.
- Amma, amma şeytanımız yaman boldu.- Gülya əli ilə onun ağzını tutaraq aralıda işaran siqareti közərtisini göstərdi.
- Səncə izləyirlər?
- Bilmirəm, amma heç burnuma xoş qoxular gəlmir-.Gülya səsini içinə salaraq pıçıldadı.
- Bəlkə, qaçaq heç getmiyək bu gecə İrana?- Əhməd yarıümidsiz pıçıldadı.
- Bilmirəm, bilmirəm heç olmasa Ataşa azca etibar etsəydik.... Nə olub bitdiyini öyrənə bilərdik
- Gəl, qəbirstanlığın içinə keçək adam arxamızca gəlsə onda bizə əl fatihə. Deməli hər şeyi bilirlər.
- Hə keçək.

Əhməd Gülyanın əlindən yapışaraq aralanmış dəmir hasardan pişik kimi içəri sivişdi. Həmişə oturduqları güllü- çiçəkli qəbir əvəzinə qəbirstanlığın qaranlıq guşəsinə doğru getdilər.Arxalarınca yeri göyü qapayan qaranlıq elə qatı idi ki, Gülya yanın da olsada Əhməd özü belə canında gizilti hiss etdi. Yarımsaata qədər bu zülmət qaranlıqda gözləyəndən sonra izlənmədiklərindən əmin oldular.Əhməd odlu dodaqlarını gülyanın boynunda, boğazında gəzdirir, Gülya isə qollarının onun boynuna salaraq qarşılıq verirdi. Nəfəsləri kəsilənə qədər quçaqlaşdılar. Əhməd əli ilə qəbir daşına toxunaraq:

-Yeni qəbirdi. Üstü təzə qoyulub. Bəlkə də bu gün. Uzan rahat uzan- deyə Gülyanın çantasını alıb başaltı düzəltdi.Qəbirstanlığın qaranlığını yeni doğan ay şüası iki yerə bölmüşdü. Əhmədgil sanki ayın qaranlıq tərəfində qalmışdılar. Birlikdə qucaqlaşdıqları anların necə keçdiyindən xəbərləri belə yox idi. Artıq ayın işığı fırlanıb düz onların üzərinə düşürdü.Əhməd məst olmuş kimi əlini qəbir daşının üzərində gəzdirirdi.

- Gülü, biz hər dəfə bu qəbirdəkiləri tamaha salırıq. Bir gün bunlar bizi ya qovacaqlar, ya da özləri ilə birlikdə bu qəbirlərin birinə soxacaqlar.

- Eee Bet, qəbirstanlıqda olduğumu indi unutmuşdum, yadıma salma da...- Gülya nazlanaraq ona qısıldı.

Əhməd yavaşca yerindən duraraq əlini Gülyaya uzatdı . Onu qaldıraraq:

-Bəlkədə bu son görüşdü.- dedi.

- Elə şey fikirləşmə. Onsuz da kəndir üstündəki xam kəndirbazlar kimi bir gün yıxılacaqdıq. Bunu ki, bilirdik. Onda nə qalır, dəqiqənin kefini çək. Kimin sabahı yaşama şansı var ki?!.... On üç- on dörd yaşımdan  küçədəyəm, amma nə vaxtsa kimisə dərindən aşiq olacağım ağlıma belə gəlməzdi. Ağıla gəlməyən deməli, başa gəlirmiş. Qoy mən sabah ölüm, ya öldürsünlər vecimə deyil mən ki, məhəbbətin dadına baxdım ölsəm də qəm yemərəm.

- Mən ölümü fikirləşəndə ilk öncə gözümün qabağına anam gəlir. Heç o gün görmədi ki, bəs babam görəsən o neyniyir?- Əhməd bunu deyərək əlini cibinə ataraq alışqanı çıxarıb siqaret alışdırdı.

- Mənimsə düşünəsi heç kəsim yoxdu.Bir anam var idi, cəhhənnəmlik oldu Heç qəbrinin üstünə də getmirəm. Nəyinə gedirəm gorbagorun.məni satan qancıq.

- Bu, mənə çatmır nətəhər olur? O, əməlli başlı səni təklif edirdi?

- Mənə ilk dəfə siqaret çəkdirəndə, on yaşım olardı ya olmazdı. Atamı görməmişdim. Arabir mənə elə gəlirdi ki, goydən düşmüşəm. Qonşuların uşaqlaı “papa” deyib yüyürəndə mən qucağım dolu araq şüşələrini zibilxanaya boşaldardım. Gecələr evimizdə müxtəlif kişilər sərxoş olana qədər içərdilər. əvvəllər pışiyimizi içirdib məzələnərdilər, sonralar məni...- bu yerdə Gülya özündən asılı olmadan hıçqırdı.

- Danışma, danışma! Niyə özünə əziyyət verirsən axı. Səndən mən nəsə soruşuram?!- Əhməd onun başını qucaqlayaraq oxşadı.

- Yox, bu gecə hər şeyi danışacam.Özümü bildim biləli anam məni evdə kilidləyib gedərdi. Qonşular deyərdi ki, əgər zəlzələ,  ya da evdə yangın olsa mən elə içəridəcə məhv olacam. Amma yaman üzübərk şeyəmmiş... Ölmədim. Bəzən gecələr evdə tək oyanıb səhərlərə qədər ağlayardım. O isə evə gələndə gözləri sulana- sulana mənə baxar və “rədd ol” deyə çığırardı. Mən onun doğurdan qızıydım, bax bunu indi bilmirəm, çünkü analar başqa olur. Analar isti olur, analar ana ətri verir. O isə daim siqaret  qarışıq içki qoxusu verırdi.Evimizə gələn polisləri belə vəzifələrindən caydıracaq qədər gözəlliyə malik idi. Sonra evimizə biri gəldi.O, anamdan da betər idi. Zalım idi. Anam evdə olmayanda onun kötəyindən qorunmaq,üçün bəzən qışın soyuğunda belə balkondan evə keçməzdim. Bəzən saatlarla anamla mübahisə edərdi. Deyəsən anamın bütün pullarını əlindən alırdı. O da bununla razılaşmırdı.Bir gün erkəndən dərsdən gəlib yatmışdım. Artıq on üç yaşım var idi.Yaşıdlarımdan fərqli olaraq əlimdə son model telefon və ən dəbli paltarlar olardı. Bunları anam almazdı. Bunların qayğısına qalan oğlanları asanlıqla tapa bilirdim. Məktəb adıyla çıxıb gedirdim hər cür yerlərə. Hətta bir dəfə anamı görmüşdüm oralarda, amma vaxtında aradan çıxa bilmişdim. O

mənə bir söz deyəsi deyildi. Hər halda döyülmək istəmirdim.Hə, nə deyirdim? Evdəki səs-küyə ayıldım. Həmişəkindən fərqli olaraq bu dəfə üç fərqli səs gəlirdi. Qalxıb qapının arasından baxdım. Anamın yanında Bred Pitə bənzər bir sarışın gənc var idi.Onlar orada dava edir, mən isə ağzımı aralayıb gəncə tamaşa edirdim. Ətraf sanki bir dumanın içində idi və orada mən var idim, bir də o var idi.Orada necə bıçaq çıxdı, o bıçaq anama necə girdi. Bax orasını qətiyyən bilmirəm.O gecə bir ton polis töküldü evə. O sarışın yer yarıldı sanki yerə girdi. Anamın tapdığı o əyyaşı da polislər apardı. O gündən sonra o bom boş evdə tənha yaşamağa başladım. Zaman keçdikcə özümə uyğun qızlardan özümə ev yoldaşları da tapdım. Artıq on dörd yaşımda mən sağını- solunu bəs bəlli bilən bir qadın idim. İçinə uşaqlıq sevinci dəfn edilmiş bir qadın. Həyat deyilən şey çox məkrli bir şeydir. Mənim çox günahlarım olub, amma ən böyüyü isə günahı olmayan biriylə məzələnməyim oldu. Mənim qonşuluğumda( hələ bu əntərə ilişməmişdim indi olduğum mənzil alınmamışdı) bir üzü nurlu oğlan yaşayırdı. Məhlə cavanları mənim yubkamın razrezini görəndə gözləri kələlərinə çıxırdısa sanki bu adam məni görmürdü. Bir gün liftdə özümü qəsdən yıxdım bunun üstünə heç nə olmasada fransuzski ətrim onu dəli eləməyə yetməli idi. Amma deməsən ki, adam heç bir reaksiya vermədi. Başqa bir gün bu gəncin -adı Nofəl idi- qapısını aralı görüb özümü içəri saldım. Qonşularda söz gəzirdi ki, O gecə gündüz məsciddən çıxmır. Mən isə içinə şeytan dolmuş kimi bu sevdadan əl çəkə bilmirdim. Onu sevirdim? Yox. İndi dəqiq bilirəm ki, yox sadəcə olaraq onun mənə diqqət yetirməməsi mənim içimə oturmuşdu. Nə isə içəri keçdim. – Gülya əhmədin əlindəki siqareti alıb bir qullab vurdu. – Yenə o zibildəndi?

- Hə, neynim başım onda daha yaxşı işləyir- Əhməd sanki özünü müdafiə edirmiş kimi dilləndi.

- Hə, harada qalmışdım? Istəyirsən danışmayım

- Yox, yox, maraqlıdı- Əhməd gecə yarını ötməsinə baxmayaraq gümrah səslə cavab verdi.

- Hə içəri keçdim. Nofəl namaz qılırdı. Gəldim düz oturdum bunun qarşısında, ayağımı da aşırdım ayağımın üstünə . Bilirdinm ki, belə olanda qısa yubkam daha da sıyrılır durur yuxarıda. Nə idi: on altı yaşım var idi. Amma bəlkə də Nofəlin bildiyindən on altı min dəfə çox şey bilir və görmüşdüm. Hər halda mənə elə gəlirdi. Sən inanırsan, iyrimi birinci əsrdə belə gənclər var imiş. Nofəl bu mənzərəni görməmək üçün gözlərini bərk- bərk yumaraq namazı qıldı.

- Sonra nə oldu?- Əhməd səbirsizliklə soruşdu.

Heç. Mən bir gün, beş gün nəhayət bütün işimi, hətta gəlirimi ataraq onu yoldan çıxartdım. Bax, mən onsuz da bilrəm ki, etdiklərimlə cəhənnəmlikliyəm. Əgər cəhənnəm varsa. Amma o Nofələ etdiyimlə nağdı o tərəfə üzü qara gedənlərdən olacam. Nə deyirdim?! Nofəl mənimlə yatağa girdi, amma sabahı yox oldu. Bir daha onu görmədim. Sonralar onu getdiyi məsciddən soraqladılm. Heç kəs bir söz demədi. Nə isə, olan bitəni unutmuşdum ki, gəldi çıxdı. Damağımda o zəhirmar, özümdə hallanmış vəziyyətdə( iynəyə yenicə oturmuşdum) bir də gördüm qarşımda. Mən əvvəlcə elə bildim məni qara basır, sonra O, mənə bir sillə çəkəndə bir az ayıldım. Sonra məni qaldırıb apardı su kranını açdı və başımı saldı altına . Soyuq su başımdan aşağı boyunuma, boğazıma şırıldadıqca tamanılə ayıldım. Üzümü, gözümü ovxalaya-ovxalaya çökdüm soyuq kafellərin üzərinə. O, məni orada qoyub gəlib evdəkiləri qovaladı. Mən qalxıb zala gələndə artıq orada heç kəs yox idi. Gecəni mənimlə keçirdi. Səhər ayılanda heç işıqlaşmamışdı. O, namazını qılırdı. Bitirdikdən sonra mənə tövbə etməyi və onunla evlənməyimin vacibliyini dedi. Məni necə gülmək tutdusa, indi də dəqiq xatırlamıram, bəlkə də bir saat güldüm. O həmin günü mənimlə nə qədər danışmağa cəhd etdisə, məni gülmək tutdu.Sonra tam bir cidiyyətlə üstümə qışqırdı. Və mənə qarğış etdi. O vaxtı vecimə belə almamışdım o qarğışı. Amma səni ilk gördüyüm gündən anladım. Anladım onun qarğışının mənasını.

-Nə qarğamışdı ki, O – bayaqdan Gülyanı daş səsizliyi ilə dinləyən Əhməd dilləndi

-Sevəsən, əldə edə bilməyəsən! Əldə edəsən, onunla açıq görüşə bilməyəsən. Həsrət qalıb həsrət öləsən. Ruhun girov, bədənin əsir olsun............

Əhməd aralığa çökmüş bu sükutu bıçaqlamaq istəyi ilə:

-Bəs bu əntərə haradan ilişdin?

-Bir barda. Bunlar böyük dəstədirlər. Hər yerdə göbələkləri var. Məni əvvəlcə bir kamikadza kimi istifadə edirdilər, sonra o vurulmuş məni saxlamağa başladı. Indi iki ildi şefin məşuquyam. Əgər şef odursa. Amma Ataşı üç ildi tanıyıram.

- Ataş da sənin yanına gəlirdi?- Əhməd özündən asılı olmadan bir qıcıqla soruşdu.

- Yox! O, Nadyanın aşnası idi. Mənimlə onun heç münasibəti olmayıb. Elə biulirsən yalan deyirəm?- Gülya incik-incik soruşdu.

- Mən elə bir söz demədim. Axı niyə belə düşünürsən ki? İşləri yoluna qoyandan sonra birinci işim səni bu murdarxanadan qurtarmaq olacaq.

- Əzizim, yadda saxla bizim qurtulmağımız bir xəyaldı. Ruslar demışkən bıvşı prestetutka i bıvşı narkoman ne bıvaet. Nə isə boş ver. Gecə keçir səncə nə etməliyik?

- Bilmirəm. Saat beşdə yola çıxmalıyıq.

- Qorxursan?

- Gülü, bəzən insan elə bir sərhəddə olur ki, artıq oradan o yana qorxu deyilən bir şey olmur. Bəlkə də o məchulluqdur. Nə isə görəsən, o bayaq siqaret çəkən yenə ordadı?

- Bəlkə gedib baxasan – Gülya yarımməsləhətli səslə dilləndi.

- Yox. Buradan səhv etmirəmsə yol var. - Əhməd əlindəki telefonun zəif işığını ətrafa saldı. Başdaşına daha da yaxın gedərək cığıra nəzər saldı. Cığırın əks istiqamətə getdiyindən əmin olan kimi geri döndü. Ayağını qəbrin üzərinə basmışdı ki, səndələdi. Yıxılmamaq üçün əlini bütün ağırlığını başdaşının üstünə saldı.  Dərindən nəfəs alaraq:

- Bu zəhər axırımıza çıxdı. Iki addımlıq yerdə yeriyə bilmirəm.- onu bayaqdan baxışlarıyla izləyən Gülyaya dedi.Gülya kiçik əl lampasının işığını gah Əhmədin üzünə, gah da başdaşına salaraq irəlilədi. Əhməd əlini ona  uzadaraq qəbirin üstündən düşməsinə kömək etdi. Sonra əlini atıb Gülyanın çantasını götürəndə telefonu əlindən sürüşüb düşdü. Əyilib onu götürmək istəyəndə qəfil qiyyə çəkib dizi üstə torpağın üzərinə çökdü. Gülya bir anlığa elə bildi ki,Əhmədə nə isə oldu lakin ətrafın səsizliyini görəndə əmin oldu ki, bu nə isə qəbirlə əlaqədər bir şeydir. Əhməd diz üstə çökərək səssiz ağlayırdı. Gülya:

-Əhməd, nə oldu? De da mənə nə olar.

-Əhməd, niyə ağlayırsan?

-Əhməd, kişi də ağlayar?!

Gülya suallarına heç bir cavab ala bilməyəndə, nəhayət, telefonu yerdən qaldırıb işığını qəbir daşına saldı.Başdaşında

”Quliyev Hidayət Əhməd oğlu.

1936-2010

Yazılmışdığını gördü. Gülya istinktiv olaraq bu adamın Əhmədin yaxını olduğunu anladı. Lakin bu kim idi?- burası Gülya üçün qaranlıq idi. Əhməd isə içini-içini çəkə-çəkə ağlayırdı. Iniltisinin arasında bəzi sözləri kəkələyərək deyirdi:

- Bax Gülü, bu, bu mənim baaaaabamdı. Heç gün görməyən Şuşa alınandan evim deyib inildəyən çarpayıya məhkum qaaaaalan babaaaaam.
- Əhməd, sakit ol! Dur gedək, gecə qəbirsatanlığın nəfəsi də ağır olur.
- Yox, getməyəcəm! Aaaz, mənim babamın ölməyindən xəbərim olmayıb. Həmişə yazıq deyərdi: "Ay bala, məni bu min hoqqa çıxan qəbirstanlıqlarda basdırmayın". Yazıq düz deyirmiş, qanmamışdım. O vaxt mənim kimi nanəcibləri nəzərdə tuturmuş. Off, offf, gərək elə bu qəbrin üstündə sevişəydik.........

Gülya yaxınlaşıb Əhmədin başını qucaqlayıb bağrına basdı. Onun göz yaşları Əhmədin saçlarına tökülür, sanki içindən nələrsə qaynayıb daşırdı. Gülya hıçqırıqlar içində:

-Özünə nanəcib demə! Qurban sənə demə! Onsuzda bədbəxtik. Nəyimiz var ki, bu işıqlı dünya da. Bax bu dünyanın şərəfsizliyinə: gəlib bu gecənin qaranlığında yer tapma, otel tapma bir soyuq qəbir daşı tap o da babanın qəbri çıxsın. Əhməd, Əhməd günah sən də deyil. Günahın hamısı məndədi. Mən böyük zibilin içindəyəm. Bunu ancaq ölüm təmizləyə bilər. Elə bil on səkkiz deyil, yüz səksən yaşım var.. Görmədiyim üz, dadmadığım mundarlıq qalmayıb. Mən kiməm: bir fahişənin törəməsi, özüm də elə o yolun yolçusu oldum. Ah, kaş səni belə sevməyəydim. Kəsərdim bu damarları, vallah tüpürərdim bu dünyaya. Sakit ol quzum, canım. Ağlama nə olar, içim parçalanır.

Yaz buludu tək ağlaşdılar.Gülya Əhmədi birtəhər sürüyüb qəbirstanlıqdan çıxardı. Onu maşına mındirib özü maşını işə saldı. Əhməd halsız şəkildə arxa oturacağa sərilmişdi. Içini asta- asta çəkməyindən hələ də ağladığı bəlli olurdu. Gülya onun belə səssiz ağlamağından daha da təsirlənirdi. Ürəyi parça- parça olurdu. Içini anlamadığı bir hiss bürüməkdə idi. Anlamadığı bu hiss ona ürpərti və bir az sakitlik gətirirdi. Ilk dəfə yaşadığı bu hiss sanki balıq kimi çapalayaraq onu özündən aralamaq istəyirdi. Özünü cəmləyərək yenə güzgüdən Əhmədə baxdı. Əhməd yenə cansız şəkildə uzanmışdı. Gülya sürəti yavaş-yavaş azaldaraq maşını yolun kənarına verib saxladı. Əlini onun kürəyinə ataraq:

- Əhməd, əzizim bir dön mənə bax. Qadam artıq çox gecdir. Biz bir qərar verməliyik.
- Əhməd mənim Betim bir cavab ver. Nə edək?
- Cəhənnəm olsun hər şey. Mən heç bir qərar, zad verən deyiləm. Bax, burada da yatıb qalacam. Rədd olsun mafiyası da, o murdar anaşaları da. - Əhməd yerindən qalxmadan bağırmağa başladı.
- Yavaş, Əhməd belə çığırmağnan nolur ki,. Hə, başa düşürəm dərdin var amma bu olanları və olacaqları dəyişdirmir ki. Bax, yarımsaat sonra mərkəzdə toplaşmalıyıq. Mən gedirəm, ya da sən məni apar bir taksi tap mindir.

Əhməd Gülyaya  heç bir cavab vermədən qalxıb maşından düşdü. Bir siqaret yandırıb aşağı çömbəldi. Siqaretə dərindən qullab vuraraq içini çəkdi sanki olan qalan tüstünü də çölə üfürmək əvəzinə udacaqdı.Az sonra əlindəki siqaretin kötüyünü yerə atıb ayağı ilə əzdi. Gülyaya heç bir söz demədən keçıb qabaq oturacaqda oturdu və əli ilə sür işarəsi verdi.

Şəhərin mərkəzinə gələn kim ilk öncə Gülyanı bir taksiyə mindirib özü də dolanbac yollarla mərkəzə yollandı.Səhərin ilk şəfəqləri üfüqdə görünəndə artıq hamı mərkəzdə toplanmışdı

* * *

Hər dəfə Iranın  torpağına ayaq basanda Əhmədə elə gəlirdi ki, bura sanki başqa məmləkətdi. Halbuki onca metr o tərəfə Şimali Azərbaycan idi. Fərq nə də idi? Bu fərqi heç Əhməd özü üçün anışdıra bilmirdi. Torpaq, su, hava hamısı eyni- amma havanın ətri bu ölkənin torpağına ayaq basan kim hiss olunurdu. Qarışıq bir qoxu: bir az darçın, bir az istiot, bir az kəklikotu və bir az da nələrsə. Bunu Əhməd özü üçün kəşf etmişdi. Buradakı mənzərələrə, dağlara baxmağa heç macal etməzdi. Özü ilə daşıdığı maldan da, ağır həyəcan başını elə qatardı ki, şərqin bir parçası olan bu ekzotik yerlərdən xəbəri belə olmazdı.Hər zaman bir təlaşın içində idi. Bu təlaşın içndə yalnız qorxu hakim idi. Bu qorxu yalnız irəlini göstərir , arxaya boylanmağı qadağan edirdi. Arxadan nə gəlirsə gəlsin,  dönüb baxmağa və reaksiya verməyə haqqın yoxdur. Sən sakitliyini və laqeyidliyini qoruyacaqsan ki, işin taraz getsin. Bu qızıl kimi məsləhətləri onlara yalnız bir dəfə demişdilər. Kamikadzelərin başına bir iş gəldikdə elə yerindəcə qalırdılar. Onların ailəsi ilə ya da özü ilə maraqlanan olmazdı. Malı keçirdənlər yalnız bir adam tanıyardılar. O adam onlardan malı sərhəddən keçəndən sonra təhvil alardı.VƏSALLAM Yalnız Əhməd Ataşdan başqa bir neçə adam da tanısa da, bunların tədricən yoxa çıxdığının da şahidi olurdu. Ataş ona bir söz deməsə də, Əhməd onların başına nə isə gəldiyini anlayacaq qədər ağıllı idi. Bəzən nəyisə görüb susmaq əsas məsələrdən biri idi. Əhməd mal keçirdiyi müddətdə qətiyyən kamikadze kim istifadə olunmamışdı. Yalnız bir dəfə cənub rayonlarının birində bir evdə görüşdülər . Ev sahibi onlara onlardan heç nə soruşmayaraq qulluq edirdi. Malı salamat keçirtmişdilər. Qeyd etməyə dəyər bir iş görmüşdülər. Əhməd Ataşın yanında gələn cavan oğlanı tanımasa da yemək stolunda bir-birlərini yaxşı anladılar. Gecəyarıya kimi yeyib içdikdən sonra hərəsi yarımsərxoş halda yataqlarına sərildilər. Əhməd gecəyarı səsə ayıldı.  Gözü qaranlığıa alışandan sonra Ataşın qapının önündə siqaret tüstülətdiyini gördü. Ayağa qalxıb onun yanına getdi. Ataş əli ilə ona susmaq işarəsini verdi. Əhməd heç nə anlamayaraq qapıdan çölə boylandı. Ilk öncə polisin

gəldiyini zənn edib tısbağa kimi qınına çəkilmək istədi, lakin səssizliyin içində bir iniltinin gəldiyini eşidəndə daha da irəlilədi. Bayaqkı cavan qışın soyuğuna baxmayaraq torpağın üzərində çapalıyırdı. Əhməd onun nə üçün belə olduğunu, niyə Ataşın belə sakit durduğunu anlamadı.Əli ilə Ataşa nə olub işarəsin verdi. Ataş isə pıçltı ilə:

-Deyəsən, mədəsində polietilen açılıb.

- Onda nə olur ki?- Əhməd çaşqın-çaşqın soruşdu.

- Heç nə. Nə olacaq ki?! Öləcək.

- Biz də sakit durub baxacayıq?

- Zəng gözləyirəm indi biləcəyik, amma yüzdə doxsan belə olacaq.

Əhməd o gecə ilk dəfə insanın nə qədər ucuz olduğunu anladı .Səssizcə tamaşa etdlər o bəbəxtin ölməyinə . Heç kəsi çağırmadılar, hətta adi feldşer belə. O gecə adını yalnız səhər xəbərlərdən öyrəndiyi gənci ölümə tərk etdilər. Əhmədə elə gəlir di ki, o parıltılı həyat eşqi ilə dolu o gözləri heç unuda bilməyəcək. Amma sonralar gördüyü daha dəhşətli mənzərələr nəinki o gənci unutdurdu, həm də Əhmədə hər an sənin də növbən çata bilər siqnalını verdi.

Ataş həmişə gözünə qəribə bir dərman damızdırardı. Əvvəllər əhməd onun gözlərində nə isə bir problemin olduğunu düşünsədə sonralar bunun nə olduğunu öz təcrübəsindən öyrəndi.

Gözləri hər gecənin sabahı ona sanki qan gölündə çimmiş kimi təşrif gətirərdi. Yenə həmin səhərlərin birində Ataş onu cibindəki o dərmanla tanış etdi. Əhməd bu dərmanı gözlərinə tökəndən sonra, sanki gözləri bayquş gözləri kimi bərələ qalır və içi də büllur kimi təmiz olurdu. Ona elə gəlirdi ki, sanki kipriklərinin bir- birindən min kilometrlərlə məsafə ayırır. Dərmanın təsiri keçənə qədər bu hiss onu tərk etməzdi. Əslində bu dərman onlara gözlərinin belə ağlığı üçün deyil, bir özünü mühavizə silahı kimi lazım idi. Narkomaniyanın ən bəlli əlamətlərindən olan qırmızı və axan gözlər problemini özlərinə məxsus şəkildə həll etmiş olurdular. Zaman keçdikcə Əhməd bulaşdığı işin bütün çirkabını dadaraq irəliləyirdi.O, əqrəb kimi özünü zəhərlədiyini bilsə də, artıq su üzərində gedən bir kəllədən fərqli olmadığını da anlayırdı. Bu axın bəşəriyyətin altından axan bir kanalzasiya idi sanki. Bütün çirkabı ilə insanların üzərinə çökərək onları zəhərləyirdi. Bu insanlığın könüllü olaraq özünü intiharıdı.Əhməd kamikadzelərin bətnindən, bədənlərindən çıxan bu zəhərin bəzən elə iş yerindəcə siftə olundugunu görüb iyrənirdi. Sonralar isə ........ Sonralar isə bu zəhərli leşi parçalayanlardan bir də Əhməd oldu.

Indi səhərin yarımqapalı gözlərindən günəş şəfəqləri süzülərkən Əhməd yenə İran yolunda idi.Ayrı-ayrı maşınlarda yola çıxmışdılar. Hər halda Əhməd tək idi.Öz-özlüyündə "yəqin yenə şərtləşdirilmiş yerdə bir araya gələcəyik"- deyə düşündü.Sonra fikrinin yüyənini buraxıb xəyallanıb uçdu keçmişə. Qarışıq duyğuların içində idi. Bilmirdi içində peşmançılıq var, yoxsa ümid. Qaranlıq otaqda işıq ucu gəzən insan kimi vurnuxurdu keçmişi ilə bu gününün arasında. Babası yadına düşəndı elə bil ürəyinə bir topa iynə sancırdılar. Babası barədə içində elə bir yara var idi ki, sanki onu özü öldürmüşdü."Yox, bu dəfə hər şey bitəcək bu dəfəkinə də gedim onlarınkı onlardə mənimki məndə. Vəssalam! Yaxşı bəs Gülü. Gülü onlarınkıdır. Onlarınkın onlaran almağa mənim gücüm yetər?!... Yox bir az da gözləyib güclü pul topalayıb aradan çıxmaq lazımdı.Hara gedə bilərik?"- Əhməd üzünü ovuşduraraq nə isə bir yol tapmaq ümidi ilə fikirlərini ələk –vələk etdi. Düşündükcə batdığını hiss etdiyindən gözlərini boz çöllərə dikdi. Taksi cənuba döğru irəlilədikcə mənzərələr rəngdən rəngə keçır, boz çölləri yaşıl zolaqlar əvəzləyirdi. Əhməd cənubdakı kərpicdən tikilmiş evləri gördükdə həmişə duyduğu ruhi rahatlığı bu dəfə duya bilmədi.Hər şey sanki öz mənasını itirmişdi. Ona elə gəlirdi ki, dünya sanki boz rəngə bürünüb. Gözlərini nə zaman yumub nə zaman yuxuya getdiyini hiss emədi.

- Qardaş, ayıl! Ayıl çatmışıq.

Əhməd qoluna toxunan bir əlin təmasına səsdən daha tez reaksiya verərək dik atıldı.Artıq son cənub şəhərinin təslim nöqtəsinə gəlib çatmışdılar. Əhməd səhərin yüngül zövqverici və azacıq da soyuq mehindən dərindən nəfəs alaraq özünü gərnəşməkdən zorla saxladı. Beyni yeni doğulmuş körpə beyni kimi tərtəmiz idi. Sanki heç nə olmamışdı, sanki nələrsə yaşanmamışdı. O, çantasını götürərək sərhəd məntəqəsinə deyil, əks istiqamətə üz tutdu.

***

Gecə şərtləşdirilmiş yerdə görüşdükdən sonra hamı lazımi təlimatları alıb, oranı tərk etdi. Gülyanın yanındakı adam mühavizəçi kimi gözünü Əhməddən ayırmırdı. Onun gözlərinə baxanda Əhməd hər şeyi başa düşdü. Anladı ki, hamı hər şeyi bilir amma .... Bu amma nə ilə nəticələnəcəkdi? Bax, bunu təssəvür etmək istəmirdi.

Səhər erkəndən ilk sərhəddi keçənlərdən oldular. Iran tərəfdə ayrılıb tamamilə əks istiqamətələrə üz tutdular. əhməd Gülyanı ondan ayırıb aparan avtomobilin ardınca uzun-uzadı baxaraq göz yaşını zorla saxladı. Yalnız bu zaman içindəki bir şərəfsiz səs "ona bu axırıncı görüşdü" sözlərini pıçıldadı. Gözünün yaşını gizlicə silərək çantasının iplərini

bərkidərək kürəyinə keçirdi. Müştəri çağıran taksi sürücülərinin yanından ötərək Astaranın içərisinə üz tutdu. Bir az getdikdən sonra izlənmədiyinə əmin olmaq üçün ətrafını diqqətlə nəzərdən keçirdi.  Əmin olduqdan sonra dar bir dalana buruldu və qəfil bir taxta qapıdan içəri girdi. Bura əmanət saxladıqları Eldarın evi idi. Əhməd içəri girəndə gördüyü mənzərədən az qaldı ki, şoka düşsün. Həyət-baca darmadağın idi. Evin altını-üstünə çevirmişdilər. Əhməd buranı cəld tərk etməli olduğunu anladı.Deməli, şəbəkə çöküb və onları da bu xaraba yerə göndəriblər.Qapının önündən azca aralanmışı ki, qəfil onun qolundan tutub bir dar küncə sıxdılar. Əhməd bu hərəkətdən necə səksəndisə az qala ürəyi getmişdi. Lakin bu adamın həmişə Eldarın yanında gördüyü yeniyetmə olduğunu görəndə sakitləşdi. Oğlan ona susma işarəsi verdikdən sonra ona arxasınca gəlmək üçün əli ilə havada qövs cızdı.  Əhməd sakitcə onun arxasınca düşüb getdi. Onlar şəhərin ta ucqarındakı bir daxmanın önündə dayandılar. Əhmədin yorğunluqdan və aclıqdan taqəti kəsilmişdi. Yeniyetmə ona daxmada bir az şərait düzəldən sonra, yenə heç nə demədən çıxıb getdi. Əhməd dağların qoynundakı bu miskin daxmada elə yuxuya getdi ki, sanki sarayda taxt-tac üzərində yatdı.

Gecə kəsif qoxuya ayıldı. Yatdığı yarınqaranlıq otağın küncündə ilk öncə gözünə stol və ətrafındakı gölgələr dəydi.Onların Fars qarışıq  Azərbaycan dilindəki danışıqlarını Əhməd özünü yuxululuğa vuraraq dinləməyə başladı.

- Kəm-kəm.
- Bura sonuncu məskəndir. Yerimizi dəyişməliyik- az qala stolun üstünə çökmüş kök adam digərinə dedi.
- Bəlkə, elə binlarnan Şurəviyə( Şimali Azərbaycan. Müəllif)  gedək. Bir müddət girlənərik, sonra şəbəkəyə qoşularıq.
- Bınınla olmaz- digəri başı ilə  Əhmədə tərəf işarə edərək səsinin daha da alçaldaraq nə isə pıçıldadı.

Əhməd artıq gizlənməknən bir şey eşitməyəcəyindən əmin olaraq yerindən qalxıb onları görmürmüş kimi gərnəşdi.Onlar Əhmədin qalxdığını görüb söhbətlərini kəsdilər. Onlardan biri Əhmədə yaxınlaşaraq:

- Dincələ bildinmi qardaş? – cavab gözləmədən davam etdi- Yəqin ki acsan- deyərək geri döndü və əlindəki bükülünü Əhmədin yanındakı kətilə qoydu. Yarıisti qutabların qoxusu Əhmədi vuranda O, dünəndən dilinin altından heç nə keçmədiyini xatırladı. Mədəsi sıyrılıb gedirdi. Əlinə üzünə su vurmadan belə qutabların üzərinə özünü necə saldısa, bir də doyanda başını qaldırdı. Hamı onun necə iştahla yeməyinə tamaşa edirmiş. Bunu

anlayan Əhməd gülümsədi və əlinin dalı ilə ağzını siləndə stolun başındakıların bəziləri hətta güldü də. Bayaq Əhmədə yeməyi verən yemək bükülüsünü kətilin üzərindən götürərək, onu stolun üstünə qoydu və kətilin üzərində özü oturdu. Uzun- uzadı Əhmədi nəzərdən keçirdəndən sonra asta-asta sözə başladı:

-Qardaş səni niyə göndəriblər bilmirəm. Burada vəziyyət ağırdır. Əsas şəbəkə çökdü.Eldarı və oğlunu Tehrana apardılar. Deyilənə görə onları orada edam edəcəklər. Biz də hələ hara gedəcəyimizə qərar verməmişik Bəzimiz Əfqanıstana, bəzimiz isə elə Şuraviyə getmək istəyirik. Yəni ki, iş yanıb. Sizin bizdə bir az malınız var. Bunu həmişəki kimi dağ yollarından keçirə bilmərik. Ordakı sərhəd patrulundakı pastorumuz da oxudu. Onu da götürüblər. Içə kimsə sızıbmış görünür. Indi özün bilərsən . ya malı ud, ya da.....

Əhməd elə bura gəlib çıxanda vəziyyətin qarışıq olduğunu anlamışdı amma onun bu qədər ağır olduğunu təsəvvür emirdi. Malı udmaq. Yox o bunu edə bilməz. Axı Ataşın özü ilə danışmışdı: o heç bir vəchlə kamikadze olmayacaqdı. Bir az düşünüb həmin adama:

- Şəbəkənin çökdüyünü bizimkilərə bildirmişdininz?

Adam bir az duruxaraq:

- Qardaş orası məni bağlamaz. Mən sənə sənin biləcəyin qədər çatdırdım- qəti şəkildə cavab verdi- indi özün bilərsən ya malı alıb gedirsən, ya da biz onu özümüzünkü edirik.

Əhməd anladı ki, ona başqa çıxış yolu qoymayıblar. Adamın gözlərindən hər şeyi bildiyi görünürdü amma bu Əhməd üçün olacaqları dəyişdirmirdi. Indi elə bir yerdəydi ki, əli heç nəyə yetmirdi.

- Mənim nə qədər vaxtım var?- Əhməd ümidini itirmiş şəkildə soruşdu.
- Bu gecə buranı boşaltmalıyıq. Əlimizə keçən məlumata görə toplamda beş ya da altı saat vaxtımımz var.
- Oldu . aydındır.

Əhməd yerindən qalxaraq daxmanı tərk etdi. Bayıra çıxanda dağın payız soyuğu canına necə işlədisə dişi-dişinə dəydi. Ulduzlu səma, dağların dik zirvəsində bərq vuran ay belə onun diqqətini özünə çəkə bilmədi. Bir siqaret yandıraraq o yana bu yana var- gəl etməyə başladı.”Deməli, hamısı tələdə idi. Dəstəni kim satıb?

Əgər kimsə satıbsa bu məlumat bu adamların əlinə haradan keçib?

Bu tanımadığı adamlar niyə indiyə kimi özlərini göstərməyiblər?

Bəlkə, əslində heç bir tələ filan yoxdu bütün bunlar onlar üçün qurulmuş bir oyunun bir parçasıdır? Ax, ax Ataş indi sənə nə qədər ehtiyacım var."Əhmədin bu fikirlərdən ürəyi sıxıldı. Bir saat buz kimi təmiz havada qaldıqdan sonra içəri qayıdan Əhmədin üzündə rahat bir ifadə var idi. o uzünü içəridəkilərə tutaraq:

- Mal hanı?
- Təmiz herayindi. Polietilenə bükülüb. Budur.- bayaqdan Əhmədlə danışanın yanında duran kök kişi çantadan malları çıxarıb stolun üzərinə qoydu.
- Udacaqsan eləmi?
- Bəli. Başqa yol var ki?- Əhməd suala sualla cavab verdi.
- Təbii ki, bu bizim işimizdir, amma sən də deyəsən birinci dəfədir- kişi nüfuzedici baxışlarla onu süzdü.
- Bu nəyi dəyişdirir ki? Etməliyəm- Əhməd bunu deyərək malları çantasına qoydu.

Əhməd oranı tərk edəndə gecə yarıdan ötmüşdü. Hamı oranı birdən deyil bir-bir tərk etdi. Ən axırda qalan kök cantaraq kişi pozuq türk ləhcəsində ona dönə-dönə malı udmağı tövsiyə etdi.O, ona hər şeyin yolunda olacağını deyərək ondan ayrıldı. Əhməd cığıra düşüb daxmadan uzaqlaşdıqca üzündə qəribə bir ifadə var idi.

Yenə həmişəki kimi sərhəddə alverçi əlindən tərpənmək mümkün deyildi. Əhməd bu pis qoxuku kütlədən aralı durmaq üçün bütün cəhdini işə salırdısa da, bu bir işə yaramırdı. Bir topa alverçi qadın birinin pasportunu ortaya qoyub ürəkdən gülürdülər. Əhməd onların yeni vurulacaq möhürə yer aradıqlarını anladı. Bəlli idi ki, artıq pasportda adi bir xətt üçün də yer qalmamaışdı. Əhməd bu qədər kirin- kisin içində keflə qəhqəhə çəkə bilən bu admlara həmişə heyran olurdu. Bu qədər zibilin içində onların xöşbəxtliyi bəlkə də baş nazirdən də çox idi.Elə bu an növbədə duranların hamısı bir qışqırığa dönüb baxdılar. Bir qadın əlini-qolunu ölçə-ölçə polisin üstünə yeriyir və çığırırdı:

-Əə sizin monopoliyanız batsın. Banan monopoliya, paroşok monopoliya. Gəl bax burama- O, çox ədəbsiz şəkildə yançaqlarına döyəcləyidi- gör buranı kim monopoliya edib. Köpəkuşağı, Azərbaycanda ən böyük monopoliya mənəm. Düpün çatır gəl, al əlimdən- o hamının ona baxmağını belə vecinə almadan çıxıb mallarının üstündə oturdu.Əhməd üzündə təbəssüm bütün bunları izləyərkən özündən asılı olmadan Gülyanı düşünürdü. "əgər şəbəkə çökübsə bu qız niyə bir xəbər uçurmadı?" bütün bunları düşünə-düşünə gözü adamların arasında Gülyanı gəzirdi. Iran tərəfdən problemsiz ötüşüb Azərbaycan tərəfdən yoxlanmanı gözləyirdi. İlk dəfə idi ki, üstündə mal sərhəddi keçirdi. Hər dəfə keçirdikləri küllü miqdarda malı ya qaçaqmalçılıq yolu ilə, yəni dağ keçidləri ilə ya da yük maşınlarının gizli yerlərində

keçirərdilər.Təbii ki bu hadisələr baş verəndə kimlərinsə susması və ya göz yumması üçün də nə isə tədbir görülərdi amma Əhməd bunları bilməzdi.

Növbə yavvaş-yavvaş ona da çatırdı. Öndə iki qadını, sonra onu burxacaqdılar. Həyacanla bu təhvil- təslim işindən qurtulmaq istəyirdi ki, qəfil iki mülki geyimdə olan adam sakitcə onun qollarına girərək başları ilə getmək işarəsi verdilər.Əhməd səs-küy salmağın daha da şübhə çəkəcəyini anlayaraq yavaşca onlarla getdi. Dar bir otağa onu salan kimi bu iki nəfər sanki yerin dibinə batdılar. Otaq yarıqaranlıq və kiçik nəfəslik hesaba alınmasa pəncərəsiz yer idi. Əhməd artıq əmin idi ki, onları satan əməlli –başlı təmiz iş görüb. Bəs Gülya? Onu nə ediblər? Boğazının içində nə isə qalmış kimi öskürdü. Dayanmadan öskürdü. Bu da son zamanlar başlayan bir dərd idi. Azacıq əsəbləşən kimi onu öskürək böğurdu. Bir qədər sonra sakitləşdi. Əlini cibinə atıb bir siqaret çıxarmaq istəyirdi ki, gözü yuxarıdakı yanğın düyməlırinə sataşdı. Siqareti heyfsilənə- heyfsilənə qaytarıb cibinə qoydu. Orada bir saat gözlədikdən sonra qapını yenə həmin iki adam açdı. Yenə sükutla onun qoluna girərək böyük bir zalla apardılar.Elə bu vaxt qarşıdan iki ağ xalatlının xərəkdə adam gətirdiyini gördü. Əhməd ən çox burada – sərhəddə belə həkimlərin olduğunu bilmədiyini təəccübləndi. Xərək yanından ötəndə onun üzərində çox tanış bir sifəti görəndə özündən asılı olmadan yerində durdu. Bu ağappaq bəniz solmuş dodaqlar ona- Gülyasına aid idi.

- On on ona noooolub?- xırıldayaraq soruşdu.
- Get! Davam elə - qoluna girmiş adamlardan biri onu kobud şəkildə itələdi.

“Gülya sənə nə oldu əzizim? Polietilen açılıb. Hə, o zibil açılıb. Bizi doğurdan satıblar”- Əhməd yanağından süzülən yaşı silməyə belə qadir deyildi. Qollarından kəlbətin kimi yapışmış əllər onu getdikcə daha möhkəm sıxırdı.

Onu sərhəddən mülki maşında apardılar. Polis idarəsində ilkin yoxlamadan sonra üzərində heç nə tapmadıqlarına görə onu elə otaqların birində gözləməyi dedilər. Əhməd bundan sonra olacaq yoxlamanın daha ciddi olacağını anladı. O, oradakı polisdən tualetə getmək mümkün olub olmayacağını soruşdu. Polis heç nə demədən onu qabağa salaraq balaca bir otağın qarşıına gətirdi. Əhməd içəri girən kimi ayaqqabısının yapışqan bağlarının arasında düzəltdiyi kiçik ciblərdən malları götürüb kafelin üstünə qoydu. Sonra suyu çəkib onları su bakına boşaltdı. Artıq işi təmiz, şübhəsiz görə bilmişdi. Əhməd içəridən çıxanda polis cəld onun ardınca içəri girib ora baxdı.Əhməd əmin idi ki, suyu onu tökəndən sonra çəksə, mütləq orada ağ köpüklər əmələ gəlməlidir. Indi içində bircə Allaha polisin suyu çəkməməsi üçün yalvarırdı. Polis oranı diqqətlə nəzərdən keçirdikdən sonra onu yenə həminki otağa

gətirdi.Bir sutka sonra Əhmədi dəlil yetərsizliyindən azadlığa buraxdılar və cib telefonuna gələn ilk zəng Ataşdan oldu.

Əhməd gələn zəngə key-key baxaraq, hələ harada olduğunu, başına nələr gəldiyini sıra ilə düzüb, bir çox şeyləri özü üçün anışdıra bilməmişdi. "Ataş niyə məhz indi zəng edir?jGülya yəqin ölüb O da bunu deyəcək.İçindəki bu iyrənc hisslərlə əlini telefonun yaşıl düyməsinə basdı və:

- Alo- dedi
- Əhməd haradasan?- Ataş salamsız- kəlamsız soruşdu.
- Neynirsən? İndi də bura killer göndərin. Öldürün! İt kimi öldürün nə qymətim var ki?!
- Əhməd vaxtım azdır. Təcili Azərbaycanı tərk etməliyəm. Hər şeyi bilirəm yerini de, qardaş- Ataş demək olar ki, telefonda ağlamsındı.

Əhməd:

- Onsuz da itirəcəyim bir şey yoxdur. Sən də məni satmısansa, tüpürüm bu dünyaya. Gəl Astarada polis idarəsinin qarşısındakı bağçadayam. Gəl- bunu deyib bütün nifrəti ilə telefonu söndürdü.

Əhməd özünə bir çay sifariş edib, kölgəliklərin birində oturdu. Payızın mehi əsdikcə günəş gah buludların arasına girir, gah da oradan çıxaraq insanı yay günəşi kimi yandırırdı.Əhməd çayı əlinə alandan heç on dəqiqə keçməmişdi ki, Ataş bağşaya girərək o tərəfə bu tərəfə boylanmağa başladı. Əhməd əlini tənbəl-tənbəl qaldırıb ona yerini nişan verdi.Ataş onu görən kimi uşaq sevinci ilə yanına qaçdı.

- Allaha şükür, salamatsan. Ürəyim düşmüşdü ki, sən o zibili udacaqsan- Ataş onu qucaqlayıb öpə-öpə deyirdi.
- Sənin hər şeydən xəbərin var idi və sən mənə heç nə demədin. Hə, de görüm sənin o əclaflardan fərqin nədir ki?- Əhməd onu itələyərək özündən araladı.
- Əhməd, istər inan, istər inanma. Səni polislər tutan kimi məni boğazladılar. Elə bildilər ki, sənə polietileni udmamağı mən demişəm. Mənim bir sutka vaxtım var. Qardaşlarım İrandadı. Mən də qaçmışam. Indi buradan da birbaşa Gürcüstana gedirəm. Bakıdan da gedə bilərdim. Amma səni bu ölümün pəncəsində qoyub gedə bilmərəm.Gəl gedək Gürcüstana,sonra da birbaşa Türkiyə. Bizi çətin taparlar.
- Sən məni ailəmdən qopardın. Sən Gülyanı öldürənlərdən oldun. Mən o zibili udsaydım, deməli indi cəhənnəmi görmüşdüm. Indi sənə niyə inanmalıyam? Deməli gözümüzün qabağında can verən cavan-cavan uşaqların hamısının mədəsindəki o polietilenləri

qəsdən pis bükürdünüz ki, onlar orada açılsın. Vəssalam . Lazım gələndə məni də o sıraya qatdınınz. Kəsdiyiniz çörəyə....

Əhmədin sözünü dodağından şoralanan qan kəsdi. O an anladı ki, dişini dodağına sığaraq onu möhkəm qanadıb. Ataş stolun üstündəki salfeti götürüb onun qanını silə-silə ağladı:

- Bilirəm böyük bir p..x yemişəm. Bağışla əlim-ayağım bağlı idi. Bilmirəm sənə niyə kömək etmədim . Əslində indi kəsib atdıqlarımı o vaxt edərdim. Dəli, mən səni satmaq istəsəydim bura niyə gələrdim. O ki qaldı Gülyaya o qız bilirdi ki, polietilen açılacaq amma bunu qəbul edib. O, özünü intihar edib.Onun yanındakı o pezəvəngi də öldürdülər. O deyibmiş qıza.... Qıza deyibmiş ki, bu qurulma işdir. Amma qız yenə onu yenə qəbul edib.. Gəl gedək. Gəl gedək, səni bir az sonra tapacaqlar. Şef əmrini  verib.

Əhməd artıq Gülyanın ölümünü dəqiq biləndə ortadan bölünmüş kimi iki qat oldu. Özündən asılı olmadan hönkürdü. Ataş bir ucdan salfet çıxarıb onun gözünün yaşını silməyə cəhd edir, çox vaxt da cəhdi boşa çıxırdı.Əhməd azacıq sakitləşən kimi əli ilə Ataşa siqaret işarəsi verdi. Ataş bağışlanmaq istəyən körpə uşaq kimi cəld cibindən özü hazırladılarından birini ayırıb verdi.

Əhməd onu yandırıb bir qullab alan kimi əlindəki siqaretı yerə atıb tüpürməyə başladı:

- Bundan yox daha bunlar öldü mənim üçün. Daha çəkməyəcəm.ölsəm də çəkməyəcəm.-dedi.
- Biz getməliyik. Olsun ki, sənin yerini tapıblar.Mən sənin maşınınla gəlmişəm. Öz maşınımla çıxmadım ki, daha şıbhə çəkərəm.
- Yolda səni saxlayan polis tapılmadı?- Əhməd laqeyd şəkildə soruşdu.
- Saxlasa da, indiki vəziyyətimizdə polis ən zərərsiz mövqedədir. Hər an beynimizi dağıdacaq biri qabağımıza çıxa bilər.

Əhməd Ataşın ardınca düşüb çay bağçasını sürətlə tərk etdi.Əhməd bağçadan bir az aralı saxlanmış maşınını görənə ürəyi dağ- dağ oldu.Bu maşınla nə qədər xatirələri olmuşdu.Bu maşını alanda körpə uşaq kimi neçə gün ona pəncərədən, qapıdan tamaşa etməkdən doymamışdı. Təzə gəlin kimi nazlandırar, bir yerinin cızılmasına razı olmzdı.İndi isə ürəyində yalnız bir arzu var idi: mümkün olduğu qədər bütün hər şeydən onu  yarım il öncə bu qılafa soxan hər xırda detaldan can qurtarmaq istəyirdi.Ataş ona fikir vermədən maşını işə saldı. Yarımsaat sonra Astara bütün məşum xatirələri ilə geridə qaldı.

***

Bu səhər Qafar məktəbə getmədi. Qayıdıb evə gələndə Məsmə arvad təəccübləndi, amma özlüyündə başa düşdü ki, nə isə önəmli bir şey olub ki, Qafar məktəbdən vaz keçib. Yavaşca gəlib kişinin üzünə baxdı.Həmişə beləydi. Əzəldən bu evdə nə isə soruşulmazdı. Lazım gəlsə danışılacaq. Qafar siqaretə güc verərək sonuncu qullabı vurub onu külqabıda əzdi.

- Köçürük- elə şəkildə dedi ki, sanki bu dəqiqə baş verəcək bir işi xəbər verir.
- Hara? Niyə?- Məsmə özündən asılı olmadan divana çökdü.
- Bu bina plana düşüb, bizi Qarabağa yox, onun yaxın yerlərindəki tikilmiş evlərə köçürəcəklər. Deyilənə görə, burada göydələn tikəcəklər.Nə isə hazırlaş! Üçünçü qaçqınlıq başlayır. Bizə kim qarğadı?!..- Qafar kişi elə ah çəkdi ki, Məsmənin ürəyi ağrıdı. Kişi heç atası öləndə belə ah çəkməmişdi.
- Ay kişi, niyə pis olursan ki, təzə evimiz olacaq. Daha yaxşı, bu iylənmiş yerdən canımız qurtarar. Bax əvvəl Şuşadan qaçanda bir məktəbdə daldalandıq. Səsimizə səs verən də yox idi. Sonra Allah sağ eləmişlər bizi gətirib bura- Bakıya köçürdülər. Yenə heç olmasa burada yardım- zad almağımız daha asan oldu. Indi də təzə evər tikiblər. O gün televizor da gördüm şirin evlərdi.- Məsmə gücü çatdığı qədər ömür-gün yoldaşına səbr vermək istəyirdi.
- Bizə yanıb köçürmürlər. Buranı satın alan alıb- bunu deyərək Qafar əlini nəmdən qabarmış divara çəkdi.
- Ay kişi, elə deyirsən ki, elə bil divin canı şüşədə olduğu kimi sənin də canın bu evdədir. Rəhmətliyi də bura azara salmadımı.- Məsmə gileyli- gileyli dedi.
- Yox ona görə demirəm ki. İyrimi ilə yaxındı burada yaşayırıq. Əhməd Gülnar burada böyüyüblər. Burada yüz cürə xatirələrimiz var.

Qafar kişi Əhməd gedəndən ilk dəfə idi ki, onun adını çəkirdi.Məsmə bundan daha da, pis oldu.Bundan cəsarətlənərək dedi:

-Bu gecə Əhmədi yuxuda görmüşəm.

- Necə görmüsən?- Qafar bacardığı qədər soyuqqanlı soruşmağa cəhd etdi.

- Heç gördüm ki, gəlmək istəyir amma qoymurlar.- Məsmə ürəksiz- ürəksiz şəkildə dedi.

- O, elə yerə ilişməyib ki, onu buraxsınlar.- Qafar köksünü ötürdü.

Elə bununla da köçmək və Əhməd söhbəti qapandı. Axşam qonşular da yığıldılar

Hərənin ağzından bir avaz gəlirdi.Kimi köçməyin tərəfdarı idi, kimi Bakıda qalmağın, kimi də Qafar kişi kimi susmağa üstünlük vermişdi.

- Əşi, burada qalmağın nə mənası gəlin gedək. Ən azından Qarabağın havasına yaxın olarıq- Kərəm kişi armudu stəkndan çayı qurtumlayaraq dedi.

- Yox, ey camaat, bunlar bizim əlimizdən qaçqınlıq statusumuzu da alırlar. Baxın bir zamanlar Qarabağdan bələkdə çıxan uşaqlar indi yekə kişi, arvaddılar. Bu nəsil üçün artıq vuruşacaq bir amil qalmayıb. Indi bu müharibə, bu torpaq məsələsi qalacaq bu nəslin uşaqlarına onlar da nə deyəcəklər? Deyəcəklər: Ay qardaş, nəyin uğruna gedib vuruşuram hay.... Məsələ budur ey...- həmişə radikal fikirləri ilə seçilən mitinq Əli dedi. Qafarın bu mitinq Əlidən heç xoşu gəlməzdi. Bəzən onun haqqında hamı ehtiyatlı fikir yürüdürdü. Bəzilərinin düşüncəsinə görə O, əslində qatı millətçi də deyil, haranınsa agentidir. Mitinq Əlinin şillə kimi tutarlı sözlərindən sonra heç kəs bir söz demədi. Bir az sonra dükandan- bazardan söhbət salıb dağılışdılar

Hamı dağılandan sonra Qafar kişi uzun müddət arxa balkonda durub şəhərə tamaşa etdi. Əslində indi buradan getməyinə o qədər pis olmurdu. Ürəyində özünə belə etiraf etmədiyi bir həqiqət var idi. Bu həqiqət nə qədər üstünü basdırsa da, qabarıb çıxır və onu incidirdi. Istədi bir siqaret yandırsın sonra siqaretinin bitdiyini xatırlayıb daha da pis oldu. Içindəki Əhməd adlı həqiqət indi daha  da qabarıb üstünə hücım çəkdi. Arxa balkondan sürətlə otağa girdi və orada da ləngiməyib birbaşa çölə çıxdı. Məsmə arvad onun dalınca ha eliyib çıxınca kişi çoxdan qaranlığa qarışmışdı.

Qafar kişi birbaşa Ataşgilin blokuna girdi. Mərtəbələri bir- bir qalxdıqca ona elə gəlirdi ki, onun indiyə kimi yaşadığı bu bina sanki qırx mərtəbəlidir. Nəfəsini bir azca dərərək əlini zəngə uzatdı. Sonra duruxdu, geri dönüb qayıtdı. Iki pillə enmişdi ki, yenidən bu dəfə qəti addımlarla zəngi basdı.Ara vermədən səbirsiz-səbirsiz zəngi basdı.Nəhayət içəridən addım səsləri eşidildi. Qapı açılanda Ataşın nənəsi narazı baxışları ilə Qafarın qarşısında bitdi.Qafar onun baxışlarına fikir vermədən elə birbaşa salamsız- kəlamsız:

- Ataş haradadır?- deyə soruşdu.
- Bu axşam bu Ataş niyə hamının başına daş salıb. Gələn elə onu soruşur. Bir sən qalmışdın .....-  qoca demək olar ki, Qafarın üstünə çığırdı.- Yoxdular ey. Burada yoxdular, məni də bu xarabanın altında tək qoyub gediblər. Ölsəm meyidim iylənəcək, yiyə çıxan olmayacaq.
- Hamısı hara gedib ki?- Qafar demək olar ki, özünü məcbur edərək soruşdu.

- Başı batmış  Məleykə ilə İrana həkimə getdilər. Ataş da mənim yanımda qalırdı. İndi iki gündü yerli- dibli gəlmir. Öləcəm burada ....

Qafar qocanı qapının ağzında danışa- danışa qoyub oradan aralandı. Ürəyində bir qaraltı var idi. Bu qaraltı Ataşın yoxa çıxmq məsələsi ilə daha tündləşi. O gecə it yatdı, qurd yatdı amma Qafar özünə yer tapmadı.Yerinə qor dolmuş kimi sabaha kimi qıvrıldı. Artıq səhər binanı əhatə edən buldozerlər və fəhlə səs –küyü Qafarı da yavaş-yavaş köçməyə hazırlaşanların qafiləsinə qatdı.

***

- Qəlbindəki ağırlığa gücü yetmirdi. Beş nəfərlik ailə ilə gəldiyi  Bakıdan bir sınıq- saxaq arvadla qayıdırdı.Gəncliklə orta yaşnın sərhəddindəki on doqquz ili burada- paytaxt şəhərdə itirmişdi. Bu şəhər canavar kimi atasını, qızını,  oğlunu, nəvələrini uddu. Əhməddən bir soraq ala bilmədi. Əgər ala bilsəydi mütləq köçməni bir –iki gün təxirə salıb onu tapacaqdı. Amma yeganə ip ucu olan Ataş yer yarılıb içinə girmişdi sanki. Qafar dilində etiraf etməsə də, ürəyində Əhmədsiz bu yola çıxmaq istəməmişdi. Əhmədi axtarmazdan öncə qızının yanına getmişdi. Onu da özləri ilə aparmaq üçün nə qədər dil tökmüşdüsə, xeyri olmamışdı. Qızı doğulduğu bu şəhədən vaz keçmək istəməmişdi. Qafar onun qətiyyətinə heyran qalmışdı. Bunu ürəyi ağrısada qızına “ Bala, sən bizdən qeyrətlisən. Ən azından doğulduğun məkana sahib çıxırsan” demişdi. Sonra nəvələrini heç görməyəcəkmiş kimi öpüb, doyunca ətirlərini sinəsinə çəkmişdi. Indi yük maşını bu çirkin və yetim görünüşlü binadan uzaqlaşdıqca Qafara elə gəlirdi ki, Əhmədi də orada qoyub gəlib və o bina yıxılanda Əhməd onun altında qalacaq. Beynindən keçən min dolaşıq fikirdən qəlbi elə sızladı ki, gözlərindən yaş damlaları yanağından süzülməyə başladı. Bunu kiməsə sezdirməmək üçün burnunu plaşının içinə saldı. Payızın yelləri isə bütün bunlardan sonra sanki yaddaşlardan nəyisə silib süpürmək məqsədi ilə daha da sürətli əsməyə başladı.

    Qafar qəfil ləngərə ayıldı.Gözlərini ovuşdurub özünə gəlməmiş sürücünün deyinməsini eşitdi. Bir ağ sıfır yeddi markalı maşın çəpinə qafargilin yük maşının qarşısını kəsmişdi.Qafar  azca diqqət etdikdə həmin maşından tanış birinin düşüb gəldiyini gördü. Bu O, idi. Bəli, bu onun Əhmədi idi. Qafar maşını dayanmasından belə ayılmayan arvadını dümsükləyib ayıltdı. Heç bir söz demədən ona maşına yaxınlaşan oğlunu göstərdi. Məsmə ilk öncə yuxu gördüyünü zənn etsədə, sonra bütün bunların

ayıqlıqda baş verdiyini anladıqda tez maşından düşüb oğlunun qabağına yüyürdü. Duz kimi balasını yaladı. əlindən üzündən öpdü. Qafar matı- qutu qurumuş kimi Əhmədlə anasına baxırdı. Nəinki yerə düşmək, hətta nə edəcəyini belə kəsdirə bilmirdi. Əhməd yük maşının açıq qapısına baxır sanki ona yaxınlaşmaq üçün ondan izn istəyirdi. Qafarın qarşısında ovurdları batmış, gözlərinin içi qıpqırmızı bir gənc dayanmışdı. Bu gənc onun evdən qovduğu ətli-canlı Əhmədə qətiyyən bənzəmirdi. Maşından düşüb qollarını geniç açdı. Əhməd onu qucaqlayanda Qafar onun boynundan gələn qoxu ilə onun doğurdan da öz oğlu  olduğuna inandı. Sürücü onlara getməyi xatırlatmasaydı, yəqin ki, beləcə saatlarca səssiz qol- boyun olacaqdılar.Yük maşını işə düşəndə Əhməd körpə uşaq kimi arxadakı yüklərin üzərinə dırmaşdı.Artıq Bakı uzaqda balaca bir nöqtəyə çevrilmişdi.Əhməd yükün içindən götürdüyü yun adyala bürünərək çılpaq və boz yollara tamaşa etməyə başladı. Ürəyi artıq sinəsində sakit döyünürdü.

P.S.

-Şef, əmrinizi yerinə yetirildi cəsədi neyləyək?- Buqatinin ön oturacağında oturmuş qara eynəkli arxaya dönmədən dedi

- Onu, sənədlərini üstündən götürmədən Kürə atsınlar. Qoy Ataşın qardaşları bundan lazımı dərsi çıxrsınlar. Hamam böcəyi belə başı kəsiləndən sonra doqquz gün yaşayır- arxa oturacaqda gözünü əlindəki Forbes jurnalından ayırmayan orta yaşlı kök kişi dedi.

- Bəs Əhmədi neyləyək?-  qarşıdakı yenə həminki quru rəsmi səsiylə soruşdu.

- Onunla on gün sonra Aran bölgəsindəkilər irtiba keçsınlər. Onu dişləmişik. Biz isə öz vampir dişlərimizdən qəti əminik.Pişik suyu sevməsədə, balıqdan heç vaxt vaz keçmir.- onun bu cavabını nəinki maşındakılar, hətta öz dinləmə qurğularına iki gün öncə bu maşına yerləşdirə bilmiş İnterpol da eşitdi

Can yanğısı

Əlisəməd iyirmi il idi ki, ekspert həkim işləyirdi. Ona arabir elə gəlirdi ki, o yalnız bu iş üçün yaradılıb. Bu iyirmi ildə o qədər insan yarmışdı ki, bunun sayını, hesabını itirmişdi. Bütün yardığı insanlar onun üçün eyni idi. Onların hamısının onun aləmində bir adı var idi "ölü". Bu ölulərin hamısının üzündə eyni donuq ifadə olardı. Təbii ki, üzü olan ölülərin. Çünki elə ölülər də var idi ki, onların nəinki üzü heç salamat bədənləri də olmazdı.Onun aləmində ən iyrənc ölulər günlərlə suda qalan ölülər idi. Bu ölulər şişmiş,səklini itirmiş olurdular. Onlar Əlisəmədə Amerika filmlərindəki zombiləri xatırladardılar. Əvvəllər bu şəkilsiz ölülərdən iyrənərdi və bəzi gecələrdə yuxuda hey qan görərdi. Bu qan normal isti qan olmazdı. Elə iylənmiş qan olardı ki, Əlisəmədin yuxuda onun qoxusundan ürəyi bulanardı. Gündüzlər isə bu yuxuları unudardı. Onun var olan, görünən şeylərə inamı var idi. Yuxularını isə sənətinin psixalogiyasına təsiri kimi yozurdu. Özü üçün "qəssab yuxuda dana görər, mən də qan ,ölü görürəm" kimi lətifə uydurmuşdu.O, axirətə inanmazdı. Hətta ondan "heç qorxduğun ölü olub?" – deyə soruşulanda O, "yox" deyə cavab verərdi.

Bu illərdə ilk işlədiyi ayı çıxmaqla mərhəmət hissi tamam qısırlaşmışdı. Yalnız o ilk ayı uzun müddət yaddaşından silə bilməmişdi. Bir ailənin yeganə övladı su da boğulmuşdu. Ana hey: "balamı yarmayın"- deyə qışqırırdı. " Onun boğulduğunu biz ğördük. Heç kimin bizimlə qəsdi yoxdur "deməsinə baxmayaraq o uşağı yarmışdılar. Uşağın atası sanki daşa dönmüşdü. O zamanlar Əlisəməd yeni – yeni atalıq duyğusuna sahiblənirdi. Özü də səbəbini bilmədən bu hadisəni uzun illər idi ki, unuda bilmirdi. Illər işinə yeni təcrübələr gətirdikcə , işi və həyatı gözündə adiləşirdi.. Bu ətalətli həyatının tısbağa yerişini beş il olardı ki, arvadının xəstəliyi pozmuşdu. Bu yeni ab-hava evdəki şəraiti alt-üst etmişdi. Arvadı heç kəsə rəhm etmədən daim hamını xəstəliyi ilə şantaj edirdi. Qohum, yad demək olar ki hamı onun ölümünə hazır idi. Hətta qonşudakı ağıçı belə səhərlər üzünü yumamış, onların evini dinşəyirdi.Bunların hamısından Əlisəmədin xəbəri var idi. Lakin bütün bunlardan da vacibi pul problemi idi. Hər üç aydan bir arvadı ciddi bir müalicə alırdı. Bu mualicə əldəki, ovucdakı son qəpiyi də sümürüb aparırdı Əlisəmədin pul dərdi, arvadının can dərdi evdəki uşağı onlar sağkən yetim qoymuşdu . Axşamlar süfrə başında "hə, yox , çörəyi ver, çay gətir" sözlərindən başqa bir söhbət olmazdı.Problemlər içində tək balası belə gözündən

itmişdi.Evdə hərənin bəlli bir yeri var idi. Sanki arvadı daim xəstə, oglu daim səssiz, özü isə işdən evə, evdən işə qaçan bir adam olmalı idi. Bu illər ərzində oğlunun necə böyüdüyünə bəzən ozü də heyran qalırdı. Oğlunun heç nə danışmaması, özunə qapanmasını Əlisəməd yeniyetməlik ərköyünlüyü hesab edirdi.Yalnız son zamanlar oğlu qəfildən gülür, hey özü-özünə danışırdı. Nə olduğunu soruşduqda isə susur, ya da otağına qaçırdı. Əlisəmədin bütün bunlarla maraqlanmağa nə vaxtı var idi, nə də marağı. Ona nə isə deyildikdə isə " Mən ayaqyalın çöldə bayırda boyümüşəm neynirəm ?! Mən onu yağ-bal içində saxlayıram " – deyə yüksək səslə etiraz edərdi. Onun bu sözlərinin qarşısında susardılar. Bu sükutdan da Əlisəməd özünün haqlı olduğu nəticəsini çıxarardı. Lakin bu sükut uzun çəkmədi.

Hər şey Əlisəmədin gecəyarısı qorxunc bir səsə ayılması ilə başladı. Hövlank yerindən sıçrayan Əlisəməd ilk öncə zəlzələ baş verdiyini düşündü. Yerin ayağının altında möhkəm durduğunu hiss edən kimi evdə nəsə baş verdiyini anladı. Səs ikinci dəfə təkrarlandı. Əlisəməd səsin həyət tərəfdən gəldiyini bilən kimi alt tuman –köynəklə ora götürüldü. Evdəkilərlə birgə qonşular da səsi eşidib həyətdəki böyük tut ağacının altına toplanmışdılar. Əlisəmədin ürəyi az qala ağzına gəlirdi. Iki saniyədə neçə min xəyala düşdü. Adamları aralayıb önə keçdi. Oğlu ağacdan möhkəm-möhkəm yapışıb inildəyirdi. Oğlu orada nə gəzirdi? Bu baş verənlər nə demək idi?

Əlisəməd elə o andaca başa düşdü ki, bura toplaşan yadlardan fərqi yoxdur. Özünü evin içindən deyil , yadlardan biri olduğunu hiss etdi. Özünü toplayıb oğluna səsləndi:

-Eldar , oğlum bax bu mənəm. Atanam. .Eldar

Oğlu cavab vermək əvəzinə ağaca daha da möhkəm sarıldı.

-Eldar , bala, buradayam. Atanam . Düş aşağıdayam –deyən Əlisəməd sanki boğazında tikə qalmış kimi xırıldadı. Ətrafdakı pıçıltılar Əlisəmədin qulağına uğultu tək çatırdı. Daha nələr baş verdiyini Əlisəməd səhərisi dumanlı xatırladı. Qonşulardan bir neçə qoluqüvvətlisi Eldarı zorla ağacdan qopartdılar. Bu günə kimi sakit uşaq təki tanınan Eldardan əsər əlamət qalmamışdı. Onun gözü alacalanmışdı, Üzündə də sərsəm bir ifadə var idi. Dayanmadan "Onlar buradadır! Qoymayın məni öldürdülər " deyə bağırırdı. Onu necə yerə yıxdılar, onun can parasına necə vəhşicəsinə sakitləşdirici iynə vurdular. Bütün bunları Əlisəməd dünən gecə beynində olan iyrənc xatirələrin yanına gömdü.

Və səhər. Səhər özünü ağıllı hesab edən bütün qohum -əqraba ,tanış, dostkimilər onlara toplaşdı. Əlisəməd bal kimi bilirdi ki, bunlarım çoxu heç onu sevmir. Amma hamısı bu gun

burada idi. Qadınlar dayanmadan seyiddən, ,molladan, nəfəsi güclü övliyalardan danışır, kişilər isə siqareti siqaretə calayırdılar. Bütün bu müzakirələr böyük bibinin amiranə qərarı ilə sonladı:

-Mən Eldarı Salman həkimin yanına aparacam.-deyən bibiyə heç kəs etiraz etmədi. Hətta cəsarət edib “bu Salman həkim kimdir” deyə soruşan da olmadı. Hamı bibinin nə qədər savadlı və nə qədər həyasız olduğunu bilirdi. Əlisəmədin bacısıyla razılaşmaqdan başqa çarəsi qalmadı. Əlisəməd seyidə , mollaya inanmazdı lakin bu an onlardan biri bu məsələyə çarə taparam desəydi Əlisəməd onunla da razılaşardı. O,saman çopündən yapışmışdı.

Sona Eldarı apardı. Cəmi bir gün sonra o məşum zəng gəldi. Bu dəfə o amiranə səs Əlisəmədin qulağına ciyilti kimi çatdı. O ciyilti ona Bakıya “gəl” dedı və sonrasını Əlisəməd xatırlamadı.

Gecənin zülmət qaranlığına onun inanmadığı Allahın da rəhmi gəlmirdi. Nə ulduz, nə ay var idi. Sanki hər tərəf Əlisəmədin beyni kimi qaranlıq idi. Başqa vaxt gozunə düşüb onu hirsləndirən “dalni” işıqlar belə onun üzünün donmuş ifadəsini dəyişəmədi. Bakıya çatana kimi bir səs qulağında ciyildəyirdi. Ciyilti ona dayanmadan:

Eldar özünü asdı...! Eldar özünü asdı...! deyirdi

Onlara çatanda artıq gec idi. Onu polislər aparmısdılar. Bacısı onu gölgə kimi qarşıladı. Əlisəməd onlarda dayanmadı. Qayıdıb sərxoş kimi maşına oturdu. Qulağındakı ciyiltini indi daha dəhşətli səs əvəzləmişdi. Xatirələrinə bu iyirmi ildə zəli kimi yapışmış xatirənin səsi: “balamı yarmayın”-deyə beynini cırmaqlayırdı.

Polisdən morqun yerini öyrəndi. Burada morq böyük bir bina idi. Qapısında yekəpər bir polis dayanmışdı. Lakin Əlisəməd nə binanı, nə də polisi görəcək vəziyyət deyildi. Onu icəridə həkim geyimində biri qarşıladı. Həkim ondan nə isə soruşdu. Əlisəməd də ona nə isə dediyini hiss etdi. Sanki bu gün hər şey kimi duyma orqanları da ona xəyanət etmişdi.Keyləşmiş əllərini güclə qaldırıb həkimin yaxasından yapışdı və xırıldadı:

- Onu yardınız?

## DİKTATORUN ARVADI

Neçə vaxtdı idi ki, güzgüyə baxmırdı. Qorxurdu. Güzgüdəkindən qorxurdu. O güzgüdəki insan ona çoxdan yad idi. Tanımırdı, ya da tanımaq istəmirdi.Əlinə keçsəydi boğazından yapışıb yerə çırpardı, güzgüdəki qadını . Lakin bunun qeyri- mümkün olduğunu anlayırdı. Daha bu tantal əzablarının onu gəmirməsinə tab gətirə bilmədi. Əlindən gələn yeganə çarə: bir daha bu ləkəli güzgüyə baxmamaq oldu. Yanından düz keçdi. Etdiyi ikinci iş isə: nifrət etdiyi örpəklərlə üzünü sarıdı. Təkcə gözləri qaldı: insanlara açıq-aydın . Parlaq aristokratik gözləri. Bu gözlər qocalmaq bilmirdi. Bu gözlərin dərinliyinə baxan olsaydı, orada Baham adalarını, Seyşel cazibəsini , Parisin işıqlarını və nələri, nələri görərdi. Qadının bədəni qocalırdı amma gözləri fürsəti fövtə vermədən ulduz kimi yanırdı. Amma artıq gec idi. Onun ulduz gözləri bu kazinonun süni lampaları yanında sönük qalırdı. O kazinonun ki, onun nəhəng imperiyasının bir çırtması onun keçmişini və gələcəyini satın alardı. O kazino ki, onun onun əbədi hesab olunan ehtişamı burada məhv olmuşdu.

Parisdəki iqamətgahdan Monte-Karloya gedən yol....

Sonra birdən işıqlar söndü. Qaranlığın bətninə gömüldü bütün dünya. Onu alıb aşağı atdılar ta zirvələrdən.

Qadın daha güzgüyə baxmırdı. Hiss edirdi ki, güzgüdə sonuncu plastik əməliyyatın şah əsəri olan burnunun çürüməyini görə bilər. Sifətinin sürətlə əyilməyini görə bilər.

Iqamətgahdan Monte-Karloya yolun uzunluğunu heç hiss etmədi rahat rolls- roylarda.

O, xöşbəxtlik dənizində biri kədər, biri sevinc olan siam əkizlərini heç tanımadı.ki,,, Onun üçün kədər yaşadığı xöşbəxtliklə yanaşı gedən paralel xətt idi.

O, qorxunun gözlərini görməmişdi. Xəyalını belə etməmişdi. Onun xəyallarında acından və kasıbçılıqdan ağzı qoxuyan insanlara yer yox idi. O, nəhəng bir tacın almaz bir daşı idi.Bu daş yalnız bir istiqamətə baxan mayak idi.

Qadın daha güzgüyə baxmırdı. Bilirdi ki, orada ona yabancı bir qadın baxır. Səfalətin murdar üzü baxır.

Parisdən Monte-Karloya bir ailə ulduz kimi axırdı. Gecənin təmiz nəfəsində kazinoya endilər. Diktatorun ehtişamı hər kəsi sıraya düzə biləcək qədər nəhəng idi. Qadın uzun barmaqlarını havada hərlədikcə tərcüməsiz hər şeyi hər kəs anlayırdı.

Dünyanın bir köpəkbalığı olduğunu unutmuşdu. Manqurtlaşmışdı. Ruhunun yaddaş kartından gedəcəyi və öləcəyi anın qeyd olunduğu yer istifadədən kənar qalaraq beyninin baş

proqramı tərəfindən ləğv edilmişdi. Bu proqramda xöşbəxtlik, saədət və qəmsizlik bir- birinin ardınca sıralanmışdı.

Qadın daha güzgüyə baxmırdı. Bilirdi ki, bu ləkəli güzgüdən yaşadığı saraylar, malik oldüğü milyonlar görünməyəcək. Diktatorun arvadı qocalırdı.

Parisdən Monte- Karloya gedən yol, sonuncu abzas oldu həyat dəftərində . Bu abzasın ilk sözünün böyük həifi kraliçə sözünün k – la başlayırdısa sonuncu kəlməsi səfalətin s hərifi ilə bitdi.

Parisdən Monte-Karloya getdikləri zamanda çevriliş oldu. Üstlər alt oldu. Iyirmi dörd saat lazım oldu amma fələyin ciblərində heç iyirmi saat da tapılmadı. Oğullarını çıxara bilmədi köpək balığının ağzından. Parçaladı, buynuzuna keçirdi sonuncu matodoru qızmış kəl.

Qadın daha güzgüyə baxmırdı. Bilirdi ki, oradan son zamanlar torba kimi sallanan qarnını görəcək. Bu qarın yarıac idi. Illərlə yediyindən, dağıtdığından bir ovuc ehtiyat qarnının küncündə saxlaya bilməmişdi.

Kazinoda gəldi, o məşum telefon zəngi. Ölkə respublika elan olunub. Sülalə çökdü. Diktatorun rəngi zəhərlənmiş insanın rəngi tək yamyaşıl oldu. Telefon əlində titrədi. Sonuncu qədəh əlində qaldı. Sabahın ilk günəşini diktator kimi qarşılamadı. Səmanın qarasında da, ağında tək qaldı diktatorun arvadı. Milyonların sel kimi axdığı hesabları şaxta vurdu.

Qadın neçə vaxt idi ki, güzgüyə baxmırdı. Bilirdi ki, oradan güllələtdiyi, dənizlərə gömdüyü neçələrinin üzü qabaracaq və hamısının ağzından bu sözlər töküləcək” el malı ilan sümüyüdür : yeyilər həzm olunmaz”

Səhərin günəşi al şəfəqləri ilə doğulanda, dünənki kraliça kazınoda tək- tənha qalmışdı. Ətrafı dağılmış stollar, sındırılmış qədəhlərlə dolu idi. Bunları gecəyarı kazinoya tökülən bir sürü qara eynəklilər etmişdi. Onlar yerə yıxılıb, çapalayan diktatoru ölümlə həyat arasından dartıb çıxarmaq istəyirdilər. Diktatorun arvadı bunu onların sonrakı cəzalar üçün etdiklərini bilirdi. Amma bir şey edə bilmirdi. Diktatorun başına yığılanlar, onu yaxına buraxmırdılar.

Sona çatmış imperiyanın son qalıqlarını yığışdırmaq ona qaldı. Bu son qalıq isə: özünə qalan özü idi.

Qadın daha güzgüyə baxmırdı. Sanki zamanın dolanbaclarında itmiş özünü bu güzgü udmuşdu. Yerində bom-boz ləkələr qalmışdı. Əlini atıb, oturduğu yarıqırıq stulu qaldırdı. Istədi kazinonun mətbəxindəki bu iyrənc güzgünü sındırsın . Qəfildən bunun cərimənsini ödəyə

bilməyəcəyini xatırladı.. Stulu yerə qoyub, üstünə çökdü.  Yaz buludu tək ağladı.   Doyunca ağladı. Oğullarına , ərinə, imperiyasına və keçən iki ildə əlinin yeganə bəzəyi olan yoluq süpürgəyə  ağladı. Içindəki uçurumlara ağladı. Üzündə bəxtəvər ifadə olan adi adamlara paxıllığından ağladı . Beyni quruyana qədər ağladı.

## Günəşə doğru

Üzü günəşə doğru gedirdi. Tikanlar, qanqallar əlini- ayağını didikləyird,.lakin O, bütün bunları hiss etmirdi. Günəş üfüqün qoynuna can atdıqca günün başa çatdığı bəlli olurdu. Neçə vaxtı idi ki, səmtini , yönünü itirmişdi. Valideynləri yana-yaxila onu  qoruyurdular. Amma bilirdilər ki, təbəssümü üzündə donmuş balalarının bir dərdi var. Həkimlər dava-dərman........

Heç kəs bir söz demirdi.

Elə hey susurdular. Hamısı susurdu. Ağızları möhürlənmiş kimi susardilar. Sanki hamısı bir- birini tanımaya-tanımaya şərtləşmişdilər.

-Balamın  dərdini mənə deyin nə olar yalvarıram, siz də atasınız anasınız............

Daş heykəl kimi üzünə səssiz-sədasız baxardılar.

Elə -belə də dönüb hər dəfə kəndə qayıdardılar.Yaxınlara tanışlara –bilişlərə özləri də sükutla cavab verərdilər. Ətrafdakı insanlar da, nəhayət onların bu sükutundan bezdiler. Daha heç nə soruşmadılar. Yeni mövzu alınacaq cavabdan daha maraqlı oldu: dağ boyda oğlan şam kimi əriyir. Aaz, xəbərin var deyirlər elə dərdi var ki, o tərəfdə tapıb. Hiiiy, düz deyirsən, bajı?.........

Insanlar öz aralarında gəldikləri nəticəylə onlardan aralaşdılar. Sanki qurbağa gölünə qəfil daş atıldı. Onlardan hamı aralı durdu. Vəbalı adam kimi salamlarını belə güclə aldı, kənddə bir iki adam.

Üzü günəşə doğru gedirdi. Günəş yerə daha da yaxınlaşmışdı. Ona elə gəlirdi ki, sanki beyninin içini su alıb.  Addımını atdiqca o suyun hərəkətini belə hiss edə bilirdi.

Əsgərlikdən daha çox əsirlikdə qaldı. Oradan ataya və anaya yalnız iki əzik məktub gəlib çıxmışdı. Sonra məktubların ardınca əcnəbilər onu gətirdilər. Hər şey ilk baxışda yolunda idi. Əli- ayağı salamat idi. Amma heç danışmadı. Gələndən iki gün sonra ata qorxa-qorxa oğlunun ağzına baxdı. Dilinin yerində olduğuna əmin oldu. Sonra, sonra , sonra...........

Sonra oğlu heç vaxt danışmadı.

O ki məktubu ata dönə- dönə oxudu orada" Ata, mən yaxşıyam amma mənə hey iynə vururlar" cümləsi insanın gözünü deşəcək qədər neçə yerdə keçirdi. Bəzən eyni sətirlər təkrar –təkrar yazılmışdı.

Üzü günəşə doğru gedirdi. Düzənlik intənasız bir zaman kimi bitmək bilmirdi.Sanki hər atdığı addımla arxasında qoyub gəldiyi həyatdan anbaan qopurdu. Üfüq günəşi bağrına basıb bu vüsaldan cızdağı çıxacaq qədər atəşlənmişdi.

- Dağ kimi balam əriyir, ay həkim tayfası, niyə bir söz demirsiniz?

- Get şükür et oğlunu qaytardılar. Duan qəbul olundu.

- Quru cəsəd üçünmü?

- Erməninin əlində ölsəydi?!....

Quru-quru əriyirdi. Içindən-içindən nə isə gəmirib yelə verirdi bədənini.Əvvəl sükut gəldi sonra keylik, daha sonra beyni özünə tabe olmadı.İçində iki obraz qaldı. Ana və ata. Daha sonra bu obrazların adı da qar kimi əriyib getdi. Beynində iki mehriban üz qaldı, bir də evlərinin ala qapısı. Hara getdisə ora döndü.ala qapının yanına. Qış qurtardı. Yazın ilk mehi əsəndə yavaş-yavaş əlini, ayağını da unutdu.

-Bala, sənə nə etdilər?

Ağzı sulana-sulana baxdı qarşısında ciyildəyən adama . Xatırlaya bilmədi.

Bu gün canı heç qızmamışdı. Günəşin qaynar şüalarının altında oturdu. Dərisi yandı duymadı. Qıza bilmədi aranın yandırıcı havasında . Doymadı əlini qaldırıb havaya udmaq istədi al şəfəqləri. Sanki mart soyuğunda həsrətli bənövşələr kimi günəş vüsalına qovuşacaqdı.Qaçdı, evdən çıxdı.ala qapını itələyib qaçdı.Günəşə doğru irəliləməyə başladı.Getdikcə sanki günəş ondan uzaqlaşırmış kimi bir hiss var idi içində. Günəşin ardınca yüyürdü. Yol boyunca, kənd boyunca yüyürdü. Nəfəsi kəsilənə qədər yüyürdü.Qanqallara dolaşa- dolaşa, yıxıla-dura yüyürdü. Taqəti kəsilənə qədər yüyürdü. Sükutla möhürlənmiş dodaqları ilə yüyürdü.

Bədənindən qopmaq üçün yüyürdü.. Çəkdiyi əzabları günahlarına əvəz edərək yüyürdü. Üfüqün qucağına can atdı. Günəşə yetişmək üçün, qurtulmaq üçün içindəki buz kimi soyuqluqdan.

Günəşə gedən yol da bitərmiş......Ayağı sürüşdü boşluğun içinə yuvarlandı. Ayaqları suya toxunana qədər, su onu bətninə çəkən qədər yuvarlandı.

Cəsədini iki gün sonra tapdılar.Üzündə acı bir həsrət var idi. Bu həsrəti üzündən su da yuyub apara bilməmişdi.Qolundakı iynə yerlərindən narkoman hesab etdilər. Sahibi tapılana qədər yuz zənni- gümanda boğuldular

## KARYERA

Doğum şöbəsinin dar dəhlizi boğazında daralan nəfəsini daha da boğdu. Onun özünu pis hiss etdiyini duyan bacısı qoluna girərək, əlini ovcuna alıb tumarladı.

-Zəhləni tökmək istəmirəm amma yenə soruşacam. Sən yenə həmin fikirdəsən?

Bacısının uzunə dikilmiş mərhəmət dolu baxışlarını görməmək üçün üzünü yana çevirib mızıldandı:

-Səncə, başqa çıxış yolum var?!

-Hər halda sən bu gündən sonra təksən. Pis, yaxşı o sənin ərin olub. Bu onun son yadigarıdır

-Bəs mənim həyatım?! O öldü. Daha yoxdur. Bəs mənim bu gündən sonra quracağım həyat?! Mən hər şeyi; keçmışə aid hər şeyi, bu uşağı da silib atmaq istəyirəm.

-Sakit ol! Aliyə- bacısı qaşlarını çatdı:

-Sən hər şeyi,bütün xatirələri silə bilərsən, lakin onları beyninin içindən qaşıya bilmərsən. Mən sənə yenə deyirəm, bu uşaq heyifdir. Sən..

Bacısının sözünü açılan qapı kəsdi. Içəridən cantaraq bir qadın çıxaraq onlara işarə etdi. Aliyə onun üzünə baxdı. Qadın sanki xəstəxananin bir parçası idi. Onun əynindəki yuyulub ütülənməkdən rəngini itirmiş xalat üzu ilə ahəngdarlıq təşkil edirdi. Xalatdan fərqli olaraq üzünə sürtdüyü kirşan onu gülməli vəziyyətə samışdı. Tərdən axan sürməsi bulanıq gözlərinin ətrafında topa-topa durmuşdu. Əksər ortayaşlı qadınlar kimi döşləri ilə qarnının arasında məsafə qalmamışdı. Ondan gələn yodqarışıq tər iyi Aliyənin ürəyini bulandırdı.

Otağın girişində onun paltosunu almaq istəyən qadına bacısı:

-Xanım, lazım deyil . Mən içəri keçməyəcəm. –dedi-Aliyə mən buradayam. Ürəkli ol.

Aliyə balaca dəhlizdən keçərək bir az geniş bir otağa girdi. Otağa girən kimi ilk gözünə dəyən əcaib formalı stol oldu. Bu stolun yanındakı əl-üz yuyanda əlini yuyan qadın ona tərəf dönmədən :

- Necənci hamiləlikdir?-deyə soruşdu
- Birinci-həyacanını boğmağa çalışan Aliyə ona cavab verdi.
- Birinci? Ərdəsiniz?
- Bunun nə dəxli var? Mən mümkün qədər bu işin tez qurtarmasnı istəyirəm.
- Yanınızda adam var? Yəqin tək gəlməmisiniz.-qadın bu dəfə ona tərəf dönərək bir həkim mülayimliyi ilə soruşdu.
- Hə, bacımla gəlmışəm.
- Sizin məlumatınz yoxdursa əgər, mən bəri başdan sizə söyləyim. Əgər birinci hamiləlik məhv edilərsə sizin bir daha uşağınız olmaya bilər.
- Bəli bunların hamısını bilirəm . – həyəcandan əlləri əsən Aliyə dayana bilməyib, iyrənsə də əcaib stola söykəndi.

Daha sonra olanları üç ay sonra xatırladı. Ona soyunmağa kömək üfunətli iy verən tibb bacısı onun üçün canfəşanlıq edir,( yəqin alacağı qəpik –quruşa ümid edirdi.) həkim isə istifadə edəcəyi alətləri sıra ilə stolun yanındakı plastik kətilə düzürdü. Əməliyyatdan sonra Aliyənin çığırmamaq üçün dişlədiyi dodağının qanı tökülən xalat üçün ondan ayrıca pul tələb etdilər.

Iki günlük ağrı-acıdan sonra Aliyə yavaş-yavaş özünə gəldi. Qüvvəsi çatsaydı həyatının iki gün öncəyə qədər olan qalanını bir köhnə dəftər kimi bir kənara tolazlayardı. Ən pis halda yandırardı. Hər şey nə qədər sürətlə olub bitdi-deyə düşündü. Sanki beynindəki xatirələrə toxunsaydı bütün olan bitənlər bu an olmuş kimi idi. Öz –özünə gülümsəyərək: mənim həyatım sürətləndərilmiş film lenti kimi keçdi. Camalla tanışliq, toy, ailə həyatı . ömründə ilk dəfə duyduğu analıq duyğuları və sonra daha da sürətlənən hadisələr lenti....

Avtomobil qəzası, Camalın ölümü, yas və ardınca alınan o cazibədar təklif. Aliyə çarpayıda böyrü üstə dönərək filmin təklifə qədər olan hissəsinə sanki arxasını çevirdi. Yastığı qucaqlayıb yanağına söykədi. “Mən gəncəm, enerjiliyəm bu işin öhdəsindən əla gələrəm, bəlkə də bu təklif olmasaydı uşaqdan vaz ....nə isə bu fikri unutmasam yeni səhifə aça bilməyəcəm. Təklif.” Təklif şöbə müdiri .... bu kəlmələr canındakı ağrıya qarışaraq bütün bədəninə məstedici bir şirinlik yayırdı. Hər şey unudub fikri cəmləmək lazımdır. Birinci şəhərdə ayrıca ev tutmaq lazımdır. Bəsdir valideynləri ilə yaşadı. Anası ona kənddən-ər evindən geri döndükdə otağının yenə Aliyəyə məxsus olduğunu sözarası çatdırmışdı.”Yox . daha onların ayağına bağ olmayacam.Park ətrafında tikilmiş yeni evlər çox gözəldir yəqin ki, orada kirayəyə otaqlar tapılar. Bu depressiya vəziyyətindən qurtulmaq üçün ən yaxşı dərman alış-verişə çıxmaqdır.” Bu düşüncələrlə qalxıb otağın küncündəki güzgünün qarşısına keçdi. Xurmayı saçlarını əli ilə daraqlayıb yuxarıda topladı. “Özümü o qədər itirməmişəm. Kim mənə üzdən otuz iki yaş verər ki, dərim hələ təravətlidir. Gözlərimin ala olması mənim üçün həmişə avantaj olub . Camal da ilk öncə gözlərimi bəyənmişdi. Ehh....” Camal yadına düşən kimi üzü tutuldu. Güzgünün qarşısından çəkilərək, çarpayının küncündə oturdu.”Ən ümdə məsələ evə dönüb hər şeyi planlaşdırmaq lazımdır.” Əlini ataraq çarpayının altından paltar çantasını çıxardı. Çarpayının baş tərəfindən toplanan paltarlarını çantaya yığmağa başladı. Başı elə qarışmışdı ki, bacısının gəldiyini duymadı.

-Sən nə edirsən?

- Heç. Yığışıram.

-Niyə ? Onları mən də yığışdıra bilərdim.

-Yox. Mən gedirəm ona görə yığışıram.

-Nə?- bacısı özündən asılı olmayaraq qışqırdı-Sən,dəli olmusan? Ən azından on gün yataqda qalmalısan!

-İnan mənə -Aliyə tövrünü pozmadan sakitcə cavab verdi- beləsi daha yaxşıdır. Çarpayıda çox vaxt keçirdikcə vicdan və depressiya yaxamdan əl çəkmir. Məncə daha vaxtdır həm də anamgili və iş yerini şübhələndirməyin yeri yoxdur.

- Aliyə,iş də, anamgil də gözləyərlər. əsas məsələ sağlamlıqdır.

- Axşam düşməmiş gərək gedib çatam.

- Bəli də, deyirsən sən danışmağında ol!Mən bildiyimi edəcəm. Buyurun ,buyurun Aliyə xanım sən karyeralı , bilmiş bir qadınsan . Sənə bir evdar qadın necə yol göstərə bilər?!

- Ay mənim sirr sandığım – Aliyə kövrəlmiş bacısını qucaqladı – bunun sənin dediklərinlə bir əlaqəsi yoxdur. Sadəcə olaraq mən yeni bir işə təyin olunmuşam bilirsən ki orada məni bəlkə də heç tanımırlar. Kraliça deyiləm ki, hər halda mənim də bir məsuliyyətim var.

Aliyənin bu dəlilərindən sonra azca yumşalan bacısı da onu qucaqladı.

- Get, amma söz ver ki, özünə baxacaqsan
- Ay qız, niyə də baxmayım uşaq yox..........-sözü yarıda qırılan Aliyə qəfil susdu.

Aralarına qəfil girən sükut sanki ikisinin də qəlbini qırdı.

Nəhayət Aliyə cəsarətlənib:

- Nə isə, mən gedim. Sən də ağlama oldu. Əslində hər şey öz əlimızdədir. Mən istədim və həyatımı dəyişdim. Bu mənim seçimimdir və bundan da qətiyyən peşman deyiləm.

Bacısıgil şəhərdən bir az aralı qəsəbədə olurdular. Aliyə əməliyyatını bu qəsəbədə etdirmək istəyəndə, əvvəlcə bacısı razılaşmaq istəmədi. Lakin Alidə bu məsələnin mümkün qədər gizli olmasını və bunun onun karyerasını zədələməməsi üçün bacısına o ki, var dil tökdü. “Ən azından səssiz-küysüz alındı”- deyə qəsəbədən uzaqlaşdıqca düşünürdü. Avtobus onu fikirləri ilə yirğalaya-yırğalaya şəhərə çatdırdı.

Gecəni anasının minbir sualları və məsləhətləri ilə başa vuran Aliyə ilk öncə səhər yeməyi belə yemədən ev axtarmağa getdi. Bir neçə ev dəllalı ilə görüşdükdən sonra birbaşa iş yerinə getdi.

Idarədə ona gözləməyi əmr edən katibə yenə öz işi ilə məşğul olmağa başladı. Aliyə gülümsünərək “O hələ mənim kim olduğumu bilmir”-deyə şənlənərək duşündü. Bunu biləndə onun üzünün ifadəsinin necə olacağını görmək ləzzət verəcək. Yan otağın qapısı açılanda Aliyə bunun otaq qapısı olmadığını və geniş dəhlizə açıldığına diqqət etdi. Bu zaman həmin qapını açan qız Aliyəyə tərəf gələrək qəfil səsləndi:

- Ay qız, sən Aliyə deyilsən?
- Bəli. -Onun tanış kimi müraciətinə Aliyə rəsmi soyuqqanlılıqla cavab verdi.
- Sən məni tanımadın? Mənəm ey: texnukumda bir partada oturardıq.

Onun bu sözlərindən sonra Aliyə yaddaşını qurcalayaraq qızın sifətini alt və üst şüurunda axtarışa başladı. Onun yaddaşında olan texnikumdakı parta yoldaşı Sevinc əyriburun çirkin bir

qız idi ki, Onun da bu qızla qətiyyən oxşarlığı yox idi. Qiz Aliyənin gözlərini döydüyünü gördükdə qəhqəhə ilə güldü:

-Sən də hamı kimi məni tanımadın. Texnologiya inkişaf edir, dəyişir və bizi də dəyişdirir.Plastik əməliyyat və sən cəmi on gün sonra türklər demişkən fıstıq kimi olursan.

-Salam- Aliyə təəccüblə səsləndi. – əgər səni bu qədər dəyişibsə deməli tibb doğurdan inkişaf edıb.

-Gəl bacı, sən hara, bura hara?-deyərək onu qoluna girərək dəhlizə tərəf çəkmək istədi. Aliyə katibənin də eşidəcəyi bir səslə:

- Müdir ilə görüşməliyəm. Narahat olma burada gözləyərəm.
- Problemin var?

Aliyə cavab verməyə hazırlaşırdı ki, katibə əlindəki dəstəyi yerə qoyaraq ona səsləndi.

-Xanım, sizin adınızı öyrənə bilərəm?

-Aliyə Səfərli.

- Buyurun keçə bilərsiniz

- Mən burdayam-dəhlizin sonundakı otaqda. Getməmiş mənə dəy-Sevinc Aliyəyə əli ilə dəhlizə tərəf işarə edərək gözləmə otağını tərk etdi.

Yarım saatdan sonra bütün icra hakimiyyətinin işçiləri yeni gələn şöbə müdirəsindən danışırdılar. Aliyə müdirin kabinetindən çıxanda Sevinc eynən texnukumda olduğu kimi qəfil onun boynuna sarıldı.

- Ay Vəfasız, bunu bayaq mənə niyə demirdin?

Aliyə cavab əvəzinə çiyinlərini çəkdi. Katibə ona kabinetini göstərmək lazım gəlib gəlmədiyini soruşanda Sevinc yenə qəfilcil it kimi ona sanki sən lazım deyilsən tövrünü edərək Aliyənin qoluna girib

- Gəl canım bacın ölməyib ki, mən göstərərəm.-deyə önəmli adam kimi xoruzlandı.

Aliyə elə o an katibənin üzündəki ifadəyə diqqət yetirmədiyini xatıladı. Artıq gec idi .Sevinc sanki qartal kimi onu dişinə vurub səliqəli bir otağa gətirmişdi.

-Ay qız, bu day-day söhbətidir yoxsa aşq-meşq var xəbərimiz yoxdu?

-Nə?

- Bu da.Bu boyda vəzifəni sənin ala gözlərinə verdilər?

- Mən anlamıram. sən nə deyirsən?

- Yaxşı vaxt keçdikcə açılışarsan onda danışarıq.

- Bəs sən ? Səni bura kim gətirib?

- Onu deməzlər necə ki, sən demirsən. Onu aşkar edərlər

-Eləmi hmmm. –Aliyə fikrə getdi

- Ay qız, kefin pozulmasın deyərəm onsuzda kimsədən gizlətmirəm ki. Sən niyə mənə öz kabinetində yer təklif etmitsən?- Sevinc adəti üzrə yenə gözlənilmədən hücuma keçdi.

-Hə yaxşı, bağışla- Aliyə bunu deyərək kabinetinə göz gəzdirdi. Otaqda kitab şkafı , divan və iki yumşaq kreslo var idi. Divarda prezidentin böyük portreti ilk baxışda insanda ciddiyyət yaradırdı.

- Keç otur – divanı Sevincə göstərdi. Yerlərini rahatlayan kimi Sevinc yenə dil-boğaza qoymadan danışmağa başladı:

- Əvvəl harada işləyirdin?

- Məktəbdə

- Hə qadası, bura məktəbə bənzəməz. Gözəlsən tezliklə ilişəcəksən.

- Sən bayaqdan bu mövzunun ətrafında dolanıb durusan . Nə demək istəyirsən?

- Ərdə olmusan?

- Sevinc sən məni dopros edirsən?

- Yaxşı-yaxşı gedirəm, sən də yeni işinin kefini çattat.

Sevinc bunu deyərək divandan sürətlə qalxaraq qapıya döğru getdi. Aliyə onun getdiyini düşünmüşdü ki, qapı təkrar açıldı və Sevinc başını içəri salaraq demək olar ki pıçıldadı:

-Demə ki, demədi, Səmradan ehtiyatlı ol!

Qapı onun ardınca elə sürətlə bağlandı ki, Aliyə ağzını açıb heç nə deyə bilmədi. “Səmra kimdir? Bu nə çərənliyir? Nə isə bu qız elə texnukum vaxti da çərənçi idi.xeyri yoxdu ha yüz

dəfə plastik əməliyyat etdir türklər demiş can çıxar huyu çıxmaz.” Aliyə bu düşüncələrlə yerindən qalxaraq stolun üstündəki qovluqları araşdırmağa başladı.

Zaman günləri qarnında əritdikcə Aliyə işinə daha da alışırdı. Lazım gəldikcə qəsəbələrə və kəndlərə gedir təlim tərbiyə təhsillə maaqlanır , işini daha mükəmməl etməyə çalışırdı. Işi başını qatdıqca nəinki keçmişi, az qala ətrafı da unudurdu. Bəzən iclaslardakı müzakirələrdən sonra , müdir onu kabinetdə saxlayaraq bəzi məsələlərdə onun məsləhətini alırdı. Aliyə bunun altında heç bir niyyət axtarmadan kabinetdə saatlarla iş müzakirəsinə qoşulurdu. Növbəti müzakirəni bitirib kabinetinə gəlmişdi ki, qapı döyülmədən açıldı. Aliyə başını qaldırmadan:

-Sevinc sən canın yaxamdan əl çək! Yorulmuşam-deyə səsləndi.

- Əlbəttə yorularsan –tamamilə yad bir səs cavab verdi.

Aliyə başını kağızdan qaldıraraq qarşısında müdirin birinci müavini Səmranı gördü. Cəld yerindən qalxaraq:

-Buyurun Səmra xanım, mənə görə qulluğunuz? Nə əziyyət çəkirdiniz çağırsaydınız mən kabinetinizə gələ bilərdim. Buyurun, oturun , oturun-deyə Aliyə canfəşanlıqla müavinə kresloda yer göstərdi.

- Narahat olmayın bir-iki kəlmə sözüm var,deyib gedirəm.

Aliyənin susaraq onu maraqla dinlədiyini görən Səmra təmkinlə sözünə davam etdi:- biz bu idarədə hər kəsin öz yeri olmağına alışmışıq. Sən gələnə qədər də bu belə idi. Sənə öz yerini göstərmək lazımdır yoxsa özün ağıllı uşaqsan?!

- Mən sizin nə dediyinizi anlamıram.
- Aha, deməli savaşmaq istəyirsən?
- Mən anlamıram.
- Sənə üç gün vaxt. Karyeranı toz-duman etmək stəmirsənsə mənimlə söhbət edə bilərsən.

Qapı şaqqıltı ilə elə örtüldü ki, Aliyə elə bildi ki, çeçələ barmağı onun arasında qaldı. Bütün bunlar nə deməkdir? Yoxsa Sevincin çərənlədikləri doğrudur. Aliyə özünü toplayaraq birtəhər telefonun dəstəyinin qaldirdı. Az sonra Sevinc özü demişkən qeybət çantasını qoltuğunda onun qarşısıda peyda oldu.

- Hə bacı, deyəsən bizim komandaya qoşulmaq qərarına gəldin. Hə qoy bir təxmin edim: indicə Səmra sənə bir araba söz dedı.

- Sən haradan bilirsən?
- Yat bala, yuxun şirin olsun.
- Sevinc, sən allah xatirinə mənə nələr olduğunu başa sal.
- Allah xatirinə demə! Mənim kimilərin yanında şeytanın adı daha çox çəkilir.Sən də qoşulmusan yoxsa bunlar söz-söhbətdir?
- Hara qoşulmuşam? Azz ,nə deyirsən ? Biri gəlib üç gün vaxt verir , biri komandasından danışır. Sənin komandan kimlərdir? Birinci bunu mənə izah et!- demək olar ki, hövsələdən çıxan Alıyə çığırdı.
- ........... komandası. Sən bunu eşitmək istəyirdin?
- Nə ? Sən sən........
- Hə mən! Elə bilirsən bütün bu plastik əməliyyatlar, lükş yaşayış, bahalı paltarlar göydən düşüb?! Sən özünü niyə xamlığa vurmusan? Hamı danışır ki, sən müdir ilə gəzirsən. Səni bura müdir gətizdirib. Sən..
- Sən nə danışdığını bilirsən? O, mənim atam yaşdadır.
- Bu lap əla çünki elələri gənc məşuqələri üşün daha çox pul xərcləyirlər yəni sənin etdiyin bir masaj...
- Kəs! Səfehləmə!
- Mən gedə bilərəm.
- Yox, ona görə demirəm sadəcə olaraq iyrənc söhbətdir.
- Mən bu yaxınlarda sənin ərinin qəzada öldüyünü eşitdim . Sənin ürəyin heç kişi istəmir?
- Hər halda o qocanı istəmirəm- Aliyə Sevincin zarafatına zarafatla cavab verərək ortalığı yumuşaltdı.-Səmraya nə dəxli?
- Hə, gəldik mətləb üstünə. Səmra iki ildir müdirin məşuqəsidir.
- Bəs başçının arvadı yoxdur?
- Deyilənə görə arvadı onun Bakıdan sonra bu iyrənc rayona təyin olunduğunu eşidəndə bura gəlməkdən imtina edib.Səmra qorxulu adamdır.
- Mənə nə edə bilər ki?
- Bunu təsəvvür etməsən yaxşıdır.

Sevinc gedəndən sonra Aliyə vəziyyətin bəlkə də bu qədər şişirdilməsini gülməli hesab etdi.Səmranin hədələrini və sevincin xəbərdarlıqlarını beynin küncündə bir qovluğa ataraq unutmağa çalışdı.İdarə dedi-qodudan çalxalanır, Aliyə isə özünü xəbərsizliyə qoyaraq işinə davam edirdi. Özünə verdiyi ən böyük təsəlli: “doğruya zaval yoxdur” sözləri idi. Sevinc ona yeni tutduğu evi də tərk etməyi də məsləhət görürdü. “Boşboğaz! Bu qızın işi –gücü yoxdur?! Qəfildən gəlir ürəyimi qopardır sonra gəldiyi kimi yoxa çıxır . İtqızı elə bil

zəlzələdir. Bəlkə də bu qız bu idarənin simvolu kimi qapıya vurulmalıdır. Canlı emblem. Şotlandiyanın qanqal emblemi kimi. Elə hey adamın əl-ayağına dölaşıb çır-çır çığırdır".Aliyə ona verilən üç günlük müddətdə Səmradan daha çox sevınc haqqında düşündü. Sevincin pis yola düşmək məsələsini də onun kobud bir zarafatı hesab etdi. Həftənin növbəti iclasından sonra hamı iclas zalını tərk etdi. Aliyə qovluqları toplayaraq kabinetdən çıxması onun ləngiməsinə səbəb oldu. Yorğun halda otağına girəndə Səmranın kresloda oturaraq dırnaqlarını manikürlədiyini gördü.

-Siz iknci dəfədir ki , mənim otağıma icazəsiz girirsiniz. Səmra xanım, lütfən yenə tapmaca kimi danışmağa başlayacaqsınısa buranı tərk edin.

- Bu dəfə hücuma sən keçirsən? Nə olar. Qalx get, ərizəni yaz, işdən çıx!

- Mən sənin kimi fahişələrin sözü ilə oturub duran deyiləm. Rədd ol mənim otağımdan!

- Xoşuma gəldin. Qəm yemə! Bu dediklərini heç ay keçməz sənə yedizdirərəm. Haydı, artıq soyuq müharibə başladı.- səmra əlindəki manikür alətini nəfəsi ilə üfürərək cibinə qoydu və sakit şəkildə otağı tərk etdi. O gedəndən sonra Aliyə elə bildi ki, başını kəlbətinin arasına alıb sıxırlar. Qalxıb bir dərman atmaq istədi lakin yadına düşdü ki, çörək yeməyib. Çantasını yığışdıraraq kabineti tərk etdi. "Evə gedib bir az dincəlsəm yaxşıdır.Yəqin müdir bu qancığa üz vermir bu da günahı məndə görür . bəlkə müdirin məndən doğurdanda xoşu gəlir. Allah uzaq etsin. Mən kiminsə məşuqəsi.... Mən heç vaxt buna razı ola bilmərəm. Ah, kaş bu Səmra məni günahlandırmadan öncə mənim içimi görə bileydi. Görəsən, o mənə nə etmək fikrindədi? Hi hi .... yox bir" yadına düşən məsələyə gülümsədi "mən də Dəniz Baykal deyiləm ki, kaset olayım olsun. Gör nə səfeh şeylər fikirləşirəm." Fikirlərinin içində qəfil maşın vıyıltısı eşitdi. O an özünü yolun ortasında və bir qara rəngli maşının ulayaraq ona tərəf gəldiyni gördü. Artıq bitdi xəyalından keçmişdi ki, maşın yanından dövrə vuraraq Aliyədən iki metr o tərəfdə saxladı. Lakin Aliyə bunu görmədi. Ayılanda başının üstündə düran tibb bacısı qolundakı iynəni çıxarırdı. Aliyəyə təşvışə düşməsin deyə ona tez qan təzyiqinin düşdüyü və huşunu itirdiyini bildirdilər. "Məni bura kim gətirdi" sualına isə bayaqdan kənarda səssiz duran bir gənc cavab verdi.

- Aliyə xanım, mənim maşınım sizə dəyməmiş siz artıq huşunuzu itirmişdiniz. Allaha şükürlər olsun ki, yıxılanda çantanız başınızın altına düşdü və beyniniz zədələnmədi.

-Siz mənim adımı haradan bilirsiniz?

-Sizi buranın həkimləri tanıdı və mən də o vasitəylə. Əgər icazə versəydiniz sizi evinzə apardardım

-Özüm gedə bilərəm – Aliyə çarpayıdan qalxmaq istədi lakin o an yeriməyə halı olmadığını anladı-hə aparin . işinizə mane olmuram?

- Nə danışırsınız bunu özümə borc bilirəm.

Yol boynca gənc adının Cəmil olduğunu, rayona Bakıdan yeni gəldiyini və bir neçə gündən sonra işinə başlayacağını həvəslə bildirdi.

- Əslində Nərgizli qəsəbəsində yaşayiram amma yəqin ki işimlə əlaqədər olaraq rayona köçməli oldum.
- Hmm . Mənim bacım da o qəsəbə də yaşayır.
- Çox gözəl.

Aralarındakı bu qısa söhbətdən sonra hər ikisi susdu. Yalnız Aliyə onun sürəti getdikcə azaltdığını görərək ünvanı bilmədiyini anladı:

- Zəhmət olmasa düz sürün . Parkın  yanında tikilmiş yeni binalara.

Aliyə maşından düşdükdə Cəmil:

- Əgər yalnış anlamazsanız sizdən telefon nömrənizi almaq istəyirəm.

Aliyə bunu necə qızararaq istədiyinə gülümsədi.Telefon nömrəsini verdi və bu telefon nömrəsi həftə keçmədi ki, onların eşq poçtalyonuna çevrildi. Aliyə üçün may ayı bir başqa cür gəldi. Sanki ətrafinda kəpənəklər uçuşurdu. Gözünə heç kəs görünmürdü.  Ona elə gəlirdi ki, sanki Cəmilə qədər yaşamayıb. Cəmilə qədər ki , həyat cizgisi ürəyi dayanmış insanın ürək kardioqraması kimi dümdüz , onunla tanışlıdan sonra isə sinəsindəki qəlb döyüntüləri enişli-çıxışlı oldu. “O, məni ncə varamsa elə qəbul edir” – Aliyəni ən çox şad edən də bu idi.Münasibətləri genişləndikcə sevgiləri aralarındakı sərhədləri zorlayırdı . Əvvəllər onu qapıya qədər ötürən Cəmil indi hər dəfə dəqiqələri artıraraq içəri girir , çayı ya da əlində gətirdiyi müxtəlif içkiləri Aliyə ilə birlikdə içərdi. Aliyə onun qarşısında qolubağlı əsirə dönmüşdü. Bəzən bunun düzgün olmadığını Cəmilə deyir , Cəmil isə cavab olaraq onu qucaqlayıb hərarətlə bağrına elə basırdı ki, Aliyənin xöşbəxtlikdən az qala nəfəsi kəsilirdi. Bir axşam nə Cəmil nə də Aliyə ayrılmaq məramında olmadılar. O gecə Aliyə həyatının ən füsünkar günahını etdi.  Səhər ayılanda etdiyi işdən utanaraq cəld geyinməyə başlasa da Cəmil buna imkan vermədi.

- Sən mənim həyatımsan.

- Sən də mənim üçün eləsən.- Aliyə boğularaq cavab verdi və ardınca hönkürüb ağladı.
- Sənə nə olub ? Niyə ağlayırsan?
- Heç nə . heç nə . Dur çıx get.

Cəmil cəld geyinə- geyinə – sənin xətrinə dəyəcək pis hərəkət etmişəm?- söylədi

Aliyə susdu. Aliyə dilini udmuş kimi üç gün özünə gələ bilmədi. Elə bilirdi ki, etdiyi işi hamı bilir. Iş yerində kabinetdən çıxmır , Cəmilin aramsız etdiyi zənglərə cavab vermir, atdığı mesajları oxumadan silirdi. Ürəyinə pis bir qorxu dolmuşdu. Axşam iş vaxtı bitdikdə zorla qalxıb idarədən çıxdı. Təzəcə binadan aralanmışdı ki, Cəmilin qara mersedesı qarşısını kəsdi. Cəmil cəld maşından düşərək arxa qapını açdı və Aliyəni göstərdiyi müqavimətə baxmayaraq maşına otuzdurdu.

- İndi mənə de görüm nə olub?
- Vicdan.
- Mənim haqqımda nə isə eşitmisən?
- Heç nə .
- Onda vicdanı yola vermək olar.
- Demək asandır.

Aliyə maşını idarə edən bu adama baxır və təəccüblə “ necə oldu ki, mən hər şeyə bu qədər nəzarətimi itirə bildim?! Sanki hər şey kənardan , məchul bir qüvvə tərəfindən nizamlanır və məni harasa yönləndirir. Bax, indi mən bu adamın maşınında nə gəzirəm? Içimdə bu mənə zövq verir, beynimdə isə .... bunu özümə etiraf etməyə belə qorxuram”

Cəmil Aliyənin gücsüz etirazlarından zövq ala-ala yenə gecəni başgiçələndirici söhbətlərlə yarı etdi. Birdən Aliyənin düz gözlərinin içinə baxaraq:

- Böyük bir səhv etsəm məni bağışlayarsan?
- Baxır səhvə. Nəyə görə soruşursan?
- Unut getsin . Elə -belə dedim. Qoy qalxım dostuma zəng vurum bizə içki alsın gətirsin.
- Lazım deyil, Cəmil . Sən yanıımdasan, bu mənə yetər.
- Yox, yox lazımdır.

Cəmil zəng vurdu. Aliyə onun kənardan nə isə sifariş verməsinə öyrəşmişdi. Aliyə yataq otağına keçərək:

-Dostun, yəqin içəri girməyəcək?

- Hə, arxayın ol.

Aliyə sərbəst şəkildə qara gecəliyini geyinib qonaq otağına keçdi.

-Ay mənim kraliçam,....- Cəmilin sözünü qapının bərk döyülməsi kəsdi. Aliyə özündən asılı olmayaraq əlini gecəliyinin yaxasına apardı. Cəmil Aliyəyə fikir vermədən qapını geniş şəkildə açdı

Içəri bir bir kişi ardınca isə Aliyəyə çox tanış sifəri olan cantaraq bir qadın girdi. Onların içəri girməyi ilə həmin qadın Cəmilin üstünə atılıb çığırmağa başladı:

- Bircə bu qalmışdı. Bircə bu qalmışdı. – dayanmadan çığırırdı.

Aliyə elə bil on min vatlıq elektrik məftilinə yapışmışdı. Nə içəri-yataq otağına keçə bilir, nə də bu adamlar kimdir soruşa bilirdi.

- Mən səni tanıyıram – cantaraq qadın Aliyəyə yaxın gəldi. Ondan gələn qoxu Aliyənin yadına o məşum günü – xəstəxanadakı günü yadına saldı.Qadın yenə natəmiz qoxusu onun qarşısında idi. Ona elə gəldi ki, sanki bətni yenidən yarılır və minlərlə qanlı körpə ayaqlarına ətəyinə dırmaşır.
- Siz kimsiniz ? Mənim evimdə nə edirsiniz?- olan var gücü ilə bağırdı. Lakin ağzından çıxan səs öz qulağına ciyilti kimi gəlib çatdı.
- Pozğun, sən kimin üzərinə qışqırırsan? Camaatın ərini əlindən almağın yetmir , hələ bir dilin də var? Hökumət də səni elin təlim –tərbiyəsinin başçısı qoyub. Sən isə əlindən gələni beş qaba çəkirsən?- qadın irəliləyərək Aliyənin yaxasından yapışdı. Aliyənın heç nəyə qüvvəsi qalmamışdı. Cəmil isə sanki heç nə olmamış kimi kənardan baxırdı. O gecə aliyəni gecə köynəyində görməyən bəlkə də bircə anasıgıl oldu. Bu dava –dalaşın içində hardansa polis də peyda oldu. Hamı bir ağızdan danışırdı. Heç kəs bir- birini dinləməsə də nəyi isə qarşılıqlı izahat verirdilər. Aliyə sürünərək yataq otağına keçdi birtəhər paltarını tapıb əyninə geydi. əl atıb çantasını götürdü. "Tez.tez buranı tərk etmək lazımdır yoxsa bunlar məni linç edəcəklər."-deyə düşündü Camaatı aralayıb önə keçdikcə müxtəlif sözlər eşidirdi:

  -Suyun lal axanı...

  -Demə-demə

  -Ailəli adamla gəzirmiş.

  -Yoldaşı anası ilə gəlib tutub.

Aliyə olan –bitəndən dahada tez qurtulmaq üçün addımlarını yeyinlətdi lakin qəfil qarşısında bitən polislər buna aman vermədilər. Onlar ictimai asayişin pozulması barədə Aliyənin

ifadəsinin alınmasının vacibliyinin bildirdilər. On dəqiqə keçməmiş Aliyə və Cəmilin ailəsi polis maşınında polis idarəsinə gətirildilər. Aliyə bundan lap başını itirdi. Dayanmadan özü-özünə "anamgil, anamgil, anamgil " deyə pıçıldayırdı. içində yaranmış uçurumda bircə dənə bu söz qalmışdı. Elə hey bu söz ətrafında dolanıb dururdu. Çantasından gələn telefon zəngini polis nəfəri ona yaxınlaşaraq bildirdi. Aliyə əli əsə-əsə telefonu çıxardı. Eşitdiyi səs onu daha da heyrətə saldı:

- Xoşuna gəldi? Səni bilmirəm mən çox zövq aldım . Əlvida fahişə . Bu da sənin karyeranın sonu. Səmradan sənə bir qulaq sırğası: tanımadığın salonda qumar oynama!- Səmranın səsi uzaqlaşaraq qaranlığa gömüldü.

Qaranlığın heç bir ulduz görünməyən bətnində isə Aliyəyə təsəlli olacaq bir işartı belə görünmürdü.

-

.

Mxitar Qoş

İşdən yenicə qayıtmışdım ki, yaxın rəfiqələrimdən biri zəng vurdu. O, əyalətə gəldiyini və məni görmək istədiyini bildirdi. Planlaşdırdığım işlərin yarımçıq qalmasından narazı olsam da, onu yenidən görmək istəyi hər şeyi üstələdi. Həmişəki kimi glomour qadın təsiri bağışlayan, rəfiqəm yenə öz tərzindən geri qalmayaraq, bütün gözəlliyi ilə on beş dəqiqə sonra qarşımda idi. Uzun görüşmə və salamlaşma paradından sonra qarşı- qarşıya oturub çay içməyə başladıq.

- Sənin bu rayonda necə yaşadığını hələ də ağlıma kəsdirə bilmirəm. Bakını – o gözəl paytaxt şəhəri at, gəl bu "truşoboda" yaşa. – rəfiqəm dodağını büzərək üzümə baxdı.

- Bura “truşoba” deyil . Əyalətdir, rayondur və vətəndir- mən tam cidiyyətlə rəfiqəmə cavab verdim.
- Patriotka –rəfiqəm gülümsünərək yenə eyni fikrin üstündə köklendi. – sənin kimi ziyalı burada itib- batır. Mən yenə deyirəm:gəl Bakıya! Sənə yaxşı şərait yaradarıq.
- Bakı – daşdan şəhər! Ora mənim ilham pərimi qaçırdır. əgər bu xalqdan yazmaq istəyirsənsə , o xalqın işində yaşamalısan.
- Qıraqdan görünmür?
- Adaya xəritədən baxmaq ayrı, adada yaşamaq ayrı.

Rəfiqəm çayını qurtumlayaraq, əlindəki qələm ilə dediyim sonuncu cümləni dəftərçəsinə qeyd edərək dedi:

-Qəşəng cümlədir.

-Təşəkkür. Hə, səni bu “truşoba” dediyin yerə hansı rüzgar atdı?

-Eh.. bu jurnalistika deyilən sənəti həəə........- o qaşlarını çataraq davam etdi- mənə get rayondan həqiqətləri gətir deyərək yolladılar.

- Yəqin həqiqəti icra hakimindən öyrənəcək deyilsən?!..- mən yarıroniya ilə rəfiqəmə dedim.

- Əlbətdə ki. Həqiqət düzdə, yalan ortada. Həqiqəti necə tapacam ,bax ,bu çəin məsələdir.

- İstəsən mən sənə kömək edə bilərəm.

- Necə edəcəksən? Çox maraqlıdır.

- Heç səni bir nəfərlə tanış edəcəm . O da sənə rayonun sosial, iqtisadı, mədəni və mənəvi tərəflərini çox gözəl izah edəcək.

- Bu sənsən?- rəfiqəm gözünü belə qırpmadan üzümə maraqla baxdı.

-Xeyr. Mənim kimilər bu rayonun Sabir demişkən intiligentləriyik. Əlcəkli pişik siçan tuta bilməz.

-Vou, Vou, - rəfiqəm ingilis sayağı içini çəkdi.- Çox maraqlıdır. Kimdir bu adam ?

- Mxitar Qoş.

- Mxitar Qoş?! Mxitar Qoş alban tarixçisi deyil? Bəlkə də öldüyündən min beş yuz il keçir.

- Hə. Amma mən sənə canlı Mxitar Qoş versəm?!.. Nə edərsən?

- Bağrım yarıldı.. Tez elə!

- Səbirli ol! Naharımızı edək, mən də onu tapım görüm haralardadır..

Rəfiqəm peşəsindən irəli gələn maraqla yeməyi burnuna, yoxsa ağzına belə yediyinin fərqinə belə varmadan ,sürətlə naharı başa vurub, yalvarıcı nəzərlərlə üzümə baxdı.

Nahardan sonra onu bazarın qarşısına apardım. Bura daim günəmuzd işləyən fəhlələrin yeri idi. Iki dəqiqə keçməmiş rəfiqəmlə tanış edəcəyim adam qarşımızda peyda oldu. Rəfiqəm onun başındakı kommunist sayağı kepkaya, gözündəki qara eynəyə və cins şalvarına baxaraq ümidsizcəsinə üzümə baxdı. Mən isə tövrümü pozmadan:

- Hə qardaş, əgər bizə yarımsaatını qurban versən sənə bütün media adından təşəkkür edərik.
- Canla başla.- deyərək, O razılaşdı.

Biz rayonun  yeganə parka oxşayan yerinə yollandıq. Bir çaynik çay sifariş edib kölgəyə bənzər yerlərin birində oturduq.

- Qardaş nə işləyirsən?- rəfiqən nəhayət bayaqdan onu boğan marağının  ipini açıb boşladı.
- Fəhlə
- Fəhlə?!- rəfiqəm az qala qışqıraraq təkrarladı.
- Hə bacı fəhlə. Sən bilmirsən fəhlə kimdir?  Səhərlər bir tikə güzəran üçün maşınlara doluşub nə iş gəldi görməyə hazır olan insan  kütləsinə fəhlə deyilir.

Onun bu cavabından sonra kefi açılan rəfiqəm – Amma qara eynəyin heç sənətinlə uyuşmur- onu cırnatmağa çalışdı.

- Gözlərim xəstədir. Günəş işığı çox parlaq olduqda görmürəm. .

-Harada yaşayıran?

- Ele de burada yaxınlıqda: pudrası özündən olan kəndə.

- Evlisən?

- Hə . Məni hər gecə pol ağacına qonaq edən Son A ilə

-Sona?   Adı Sonadır?

- Yox ,bacı. Son A, yəni sonuncu aldanış. Yəni, evlənib dadını görən bir daha evlənməz . Nə isə bir səhvdir eləmişik.

- Güzəran necədir?

Ay bacı, güzərandı da ...- o səsini uzadaraq davam etdi.- Allah nə göndərdi qurumunda çalışıram.yəni nə iş tapsam . Getdim özümə sosial təminat düzəldəm, onu da şərtnən verdilər. Dedi ki, altı ay mənim, altı ay sənin. Üstündən altı ay keçib kartımı qaytarmırlar. Mənə dedilər ki, rayonda hamı Prezidentin arvadına yazır, işi düzəlir. O de.. bizim qonşuda biri yazdı: on gün sonra kərpic evini söküb, daşdan yeni ev tikdilər. Yox! Mən bir də, bu camaatın sözünə aldanan deyiləm. Götürüm yazım, məni tutsunlar basınlar içəri ki, o boyda adamın həyat yoldaşına məktub yazmısan. Mən də getdim, kişi kimi prezidentin özünə məktub yazdım. Onda da başıma iki iş gəldi: biri məktubdan əvvəl , biri məktubdan sonra.

- Hə nə oldu?- rəfiqəm səbirsizliklə soruşdu.

- Keçmişdə mirzələr var idi, indi də kompyuterdə yazan mini yubkalı qızlar . Mən də getdim bu salonların birində dərdimi dedim.. O qızlardan biri yerindən belə tərpənmədən, boyalı dodaqlarını oynada-oynada mənə min beş yüz simvol dedi. Mən də bu nə deməkdir soruşduqda, üstümə hirslənərək – get yaz kağıza gətir – dedi.Getdim yazdım gətirdim. Mən hərfləri sayıram elə dediyi qədər olur, qız sayır artıq çıxır. Sən demə nöqtə də hesaba girirmiş Həyatımda ikinci dəfə nöqtə ilə başım bəlaya düşdü. Bir dəfə də səkkizinci sinifdə oxuyanda olmuşdu. Yeni rus dili müəlimimiz gəlmişdi. O bizə hey, adı nədir?- deyirlər yazırsan eee- o kömək istəyən nəzərlərlə üzümüzə baxdı.Rəfiqəm tez – İmla – deyə səsləndi.

-Yox –o etiraz etdi.

Mən sakit şəkildə- diktant- dedim

- Hə, hə diktant – O dedikdə, rəfiqəm yenə məğlub nəzərlərlə üzümə baxdı
- Hə, bu müəllim bizə elə birinci dərsdə diktant yazdırdı. Hər cümlənin sonunda toçka deyir, mən də bunu dəftərə yazırdım . Sən demə ,bu nöqtə imiş. Məni direktorun otağına sürüklədilər və müəllimi ələ saldığıma görə valideynlərimi məktəbə çağırdılar. Mənə yalnız direktorun otağında çatdı ki, toçka nöqtə imiş. Hə, birdə məktəbdən on iki il sonra mən nöqtənin də hesaba alındığını öyrəndim. Nəhayət qızla dalaş- deyişikdən sonra məktubu yolladım. O min beş yüz simvolla dərdimi nə dərəcədə anlatdım bax orasını bilmirəm.Bu bəladan yenicə qurtulmuşdum ki, evə gələndə yolda intiligent Qiyazı gördüm. Ona məktubu göndərdiyimi dedim. O isə mənə korrupsiya aradan götürülüb, sənin məktubuna cavab olaraq səni də, o pensiya idarəsinin müdirini də tutacaqlar. Indi qılçam əsir, deyirəm kaş məktubum yolda itə, gedib yiyəsinə çatmaya.....
- Sənin əsl adın nədir ki, sənə Mxitar Qoş deyirlər?- rəfiqəm müsahibindən soruşdu.

- Mənim adım Muxtardır. Orta məktəbdə oxuyanda tarixi çox sevərdim. Bizim bir tarix müəllimimz var idi. Rəhmətlik, hey , Mxitarın erməni olmadığını bizə sübut etməyə çalışırdı. Mən də onunla mübahisə edirdim . O, mənə neçə il əlləşdi, almanla albanın fərqini izah edə bilmədi. O qədər qarmaqarışıq tayfa adı çəkərdi ki, biz bir şey anlamazdıq. Tarixdən yeganə yaddaşımızda qalan Mxitar Qoş oldu , onu da uşaqlar mənə ayama etdilər.
- Eşitidiyimə görə rayonda elektrik fasilələrlə verilir. Sizin kənddə də belədir? -Rəfiqəm dəftərçəsinə qeyd apara-apara soruşdu.
- Hə. Bacı, bizdə bəlli saatlarla işıq olar. Heç rayonda özünü toka verib öldürdü xəbərini eşidə bilərsən? Eşitməzsən çünki volt həmişə aşağıdır, adam öldürən deyil. Bir gecə təcili yardıma bizim uşağı gətirmişdik . Zəhərlənmişdi , qusurdu. Təcili yardımda oturanlar şam tapmadılar və bizdə gəldiyimiz maşının işığını içəri saldıq balacaya iynə vurdular. Yox! Bizim prezidentin bunlardan xəbəri yoxdu, olsa belə qoymaz.
- Rəfiqəm cəld onun sözünü kəsdi:- Bu orta əsr inancıdır: Krala inam.
- Yox bacı biz vallah bircə Allaha inanırıq.
- Bizdə belədir də sən başqa söz deyirsən, səni yalnış anlayırlar. Halbuki, hamımız eyni dildə danışırıq. – rəfiqəm üzünü mənə tutaraq sanki bu fikrə münasibət bildirməmi istədi.
- Ən yaxşısı, özünü bilməməzliyə vurmaqdır. Səhv etmirəmsə, elə, sizin kəndə olub-Mən Muxtara müraciətlə dedim. “Yenə sən savadlı olarsan” məsələsi..
- Hə bizim kəndə olub- Muxtar gülərək danışmağa başladı- kəndimizdə üç nəfər kəndin dəlisovunu götürüb, gedib bankdan kredit götürülər. Pulun ödənmə vaxtı çatanda adam pulu təbii ki ödəyə bilmir. Polis, məhkəmə ,adam hamıya tutuquşu kimi eyni sözü deyir: “başına dönüm yenə sən savadlı olarsan”.axırda hakim hirslənərək rədd eliyin bu dəlini burdan -deyərək işi nəticəsiz bağlayır...
- Rəfiqəm qəhqəhə çəkərək-Azərbaycan sənin timsalında yaxşı bir aktyor itirib-dedi.
- Yox – Muxtar cəld etiraz etdi.- Azərbaycanın ən son ehtiyac duyduğu adam mənəm. Indi Azərbaycanın Remboya, Polad Ələmdara ehtiyacı var.

Biz parkdan ayrılanda rəfiqəm dərin düşüncələrə dalmışdı. O, mənimlə sağollaşıb ayrıldıqdan bi iki addım sonra geri döndü və dedi:

- Truşoba sözünə görə üzr istəyirəm . Əfv olunma ehtimalım var?
- Ürəyin buz kimi olsun – Mən onun mənə tərəf uzatdığı əlini sıxdım.

## OĞULLARINIZI ÖLDÜRÜN

Sən bilirsən bu nə deməkdir? Bu sadəcə olaraq başındakı papağı yerə çırp və yox ol deməkdir.

Qardaşının səsi qaranlıqda çaxan şımşək kimi  beynində əks səda verdi.

Ayaqlarını sürüyə -sürüyə yola düzəldi. Dünya sanki üstünə yıxılmışdı. Nəfəs alması belə ona inandırıcı gəlmirdi.

- On  il sonra, on il sonra sizi muştuluqlamaq mənə qürürdu. Həyat yoldaşınız hamilədir.- həkim gülümsünərək ona dünyanın ən gözəl sözlərini dedi.
- Qurban kəsməlisən . duaların qəbul olunub. On il sonra ata olmaq nəhayət sənə də nəsib oldu. – anası qırışmış əllərini göyə qaldırıb şükürlər etdi.
- Allah  nə xeyirdisə onu etsin- atası yenə müəmalı diləklərindən etdi.
- Uşaq xəstədi varımızı –yoxumuzu satdıq onun üçün. Həkim bizə yazığınız gəlsin- arvadı soyuqdan büzüşə-büzüşə  beş il sonra həmin xəstəxananın dəhlizindı bir başqa  həkimə yalvarırdı..
- Allah sən mənim canımı al! Balama dəymə.- dodağının altında dayanmadan pıçıldayırdı.
- Allah nə xeyirdisə onu etsin- yenə atası dillәndi.

Keçmişin dodaqlarından tökülən sözlər sanki  addımladığı  yollara tökülürdü.

-Məsmənin evinə üç dənə geni pozuq  gəlib.

-Gecələr Tbilisi prospektində olurlar.

- Ay camaat, qeyrətiniz namusunuz olsun. Elələrinin bizim məhəllədə nə işləri var.

- Məsmə, imanına it bağlayım çıxart at onları . Gorbagor olacağın vaxtda qarğatma bu məhəlləni dalınca

Axşam çayxanadakıların, gündüz arvadlrın saqqızına çevrilmişdi təzə gələnlər. Qeybət ,söz-söhbət pis qoxu kimi   məhəlləni başına götürmüşdü. Elə o günlərdə öyrənmişdi Cəlal belə adamların da mövcudluğunu. Öyrənmişdi və dəhşətə gəlmişdi ki, sən demə kişi də qadın kimi geyinib yolda dura bilərmiş.Fikir başını o qədər qatmışdı ki, göydələndən az qala yerə yuvarlanacaqdı.  Şəkk eləmişdi Allahın birliyinə.Bu qədər pisliyi yaradıb yeri üfunətə basan Allaha üsyan etmişdi içində.

Sonra gedib gizlicə baxmaq istəmişdi  bu varlıqlara . Öz fikrindən elə utanmışdı ki, sanki bunu içində duyub bilən olmuşdu. Sonra elə içindəcə basdırmışdı ki, bu duyğunu bəxtindənmi bəxtsizliyindəmi  gecələrin birində Məsmənin evinin qabağında onlara rast gəldi. Qadından fərqlənməyən bu varlıqları bircə səsləri ələ verirdi. Kobud səslə bir- birilə zarafatlaşan bu cütlük

Cəlala fikir vermədən yolun əks istiqamətinə düşüb getdilər. Onlardan küçənin ortasında bir ətir qoxusu qaldı ki, bu Cəlalın çox pis şəkildə ürəyini bulandırdı. "Bunları kim əkib, kim doğub?! bunların hansı şeytanın övladıdırlar?! Lənət sənə kor şeytan"-deyərək Cəlal bütün nifrətini onların getdiyi yol istiqamətində tüpürdü.

Evə gəldiyində həmişəki kimi fəhlə paltarlarını girişdə soyunub idman paltarını geyindi. Içəri zala keçmək istəyirdi ki, oğlu yanından ötərək salam verdi və tələsik öz otağına keçdi. Bayaqkı tanış ətir qoxusu ilan kimi Cəlalın burnuna- boğazına dolandı. "Əşi, ətir ətirə oxşayar yəqin ki, bayaqkı qoxudur hopub bədənimə. Murdarların zəhərli qoxuları mənimlə eviməcən gəlir.

- Onlar neçə olurlar?- iş yerində telefondan internetdən başı çıxan cavandan ürəksiz-ürəksiz soruşdu.
- Ay dayı, nəyinə lazımdı. Onlar parazitdi harada gördün öldür yəni.
- Yox ey bala elə soruşuramda de! Utanma daha ayıfdan keçib. Odur ey televizırda da danışırdılar. Amma üssüörtülü. Yenə bir şey annamadım.
- Ay dayı bunlar nöbənövdi. Ən pisi budur da. Qiz kimidilər.oturuşdarı duruşdarı itib də,… adamlıqlarını itiriblər. Şeytana uyublar da. Nə isə, ağzımızı murdarlamayaq.

Axşam yenə və evə dönəndə həmin ətir qoxusu otaqların hamısında idi. Arvadı həmişəki kimi gözlərini televizordakı seriala elə həyacanla dikmişdi ki, elə bil atılıb ora girəcəkdi. Instiktiv şəkildə günəbaxan tumlarlını aramsız çırtlayır və tumun qabıqlarını isə bəzən qarşısındakı qaba bəzən də yerə tökürdü.

- Uşaq hardadı?
- Az sənnənəm gədə hardadı?
- Həyətə çıxdı- avadının səsi serialdan gəlirmiş kimi əsrarəngiz çıxdı.

Cəlal neçə illik vərdişini pozdu. Elə çirkli fəhlə paltarında həyətə çıxdı. Ürəyi heç yaxşı şeylərin olacağını demirdi. Həmişə beləydi. Pis şeylər olanda ürəyini bir qaramat basardı. Bu dəfəki qaramat deyəsən başqa idi. Qeyri –iradi Məsməgilə tərəf irəlilədi. Bura nə üçün gəldiyini belə anışdirmamış, içəridən gülüşmə səslərini eşitdi. Urəyi quş kimi sinəsində çapalayırdı. Başında bir arpa dənəsi boyda da olsa ağıl qalmamışdı. Istədi dönüb geri qayıtsın. Lakin Məsmənin həyətindən gələn tanış səs onu yerinə mıxladı.Geri dönüb taxta hasarın yarığından içəi baxdı. Bu o idi. əynində qısa yubka var idi. Cəlal az qala hasara yapışdı. Bir dəqiqəmi, yoxsa saatlardır dayandığını anışdıra bilmədi. Geri- geri addımlayıb qaçmağa başladı. Ta qardaşının evinə qədər qaçdı. Nə bir taksi saxlmaq nə də avtobusa minmək gəlmədi ağlına. Üstünün sementi, tozu tökülə-tökülə qaçdı .

- Hər şeyim sənə fəda. Nə istəyirsən alım.
- Bircə dənə oğlun var. Qa deyəndə ət ver qu deyəndə su.
- Lap gecə də işləyərəm, təki sən yaxşı ol
- Saşdarını kəsdir məjnuna dönmüsən.
- Belə moddadı…….

Bütün olub keçənlər acı –bağıraq kimi yol boyunca beynində uzanırdı. Əslində hər şey apaçıq ortada imiş, mən görməmişəm

Gecəyarı evə döndü. Arvadı elə divandaca, əlində pult mürgüləmişdi. Cəlal ona fikir vermədən oğlunun yataq otağına keçdi. Elə o an bu otağa illərdir keçmədiyini xatırladı. Bu illərdə yalnız dəyirman rolunu oynadığını anladı. Elə hey pul üyütmüşdü. Yaşamaq üçün vəsait. Otağı yad kimi nəzərdən keçirdi. Bu gəncin otağında nələr yox idi: pariklər dodaq boyaları yerə atılmış qara çulgilər.Cəlal indiyə kimi oğlundan hansı futbol komandasını tutduğunu belə soruşmadığını xatırladı. Oğlunun mışıl-mışıl yatan bədəninə baxdı. Bu onun oğlu ola bilməzdi axı. On ildən sonra qurban – səna ilə tapılmış oğul. Uğruna canlar fəda edilməli oğul. Jurnalitika fakültəsinin qırmızı diplomlu məzunu……….

Həyatının iyrənc bir yalanın üzərində qurulduğunu anlayanda əti ürpəşdi. Arvadından başlayaraq zəncirvari  hər kəs susmuşdu. Cəlal bu gün öyrəndiyi həqiqəti bağrına basaraq oğlunun çarpayısınn ayağına çökdü. O ki var səssizcə ağladı. Gözlərini yaşını belə silmədən

sürətlə dönüb otaqdan çıxdı. “ya indi ya heç vaxt” – pıçıldayaraq mətbəxə cumdu. Əlinə ilk keçən qiyməkeşi qapıb geri döndü. Bir dəqiqə sonra əlinə balıq kimi çapalayan balasını qəssab kimi doğradı.

Əlindəki qiyməkeşi polislər belə zornan aldı. Üzü-gözü qan içində idi. Həyətdən çıxarılanda Məsmənin qapısının qarşısında geni pozuqları görəndə içini acı bir təəssüf hissi bürüdü. Onları da öldürmədiyinə təəssüfləndi. Polis maşınına mindiriləndə qəfil bir gənc bitdi qarşısında. Polisləri itələyərək ilan kimi fısıldayaraq onun yaxasından yapışdı və dedi:

sən onu öldürdün.sən bir dühanı öldürdün.elə bildin, elə bildin geydi o…… yazı yazırdı bədbaxt onlardan……….

Peşmançılıq

Kəndə girəndə, yenə həmişəki qorxunu hiss etdi. Istədi maşını döndərib geri qayıtsın. Payızın yoluşdurub çılpaq buraxdığı ağaclara baxa-baxa, yenə irəliləməyində davam etdi. Yox, getməliydi, vacib idi. "Onsuz da, axırıncı dəfədir, bir daha bu lənətə gəlmiş kəndə gəlməyəcəm",-deyirdi ürəyində. İçindəki bu təsəlli ilə maşının sürətini artırdı. Yolun kənarındakı evlərə baxdıqca, əslində heç nəyin dəyişmədiyini görürdü. Dəyişən qarşısına çıxan fərqli sifətlər idi. Cavanları O tanımırdı. Qocaların da üzünü tanımayacaq qədər unutmuşdu. Kəndin içiylə irəlilədikcə sıralamanı uşaq vaxtındakı kimi xəyalında düzürdü: "dəyirman, sonra çayxana... Yox, indi bu ikisinin arasına hansısa telefon şirkətinin baza stansiyası girib. Əslində xəyallarımızla, ümidlərimiz də belədir. Mütləq aralığa həyatın dikəltdiyi həqiqət adlı sütunlar girər, eynilə bu baza stansiyası kimi." İçindəki bu acı hiss ilə dəyirmanın qarşısında döyüldüyünü xatırladı. Kimsə onu müdafiə etməmişdi. İndi niyə gəlməli idi bura, kiməsə borclu deyildi ki?.. Amma gəldi... Səbəbini belə doğru-dürüst anlamadan yola düşüb gəldi.

Nəhayət, sonuncu döngəni burulub yarıdoğma-yarıyad küçəyə döndu. Kollar o qədər boy atmışdılar ki, maşının payızın tutqun havasında belə parıldayan rəngini sanki qısqanclıqla cırmaqladılar. O, buna daha da hirslənərək, maşına rəhmsizcəsinə qaz verdi və qəfil əl əyləcini çəkərək nümayişkarənə bir ulartı ilə dövrə vurub saxladı. Qapını açıb yerə düşmək istəyəndə ayağını, sanki üstünə dırmanacaq sarı palçığın içində zorla bir-iki daş tapıb, üstünə qoydu. Qarşısında hündür, köhnə dəbli darvaza ucalırdı. Bir zamanların ən gözəl darvazalarından biri, indi onun bahalı xarici avtomobilinin və son dəbli paltarının yanında sanki öz paslı, çirkin görkəmindən utandı. Əlini darvazanın balaqapısına uzadanda, bir anlıq duruxdu. Bu darvazaya özünü nə qədər çırpmışdı. Hey bağlı.. Hey bağlı., ya da -"atan evdə yoxdu, cəhənnəm ol",–sözlərini bu darvazada əzbərləmişdi O da...

Içindəki uşaqlıqdan qalan cəsarətsizliyini yenərək, balaqapını açıb içəri keçdı. Həyətin aylardır təmizlənmədiyi bəlli idi. Payızın torpağın qoynunda dəfn etməyə hazırlaşdığı yarpaqlardan gələn çürüntü qoxusu həyəti başına götürmüşdü. Tam yiyəsizlik, yetimçilik yağan sur-suması ilə çox iyrənc gəldi bu həyət-baca ona. Addımının səsinə bir az aralıdakı ağacın altında bir it hürmək əvəzinə, nə isə tənbəl bir səs çıxartdı. Elə bu an eyvana çıxan beli bükülmüş bir qadın onu görərək yerişini sürətləndirib sürahinin qapısını açmağa tələsdi. Üzünə qondurduğu süni təbəssüm üzünün qırışları arasında elə itib- batmışdı ki, güclə sezilirdi.

-Bıy, ay bala, xoş gəldin. Biz elə bilirdik gəlməyəcəksən-deyərək üzündən öpmək üçün belini dikəltməyə cəhd etdi.

-Əslində elə olmalı idi. Amma gəldim.

Qadının onu öpməsinə şərait yaratmaq, üçün aşağı əyildi. Qadın onu öpəndən sonra, qabağa düşərək otağın qapısını açdı. İçərinin havasına,divarlarına hopmuş tanış siqaret qoxusu burnunu qıcıqlandırdı. İçəri keçdi. İlk öncə yarımqaranlıq otaqda gözləri heç nə seçmədi. Sonra yavaş-yavaş gözü alışdı bu alaqaranlığa. Küncdəki köhnə çarpayını sezdi. Çarpayının üstündə sanki əlinə alsan bir ovuca sığa biləcək bir adam uzanmışdı. Əvvəl inanmaq istəmədi. Necə ola bilər ki, qarşısında bir vaxtlar Kür kimi əsib–coşan, dağ seli kimi guruldayan adam indi belə... Sanki beynindəki o sarsılmaz, möhtəşəm portreti parçalayıb yelə verdilər. Özündən asılı olmadan yaxınlaşıb dizi üstə çarpayının yanında yerə çökdü. Lakin çarpayıdan, ya da adamdan gələn kəsif qoxu onu necə vurdusa bir anlıq geri çəkildi. Bunu hiss edən qadın:

-Vəziyyəti pisdir. Mənim də qaldırıb təmizləməyə gücüm yetmir.

Həyatında ilk dəfə idi ki, özünü batırmış xəstə gördüyünə, görə çimçəşdi.

Xəstə göz qapaqlarını yavaşca aralayaraq ona baxdı. Ağzının qırağından axan su boynuna doğru şırım açmışdı. Ölgün gözləri ilə onu süzərək əli ilə adyalı didişdirdi.

-On gündü ki, dili batıb. Birtəhər, işarə ilə başa salır. Ölsəydi mənim də canım qurtarardı, onun da,-qadın bu sözləri elə tərzdə dedi ki, bayaqdan iyrənməkdən ödü ağzına gəlmiş adamın vəziyyəti indi daha da pisləşdi.

-Elə danışma. Axı bu insandı, toyuq deyil,-Özündən asılı olmadan hirslə cavab verdi. Sonra buna haqqı olmadığını anlayıb susdu. Bu sözlərdən sonra xəstə onun üzünə elə baxdı ki, ürəyi parçalandı. ”Ata! ay Ata,... Özünü də məhv elədin, bizi də. Heç sən bu günlərə düşəcək adam idin?!”–içində elə inildədi ki, az qaldı ki, nəfəsi kəsilsin.

-Arzu gəlib getmir? Hanı qızınız? Niyə gəlib sahib çıxmır?-yarikinayəli şəkildə, yanında, indi də həbsxana nəzarətçisi kimi dayanmış qadına dedi.

“Həmişə belə olmusan. Kimə, kimdən ötrü keşik çəkdiyin də bəlli olmayıb. Yox, yox bəlli olub, səhv elədim. Qorxurdun, qorxurdun ki, bəlkə bu kişi yanılar, birdən bu atalı ikən yetim qalmış balasına beş-on qəpik pul verər”.

-Gəlmişdi bala, gəlmişdi. Getdi,-qadın tələsik cavab verib qapıya doğru irəliləyə- irəliləyə davam etdi,- gedim, gedim çay qoyum,-deyib otaqdan elə çıxdı ki, sanki onun nifrətli baxışlarından qaçırdı.

O, əyilib atasının başının altındakı yaprıxmış yastığı düzəltdi. Üzünə dikilmiş gözlərdəki ifadə, ürəyinin başını göynətdi.

-Ata!, Mənimkilər məni belə çağırırlar. Amma mən sənə papa deyərdim. Səndən nə gördüm ki. Nə atalıq, nə “papalıq”. Bilirsən, bura gələndə içim keçmişə görə o qədər nifrətlə dolu idi ki,... Daha heç nə qalmadı. Mənə gün vermədiniz. İyirmi qəpik kino pulundan ötrü bu qapıya o qədər dirənmişəm... Ayaqqabıların astanada ola-ola, o qədər -“atan evdə yoxdur”- yalanını eşitmişəm... Ən pisi isə bilirsən nə idi: Bütün bunları sənin bildiyinə əmin idim amma hər dəfə, hər dəfə gələrdim. Axı mən sənin oğlun idim. Bacımla mən diri- didərgin olarkən bu kəndin küçələrində, sən özgə balalarının yançaqlarını böyüdürdün. Hanı onlar?!... Bilirsən?!...- gözlərinin yaşı sel kimi yanaqlarından axıb yorğanın üstünə tökülürdü- Bilirsən, indi varlı adamam, hər şeyim var: maşınım, evlərim, dükanlarım... Uşaqlarıma, sənin mənə vermədiyin hər şeyi verirəm. Arvadımla dəfələrlə ayrılmaq məqamına gəlmişik. Hətta eyni sənin kimi, başqa qadınlar xoşuma gəlib. Amma içimdəki o istəkləri boğmuşam. Bilirsən niyə?!... Qorxmuşam. Qorxmuşam ki, eyni mənim kimi onlar da ata anlayışına nifrət edərlər. İndi bunları sənə deməyin nə mənası...

Qapının cırıltısını eşidəndə özünü cəld yığışdırıb gözlərinin yaşını sildi. Qadın, əlindəki məcməyini çarpayının yanındakı kiçik stolun üstünə yerləşdirdi. Fincanlardan birinə qənd atıb qarışdırdı.

-Ay bala, uşaqların nə təhərdi? Yaxşıdılarmı?-cavab gözləmədən otaqdan çıxıb getdi və bir az sonra əlində cırıq bir dəsmalla geri döndü. Bu dəsmalla xəstənin köpüklənmiş ağzını silmək üçün əlini onun başının altına dayaq verib qaldırdı.

-Yenə ağlamısan, ay kişi? Niyə ağlayırsan? Hamı öləcək də. Dili batandan hər gün belədir. Hər gün ağlayır. Arzudan ötrü darıxırsan, deyəsən. Deyəcəm ki, gəlsin.- çayı kişiyə içirdib davam etdi,- Gedib qonşunun telefonundan zəng edirəm. Arzum Bakıda olur,– qadın yenə onun uşaqlığından nifrət etdiyi yumşaq, yastı səsi ilə qızından danışmağa başladı.Qadın danışdıqca, onun gözünün qabağına Arzu ilə Kazımın necə gözəl geyinməyi və əllərindəki yumşaq bulkalar gəlirdi. Onda bu otaqlar, daha işıqlı, daha təmiz, daha zəngin idi. Onda yuvalarını dağıtmış bu qadın da gözəl idi.

-Çayın soyudu, ay bala.

-Mən gedim. Erkən yola çıxmalıyam. Atamı xəstəxanaya aparın.

Cibindən bir qalaq pul çıxarıb, stolun üstünə qoydu. Onun bu hərəkətindən sonra atasının gözlərindən yenə yaş axmağa başladı. Yaxınlaşıb atasının üzündən öpdü. Bu dəfə iyrənmədən,

çimçəşmədən öpdü. Qalxıb otaqdan çıxmaq istəyirdi ki, içəri girən birini gördü. Bir anlıq duruxdu. İçəri girən, öncədən hər şeyi bilirmiş kimi birbaşa onun üstünə yeridi.

-Bıy, xoş gəlmisən. Sənin gəldiyini çayxanadakılar dedilər. Eşitmişəm, böyük adamlardan olmusan. Mən mamaya dedim”gəlməz”. Dedim, amma mərci uduzdum.

Onu tanıdı. Gec də olsa tanıdı. Səsindən tanıdı. Kazım idi: Ögey qardaş, əsas oğul. O, ağzındakı sözləri saqqız kimi gəvələyərək araq qoxusu ilə onun üzünə püskürürdü. Eynilə cavanlıqakı kimi, sanki başdan ayağa kimi içki hovuzuna girib-çıxmışdı. Zaman onu da bu məkan kimi “ütüləmişdi”.

-Hmm. Həə gəldim.- O, Kazımın gözlərinin, özündən asılı olmadan pula dikildiyini görəndə ürəyi bulandı. O gözlərdəki tamah canavarını görəndə, atasının heç bir xəstəxanaya aparılmayacağını da anladı. Qəlbini basmış sıxıntından tez qurtulmaq üçün gedişini tezləşdirmək istədi:

-Mən getməliyəm. Həqiqətən gecdi.- bunu deyərək yerindən qalxdı.

-Nə getmək? Hələ otur, bir yuz-yuz vuraq....

O, Kazıma fikir vermədən atasını yenidən öpdü. Aralanmaq istəyəndə atasının, onun paltosunun ətəyindən yapışdığını gördü. Anladı ki, bircə dəqiqə də artıq qalsa nəinki atasını qoyub gedə bilməyəcək, hətta onu özü ilə aparacaq. Gözünün yaşını güclə saxlayaraq atasının üzünə baxmadan, onun paltonun ətəyinə kilidlənmiş barmaqlarını güclə araladı. Ani olaraq gözü, atasının üzünə sataşanda, orada: “məni bu yadların içində qoyub getmə”-yalvarışını oxudu. Onun əlini qaldırıb sinəsi üzərinə qoyaraq cəld otaqdan çıxdı. Addımlarını tezləşdirib, həyətdən sürətlə çıxdı. Nə üstünün palçıq olmasına fikir verdi, nə də kiməsə sağ ol demək ağlına gəldi. Maşına tam qaz verib oranı işıq sürəti ilə tərk etmək istədi.

Ona elə gəlirdi ki, nə qədər çox sürəti artırsa, içindəki bu ağır işgəncədən daha tez qurtulacaq. İstədi yolüstü qəbirstanlığa dönüb anasını da ziyarət etsin. Lakin bir də yolun yarısında, harada olduğunu anışdıra bildi. Maşını yolun kənarında saxlayıb yerə düşdü. Bir siqaret yandırıb maşına söykəndi. Göyün üzü sanki onun ürəyi kimi iki yerə parçalanmışdı. Bir tərəf qapqara buludlarla qapanmış, digər tərəf isə o biri yarısından xəbərsiz kimi par-par yanan ulduzlarla bəzənmişdi. O, güclə yarıya qədər çəkdiyi siqaretini yerə atıb ayağı ilə əzdi və maşınına minib ulduzlu səmanın altı ilə sürüb qaranlığa qarışdı.

QORXU

Kəndə zülmət qaranlıq çökmüşdü. Səmadakı bir- iki ulduz istisna olmaqla, sanki dünyanı qaranlıq öz bətnində gizlətmişdi.

Sərkar da bu qaranlıq aləmin yuxu adlı ötəri dünyasında idi. Yenə yuxuda qəbirstanlıq görürdü. Yuxusu qapqara idi. Bu qara yuxunun içində yalnız başdaşları ağarırdı. Tək qalmışdı . Saysız – hesabsız qəbirdaşlarının arasında tamamilə tək idi. Birdən qəfildən qəbirlər aralandı və içindən dişiağara qalmış skeletlər onun üstünə cumdular.” Ay aman “- deyə əti kəsilmiş tək çığıraraq yerindən dik qalxdı. Bir anlığa harada olduğunu anışdıra bilmədi. Əlini sürətlə üzünə, saçlarına gəzdirərək hələ canlı olduğunu özünü inandırmaq istədi. Sonra həmişəki soba qoxusundan öz evində olduğunu xatırladı. Kəsif təzək qoxusunu zövqlə sinəsinə çəkərək, əl havasına balışının altındakı  alışqanı axtarıb tapdı. Alışqanı tapan kimi, vaxt itirmədən  onun zəif işığı ilə neft lampasının elə çarpayının ayaq tərəfində olduğunu gördü.” Hamısını bu viranın qızı edir. Yuz dəfə demişəm , yuz dəfə demişəm ki, bu lampanı yanılı qoy, yat! Nə xeyri. Vurulmuş elə bil palıd kötüyüdür. Bu boyda səs eliyirəm burada, gör heç vecinədir?!...Qış yuxusuna getmiş ayı kimi fısafıs, yatayat........”-bu fikirlərlə lampanı alışdırıb çarpayının yanındakı stula qoydu.

Yan otaqdan ufultu səsləri qulağına çatanda , atasının xəstə olduğunu acı-acı xatırladı.

On il idi ki, atası xəstə idi. On il idi  demək olar ki, hər gecə Sərkar atası ilə ölüb,dirilirdi. Atasının ölüm kabusu,  atası ölməmiş Sərkarın üzərinə çökmüşdü. Yenə çal saçlarını qarışdıra-qarışdıra atasının ufultusunu “həmişəkindəndir”-deyə özünə təsəlli verdi. Lakin ufultu və zarıltı getdikcə daha da şiddətlənirdi. Sərkara ən qəribə gələn  isə bu səs –küy artdıqdıca arvadının yerində narahat şəkildə qıvrılması idi. Qəfildən qonşu otaqdan səs kəsilən kimi, arvadı yerindən dik qalxaraq çarpayıdan yerə sıçradı. Gözucu Sərkara tərəf baxaraq, xalatını geyinməyə başladı. O, Sərkarın üzünə diqqətlə baxdığını sezdi və sakitcə:

-Atan keçindi.

- Haradan bilirsən?- Sərkar səsindəki titrəyişi gizlətməyə çalışaraq arvadından soruşdu.

- Gördüm.  Onun canının necə alındığını gördüm. Mən gedirəm xalamın yanına .

- Sən xəstəyə baxa-baxa sərsəmləmisən. Anamı narahat etmə!  Yəqin kişinin ağrıları kəsdi ona görə də, səsi gəlmir.-deyərək Sərkar hirslə çarpayıdan qalxaraq onun qarşısını kəsməyə çalışdı.

Arvadı ona huş verməyərək otaqdan çıxdı. İki dəqiqədən sonra qonşu otaqdan ucalan ağlaşma səsləri ətrafda hamının yuxusunu öğurladı.

Qonum-qonşu tez onlara yığıldı. Kimi kəndin mollasının ardınca yollandı, kimi camaatın oturması üçün otaqda yer açdı , kim isə tanışlarını işə salaraq kəndin işığını yandırtmağa çalışdı.

Insanlar həyətlərində qaynaşdıqca, Sərkar çarpayının içində yumağa dönürdü. Əriyib itməyə çalışırdı ki, onu bəlkə tapmayalar, bəlkə unudalar. Kəndin elektriki veriləndə , Sərkar atasının ölümünə bir daha inandı. Sovet rejimi dağılandan bəri elektrik bu kənddə "ölüm" simvolu idi. Elektrik lampası tavanda bərq vurduqca, ölüm həqiqəti Sərkarı daha da boğazlayırdı. Qapı qəfil açıldı və arvadı içəri girərək gözünü onun üzünə dikdi. Sərkar onun sükutundan hər şeyi anladı.Anladı ki, kəndin bütün ölülərinə etdiyini deyəsən atasına edə bilməyəcək. Hamı hər şeyi bilirdi. Amma hamının hər şeyi bilməsi bir istisnanı dəyişdirə bilməzdi. Bu dəfə ölən atası idi. Yavaşca sürüşüb çarpayıdan düşdü. Günahkar uşaqlar tək arvadının qarşısında boynunu bükdü. Həmişə əsib- coşan, əzəməti ilə evdəki arvad- uşağı titrədən Sərkardan bir saat ərzində əsər-əlamət qalmamışdı.

-O sənin atandır .

- Bu heç nəyi dəyişdirmir. Içimdəki bu ölü qorxusu, başa düş, məndən çox böyükdür. Əlli ildə dəyişməyən bir şeyi indi "Gəl Sərkar, yan otağa keç atan ölüb get mollanın yanında otur " deməklə düzəlmir. – Sərkar ağzını yana əyərək arvadının təqlidini çıxarmağa çalışdı. Lakin bunu da bacarmadığını anlayaraq aciz-aciz susdu.

Arvadı daha heç nə demədi.

Dan yeri ağarmağa başlayırdı. Günəş rəngi bozarmış payız səmasına milləndikcə Sərkar canına birə daraşmış tək yerində dura bilmir, otaqda var-gəl edirdi. O adamların həyətdə toplaşdığını və əmisi oğlanlarının atasını yuat yerinə götürdüyünü pəncərinin bir küncündən müşahidə edirdi. Beyni kilidlənmişdi. Hec nə düşünüb analiz edəcək vəziyyətdə deyildi. Atasının həyətin ortasında cənazə namazını qıldılar. Ağlına qəfildən "kaş anamgil camaata: Sərkar burada yoxdu -deyəydilər. " -fikri gəldi sonra isə -"Məni axı, axşam mal örüşdən qayıdanda görənlər olub "-deyə mızıldanaraq bu fikrdən elə vaz keçdi ki, guya nəsə doğurdan da camaata deyilməli imiş.

Sərkar yaşının əlli ilinin təxminən qırx ilni qorxusu ilə çıpınmışdı. Heç bir dəfniyyatda iştirak etməmiş və həyatı boyunca heç vaxt qəbirstanlıqda olmamışdı. Televizorda qorxu filmlərini izləməz, qaranlıq düşəndə bayırda tək olmazdı. Onun qorxusunun yalnız bir adı var idi:

Ölüm.   Bu məvhum canına , qanına hopmuşdu. Bir gün öləcəyini dərk etdiyində on yaşı var idi. Məktəbdən gələndə bir addımlığında olan sinif  yoldaşını "Kamaz" köpək balığı tək ağzına alıb aparmışdı. Xıncım- xıncım etmişdi. Bircə gözləri qalmışdı  əzilməmiş, itməmiş.  Ölümün nəfəsini onda hiss etmişdi. O balaca gözlərə yazılmış ölümü gördü və unuda bilmədi. Onda hiss etmişdi ki, bir gün onu da , bacılarını da, ətrindən heç doymadığı anasını da ölüm oğurlaya bilər. Hər gün sərvaxt yatdı. Sanki onun yatmağı bir gün hər şeyin – ailəsinin və əzizlərinin yoxa çıxması ilə nəticələnəcəkdi. Kənddə lətifə oldu onun qorxusu. Bayramlarda başına ağ mələfə keçirib onu qorxutmağa çalışanlar da tapıldı. Hər şey kimi buna da alışdı kənd camaatı. Daha onu axtarmadılar .

Atasını həyətdən çıxaranda dözmədi , istədi qaçsın tabuta çiyin verənlərdən biri də, bu olsun amma ayaqları sanki döşəməyə mismarlanmış kimi qopmadı. Gözlərindən iri yaş damlaları tökülür , paltarının yaxasını isladırdı.

Dəfndən sonra həyətdən əl-ayaq çəkildi. Arvadı  sakitcə otağa girərək masaya çay qoydu və gəldiyi kimi heç nə demədən çıxıb getdi. Cayın ətri burnuna dəyəndə, mədəsinin bir sıxım tərə kimi içində buruldduğunu hiss etdi. Pəncərənin qarşısından çəkilərək masanın üzərindən çayı götürdü və bir qurtum aldı .Çayın istiliyi boğazını yandıranda beynində ildırım kimi bir fikir caxdı-"atamın ehsanı".

Fincanı yerə çırparaq otaqdan çıxdı. Ayağına keçən əyri-düz ayaqqabılara fikir vermədən həyətdən götürüldü. Günəş qısa gunun qürubunu edəndə Sərkar titrəyə-titrəyə qəbirstanlıq yoluna üz qoydu. Yol qısaldıqca ürəyi əllərində, ovcunda  və bədənin hər bir nöqtəsində şıddətlə vururdu. "Mən sadəcə olaraq içəri girəcəm, atamın qəbrini tapacam, bir fatihə oxuyub oranı tərk edəcəm. Bu qədər . Bunun  nəyi   qorxuludur ki,...."- deyə özünə təsəlli verərək addımlarını sürətləndirməyə çalışırdı. Qəbirstanlığın paslı , dəmir qapısının cırıltısı beyninə qədər işlədi. Əllərinin pasını üstünə sürtə-sürtə bir addım atdı. Qəbirstanlıq qarşısında bir meydan kimi açıldı. "Nə qədər adam ölmüş"- deyə içini çəkdi. Ona elə gəldi ki,kənddə adam qalmayıb, hamını gətirib bura quylayıblıar.Vahimələndi. Bütün ölülərin onun üzərinə düşəcək qədər qüdrətli olacaqlarını düşündü.  Geri-geri bir addım,ardınca ikinci addımı atdı. Əsməcə bütün bədənini götürmüşdü. O an anladı ki, qorxusu ondan çox böyük imiş. Onun üstünə gedilməyəcək qədər BÖYÜK imiş Addımlarını geri atdıqca gözlərində qəbir daşları böyüyür və hamısı sanki yerlərindən qopub onu üstünə gəlmək istəyirdilər. Lap əvvəldəki qəbir daşının üzərindəki şəkil ona tanış gəldi. Budur heç bir ay deyildi bu sinif yoladaşının öldüyü..... Onun sifətini görəndə anldı ki, üzünü döndərib qaçmalıdır. Geriyə belə baxmadan.... Ona tabe olmayan daş kimi ağırlaşmış ayaqlarını qaldıraraq tərpəndi. Əvvəl asta-asta, sonra isə bütün qüvvəsi ilə qaçmağa

başladı Arxasına belə baxmadan  qaçan Sərkar özünü evlərinə yetirdi və atasının yeddisi çıxana qədər heç kəsin gözünə görünmədi. Sərkarın qəbirstanlığa yolu bir də özü öləndə düşdü.

## Çarə

Qapı qorxa-qorxa cırıldadı. Yavaşca içəri keçdi. Sobanın  ətrafına salınmış nimdaş palazın bir küncündə büzüşdü. Anası cəld əlindəki çay dolu stəkanı tələsik stolun üstünə qoyaraq onun qabağına gəldi.Qarşısında diz çökərək onun  çənəsindən tutub yuxarı qaldırdı. Gözlərinin önündə formasını itirmiş, gömgöy  göyərmiş  bir sifət var idi. Bu acı mənzərənin ardınca qızının sızıltıya bənzər səsi gəldi:

- Ma sosuz dedi. Sosuz qancıq dedi.  Sora məni o ki var döydü. Getdi. Sabaha qədər gözəədim. Gəlmədi.
- Yavaş,yavaş. Danışma. Yəqin ki, indi üzünün əti də ağrıyır. Cəhənnəm olsun it oğlu it. Görüm onu gəbərsin o araq butulkalarının dibində- anası onun yaralarına yavaşca sığal çəkə-çəkə bağrına basdı. Ana-bala bu nimdaş palazın üstündə nə qədər ağlamışdılar. Palazın nəmi qurumamış, ağız- burnunun qanı çəkilməmiş darvazanın önündə bitən ərinə qoşulub yenə evinə qayıdardı.Artıq yeddi il idi, əvvəllər iki aydan bir, sonralar hər həftə döyüləndən sonra anası evinə gələrdi. Bu illərdə uşağı da olmadı və bu daha da qan tuluğu kimi yaşadıqları evlərini cəhənnəmə döndərirdi.

Anası söyməkdən yorulmuşdu, atası hədələməkdən. Dilinə araq dəyəndə heç kim yığışdıra bilmirdi əzazil kürəkənlərini. Qapıdakı itdən fərqli bilməzdi evindəki bu yad qızını. Vurduğu təpiklərdən betər olurdu,yağdırdığı söyüşlər. əlindən çıxıb qaça biləndə qaçırdı ayaqyalın, başı açıq küçələrnən düz anasığilə.

Yenə gəlmişdi. Palazın saçaqlarını didişdirə-didişdirə dodağının altında bu evdə hamıya tanış olan sözləri mızıldanırdı:

- Gələcək! İt kimi gələcək! Sürünə-sürünə gələcək . Deyəcək: Gülü, yalvarıram gəl evimizə gedək. Vallah, səni döyməyəcəm. Çırtma da vurmayacam. – O, ərinin bu yeddi ildə əzbərində olan sözlərini təkrarladıqca, anası onu yerindən qaldırıb içəri otağa apardı. Çarpayıya uzadana kimi qızının,  bu ağrı-acının içində hələ bir ərinin “ O, içkili getdi ee  gedib özünü kanala atmaz ki?” – deyərək halına qalması anasını lap çılədən çıxardı:
- Ay qız, başını at yat! Hara gedib, gedibdə. Yat ki, bir sur-sumaya düşəsən. Sən nicolıysan?! – deyərək başını buladı. Adyalı qızının üstünə atıb otaqdan çıxdı.

On gün gözlədi. Hər dəfə iki gün sonra darvazanın önündə peyda olub yağlı dilini işə salan ərindən bu dəfə bir xəbər yox idi. Üzünün göyərtisi çəkildi, gözünün şişi yatdı amma əri gəlmədi. Lazım oldu, olmadı iki küçə o tərəfdəki kəhrizdən gündə on yol su gətirirdi. Əlindəki qabları yola qoyub dincəlirmiş kimi ətrafı süzür, bəlkə bir xəbər ümidi ilə dörd tərəfə boylanırdı. Nəhayət on üçünçü gün qayınanasıgilin qonşusu rast düşdü.Sözlü adam kimi dilini çöx sürüdü axırda "Məndən eşitmiş olma, bəs Şirin qız götürüb qaçıb"

Adam getdi amma dünya onun üstünə yıxıldı. Suyu necə gətirib həyətə qoydu, necə taxta kətildə  oturdu heç birindən xəbəri olmadı. Zamanın kələfini itirdi. Anası səhər getdiyi yas yerindən döndü, yaylığını açıb üzünə onun gətirdiyi qabların birini əyib su vurdu.Qardaşı darvazanı açıb maşını içəri saldı. Gəlib onunla yanaşı kətil çəkib oturdu. Itirdiyi zamanın kar olmuş qulaqlarına " Sənə nə olub, ay qız" sözü sanki min ilə gəlib çatdı.

Dodaqları əsə-əsə güclə pıçıldadı:

- O, qız götürüb qaçıb ee.
- Cəhənnəmə qaçırsın.Piyanıska əclaf. Noulsun ki?! Indi onun oturub fikrini edirsən?- qardaşı bütün bunları elə sakitciliklə söylədi ki sanki hər şeyi öncədən bilirmiş.

Beləcə evdə hamı sakit qarşıladı, onun üçün faciə olmuş bu xəbəri.Hər kəs əslində "elə bu da  lazım idi"- ifadəsi ilə dolaşırdı evdə.

Aylar günlərin tərkinə minib zamanı hərlədikcə qapılarını başqa bir xəbər döydü: "Şirinin oğlu oldu" ürəyinin başını sızlatdı xəbər. Bir az paxıllıq, bir az həsəd qarışıq bir hiss ilə xəbər gətirənə heç nə demədən düz otağına getdi. Gözləri şişənə qədər ağladı. Sonra ona xəyanət etmiş qarnına o ki var yumruq döşədi. Bu dəfə ildən yuxarı yumruq təpik dəyməyən bədənini özü əzişdirdi, çimdiklədi.

Zamanla alışdı özü-özü ilə yaşamağa. Yay axşamlarının birində yenə gözünü dikmişdi vaxt öldürən seriallların birinə. Arabir saçlarını qarışdırır və gözünü ekrandan ayırmadan alabəzək fincandan çay qurtumlayırdı.Anası gəlib sakitcə divanın bir küncündə oturdu. Serialın şirin yerinə reklam salınanda hirslənib ayağa qalxdı. Istədi gedib çayını təzələsin amma anasının üzünə dikilmiş baxışlarını görəndə duruxdu.Anası başı ilə ona oturmaq işarəsini verdi. Barmaqları ilə divanın adyalını sığallaya-sığallaya yavaşca dilləndi:

- Sahibə bizə gəlimişdi. Səni soruşdu. Dedi ki boşanma-zad qutarıbbı....

- Hansı Sahibə?
- Emoşun, od ey Ətirşahın gəlininin bacısı.
- Onun nəyinə lazımdı? – yenə qalxıb getmək istəyəndə anası bu dəfə:
- Otur sənə sözüm var. Gəlmişdi ki sənin ağzını arasın. Mən də dedim ki, qoy birinci özüm danışım. – bütün xəbəri birnəfəsə deyəcəkmiş kimi tələsik dilləndi.

Özündən asılı olmadan divanın üstünə çökdü. Evlərinə qayıdıb gəldiyi bu bir il ərzində ərə getmək qətiyyən ağlının ucundan belə keçməmişdi. "Onsuz da sonsuzam məni kimdi alan" düşüncəsi ilə qapanmışdı özü-özünə. Anası isə onun bu sükutundan istifadə edərək sözləri sıraya düzürdü.

- Elə deyir ki, mənim qardaşıma da bir həyan lazımdı.Uşağı-zadı neynirik. Elə gəlsin qardaşımıza baxsın, bizə bəsdi.Ay bala, sən də oturub- oturub neyniyəcəksən? Beş günlük ömrümüz qalıb, ya qalmayıb biz ölüb gedəcəyik. Səni də qardaşa, qardaş arvadına möhtac qoyub getmək istəmirəm..

Anası bu sözləri O evi tərk edənəcən dedi. Dayanmadan təkrarladı. Sanki bu sözlərə proqramlanmış bir robot kimi susmadı. Beş altı nəfər gəldi. Yedilər içdilər. Elə orada gördü ikinci qismətini. Əlli yaşlarında bir kişi idi. Sakit tövrlə "Rusyətin çöllərində gəzməkdən vaxtı olmayıb evlənməyə" bəhanəsi ilə yuyub təmizləməyə cəhd edirdi keçmişini. Bütün yalançı get- gəllərdən sonra hər şey bitdi. Əvvəlki qismətinin-Şiringilin evinin tam əksi olan bir evə köçdü.

Hər şeyin yerində olduğu bu evin ən böyük özəlliyi sakitçilik idi. Qu desən qulaq tutulan bu beş otaqlı evdə o yana, bu yahna gəzməkdən tezliklə canı sıxıldı. Gecələr çarpayıda fikirlərini ha qucaqlayıb yatmaq istəyirdi, bir tərəfə çıxa bilmirdi. Artıq kişi- Adil də başa düşmüşdü nəyinsə yerində olmadığını. Bir səhər çayını içib yenə həyətə düşmək istəyəndə qəfil ayaq saxladı və uzun uzadı onu nəzərdən keçirəndən sonra:

- Bəlkə uşaq götürək detdomdan.- dedi.

Boğazı qurudu. Bilmədi sevincdənmi, yoxsa kədərdənmi ağlamağa başladı.

Adil yaxınlaşıb onu qucaqladı.

- İstəmirsən götürmərik. Ağlama! Niyə ağlayırsan.- deyərək onu sakitləşdirdi.

O, isə ona bir kəlmə də güldən ağır bir söz deməyən bu adama bilmədi minnətdarlığını necə bildirsin. Bir yerdə olduqları bu altı ay müddətində ilk dəfə olaraq, O da onu ürəklə qucaqladı və ağarmış saçlarından öpdü:

- Çox sağ ol. Elə bil mənə dünyanı bağışladın. Elə sabah gedək.

Hər şey əvvəlcə yolunda getdi. Uşaq evlərinn birinə getdilər.Hətta götürəcəkləri uşağı-kilkəbaş bir qızı da seçdilər. Sənədləşmə işinə gözucu baxaraq sanki vaxt itkisi kimi başını bulayırdı. Lakin sənədləşmənin içində elə qəmbərqulu çıxdı ki, bu yatsa da onun yuxusuna girməzdi.

Uşaq evinin müdirəsi onun üzünə əyri- əyri baxaraq:

- Biz buna icazə verə bilmərik.
- Axı, bu yalandır- deyə etiraz etsə də sənəd artıq əleyhinə çevrilmiş dəlil kimi qarşısını kəsmişdi. Sükutla geri döndülər.

Hər şey başlanğıca döndü. Yenə evin boş səssiz divarlarına söykənə-söykənə gününü keçirtməyə başladı. Qarşısını dağ kimi kəsən dəlilik kağızı ona gərəksiz sənəd kimi evin bir küncünə atılmışdı. On il aldığı pulları geri çevirib "mən ağıllıyam" deyə sübut etmək qüvvəsi də yox idi. Aldığı təqaüdə çox ehtiyacları var idi.Bir körpənin həsrəti ilə yanan qoynunu hey qucaqlayıb o yana gedir, bu yana gedirdi. Çarə aradıqca çarəsizliyin içində boğulurdu. Qəminin bol olduğunu kişi də hiss edirdi. Evdəki sükutu pozmağa heç birinin cəsarəti çatmırdı.Ehtiyac boğazlarına kəndir kimi keçmişdi.Yalnız bir dəfə cəsarət edib soruşdu:

- Bu pensiyanı niyə dəliliyə görə düzəltmişdiniz ki?
- Atam etmişdi. Onda atam o idarədə işləyirdi. Mənim kimi o qədər ağıllı dəlilər var.

Daha bu barədə danışmadılar.Payız düşdükcə rütubətli hava sanki sümüklərini üşüdürdü. Qaçıb qurtulmaq istəyirdi evdən, rayondan, dünyadan. Təzə işlətməyə başladığı taksi ilə qonşu rayonlara gedən Adil gec gələndə bağrı daha da yarılırdı. Bir dəfə küçədə eşitmişdi Adilin tay-tuşuna " Adam arvadın üzünə nə qədər baxar. Adam bezir. Qoy, bir az gec gedim" dediyini eşitmişdi.Ondan sonra Adil həmişə evə gec gələndə uzun –uzadı güzgüdə özünə baxar və özü özündən bezərdi. Tənhalığın kral olduğu qəlbinin dəriliyində günü- gündən özünə etiraf etməsə də, artıq dəli olmağa başladığını hiss edirdi.

Ürəyinin sıxıldığı axşamların birində Adil evə qapıdan bir başqa sifətlə girdi. Üzü alışıb yanırdı. Sürətlə ona tərəf gələrək:

- Düzəldi. Allah düzəltdi.çarə axtarmaqdan az qala dəli olacaqdım- deyərək olan bitəni bir nəfəsə danışdı."qonşu rayona gedəndə yolda bir qadın götürüb maşına. Qadın səssiz ağlaya-ağlaya gözünün yaşını gizlin silirmiş. Hal- əhval tuta-tuta öyrənir ki, qadın ehtiyac üzündən uşağını uşaq evinə vermək istəyir amma heç ürəyi gəlmir."

O gecə quş olub uçdu ora. Sabahı gözləyə bilmədi. Eyni uşaq evindəki qıza bənzər qıvırcıq saçlı bir körpə qız uşağını görəndə hönkürüb ağlamağa başladı.Öpdü, doyunca öpdü öz balasını itirmiş ana kimi.Aradılar, axtardılar uzaq qohum çıxdılar. Qadın sənədləşməni gözləmədən elə o gecə verdi uşağı. Bağrına basıb qoxusunu içinə çəkdi körpənin. Payızın soyuğunda cındır adyalla titrəyən uşağı öz paltosuna büküb maşına gətirdi. Az sonra qucağında mışıldayan körpənin balaca dırnaqlarından öpərək özünə daha da sıxdı. Maşının şüşəsini aşağı salıb siqaret yandırmaq istəyən Adilə:

-uşağa ziyandır eləmə!- deyəndə Adil gülümsünərək:

-Bu sözün həsrətini o qədər çəkmişdim- deyərək əlindəki siqaret qutusunu bayıra atıb şüşəni qaldırdı.

## Heykəltəmizləyən

Səhərin ayazı üzünü daladıqca yerişi zəifləyirdi. Əlləri cibində də qızmırdı. Sanki, ayaz soyuq ilan kimi qıvrılaraq boğazından içəri soxularaq qarnına dolmaq istəyirdi. “Gərək bu gün çıxmayaydım” deyə öz-özünə düşündü.  Lakin havadakı soyuqla evdəki ümidsizliyi müqayisə etdikdə soyuğu secməkdə yanılmadığını anladı. Yolu qısaldıqca titrədiyini unudur,  qəlbini yenə eşidəcəyi sözlərin sıxıntısı bürüyürdü. “Ay qoca get nərd oyna ,  parkda otur. Sənin  kimilərinə daha iş  yoxdur. Yıxılıb qolunu qıçını qırarsan. Sənin daha o vaxtın  deyil”. Bu sözləri əzbərləmişdi. Amma yenə gedirdi. Bir  zaman  qabarlı  olduğuna görə xəcalət cəkdiyi  əlləri indi ağappaq idi. İmkanı olsaydı indi xoşuna gəlməyən o ağ əlləri  ilə  müdirin yaxasindan  yapışar, üstünə  qışqırardı: “Ay kişi heykəl vermirsən heç olmasa balaca da olsa bir büst ver. Mənim sənətim budur. Mən ömrümün əlli ilini bu işdə çürütmüşəm. Bundan başqa iş bacarmıram”. Bu qamaqarışıq düşüncələr içində iki həftə əvvəl onu, “-get, fikirləşərik”-deyə  başından eləyən bürokrat müdirin atasından qalma kimi şəxsi hesab etdiyi bu köhnə idarəyə necə çatdığını bilmədi. Katibə özünü görməməzliyə vurdu . Həm tünd ətir, həm də təmizlik qoxusu verən gözləmə otağında ilk nəzərə çarpan yarıçılpaq katibə və böyük bədənnüma güzgü idi. Katibə iş masasını sanki, qəsdən güzgü ilə üzbəüz qoymuşdu. Qoca, “bir az da bura gəlsəm deyəsən çox şey kəşf edəcəm”-deyə öz-özünə gülümsədi. Katibə ona, əyləşmək üçün yer də təklif etmədi. Deyəsən güzgüdə özünə tamaşa edərək daha vacib bir işlə məşğul idi.

-Baba, yenə gəlmisən? - Arxadan gənc bir adamın səsi eşidildi. Qoca döndükdə uca boylu birini gördü. İlk dəfə idi ki, onu görürdü. Amma deyəsən cavan onu artıq tanıyırdı.

-Hə, bala iş verilənə qədər gələcəm.

Bu sözü eşidən katibənin dodaği azacıq qaçdı. Güzgüdə onu görən qoca sanki onun nə düşündüyünü üzündən oxudu “Ay qoca, bir ayağın burda, bir ayağın gorda. Hələ bir gələcəm deyirsən”. Üzünü turşutdu. Gənc adam gərgin sükutu pozdu.

-Ay baba işi neynirsən?

-Bala, at ölüncə otlayar.

-Əgər iş vermirlərsə, o qədər iş var. get başqa yerdə axtar. Niyə burda özünü yorursan?

-Bala, hər kəsin bacardığı bir iş var. Mən qırx ildir ki, heykəl təmizləyirəm. Bu əllərim onların hər yerini əzbər bilir. Gecənin qaranlığında məni gözübağlı aparıb hansı heykəlin yanına buraxsan əllərimin yaddaşı ilə onu tanıyaram.

-Bunlardan iş istəmək Yeziddən su istəmək kimi bir şeydir- deyən gəncin üzündə səmimi bir ifadə vardı.

-Mən onlardan iş istəmirəm ki,- deyə qoca sakitcə cavab verdi.-Mən dövlətdən istəyirəm.

Gənc susdu, amma bu sükut çox çəkmədi. Gələn telefon zəngi ikisinin də diqqətini özünə cəlb etdi. Katibə boyalı dodaqlarını oynadaraq naz-qəmzə ilə telefona cavab verdi. Dəstəyi yerinə qoyduqdan sonra bayaqkı qəmzəli qız, ciddi bir ifadə ilə:

-Müdir bu gün olmayacaq. Gedə bilərsiniz.

Qocanın ayaqları bu sözlərdən sonra elə bil yerə yapışdı. İki ay dayanmadan ayaq döydüyü idarə sanki ona ağır bir təpik ilişdirmişdi.

-Baba, buna fikir vermə bir azdan müdir gələr. Bu, bizi başdan etmək üçün uydurur.- deyən gəncin səsi ona dumanli çatdı. Acqarına dörd saat müdirini gözlədiyi idarəni asta-asta tərk etdi. Ayaqlarini sürüdükcə zəmanənin ağırlığı, həyatının yoxsulluğu sanki sinəsinin üzərinə çökür, nəfəsini daraldırdı. Şəhərin bu genişliyi qəlbini sıxır, mağazaların gözqamaşdıran parıltısı ona uzaq ulduzlar kimi görünürdü. Ona həmin anda, “sən ölmusən, burda yoxsan” deyən olsaydı, buna qətiyyən təəccüblənməzdi. Evdəkilərə nə deyecəkdi...

Özünü yaxinlıqdakı parka zorla çatdırdı. Özünü ilk rast gəldiyi skamyaya atdı. Nəfəsini genişləndirmək üçün köynəyinin düymələrini dartışdırdı. Bir az özünə gəldikdən sonra ətrafa göz gəzdirdi. Lakin gözü, nə kolluqlarda gizlənməyə çalışan gəncləri, nə də fürsət gəzən dilənçiləri gördü. Gözündə, parkın ortasindakı böyük heykəl bitdi. İnstiktləri qocanı ona tərəf itələdi. Bilmədi süründü, bilmədi yeridi. Bir anda özünü heykəlin yanında gördü. Kürəyini ona söykəyərək pıçıldamağa başladı:

"Yəqin içində mənə gülürsən. Deyirsən: "Ay qoca, get cəhənəm ol, öl! Sənin kimilərinə mənim ehtiyacım yoxdur". Eeh sənin özündən xəbərin yoxdur. Bilmirsən ki, sən də fələyin dişinə keçəcəksən? Mənim kimi sən də kiməsə lazim olmayacaqsan? Mən ölsəm yenə mənə yiyə çıxan olacaq. Bəs sənə?!... Bir bax üstünü quş batırıb."

Qoca, nimdaş, ancaq təmiz olan pencəyinin ağzı süzülmüş cibindən əl yaylığını çıxarıb tüpürcəyi ilə heykəli təmizləməyə başladı. Çirkabı təmizlədikcə mızıldanırdı:

"Lenin baba sağ olsun,

Dörd bir yanı bağ olsun."

## KEÇMİŞİN HÖKMÜ

Hər şey iki gün öncə məhv oldu. Iki gün öncə mən azad quş kimi idim.Yalnız iki gün öncə, sanki bir sehirli əl mənim məkanımı və zamanımı dəyişdi və məni koordinat xəttinin sıfırıncı nöqtəsinə atdı. Mən indi zamanın ilbiz təki süründüyü bir yerdəyəm: bir həbsxana kamerasında. Bura qaranlıq və rütubətli olmağına baxmayaraq, insanın zehninə sanki çıraq tutur və hər şeyi sıfırıncı nöqtədən başlayaraq insanın beynində canlandırır. Bu dar kamerada xatirələr məni küncə sıxışdıracaq qədər böyükdürlər. Bilirəm bu başıma gələnləri eşidənlər onun kökünü araşdırmadan belə : biz onun belə iş tutacağını bilirdik . elə belə də olmalı idi. Axı kim kimin həyatının ta kökünə qədər enıb əsılində nəyin nə üçün baş verdiyini araşdıra bilər ki.... Əslində mən də iki gün öncəyə qədər mənə anladılan bir hadisəni soyuqqanlıqla qəbul etmişdim.. O hadisəni beynimdə keçmişimə aid bir iki hadisə cəmlədiyim qovluğa atımışdım vəssalam. Nə ürəyimdə bir yanğı hiss oyanmışdı nədə ki.........başıma gələn bu hadisələr o qədər qarma qarışıqdır ki, mən hakimə nə anladacağımı belə bilmirəm.

Indi yəqin ki, məhəllədəkilər "dəvə"nin axırı belə də qurtarmalı idi. Dəvə bəli bu mənim ayamam idi. Neçə vaxtdı fəxrlə daşıdığım bu ayama indi içimə qədər oturur və məni soyuq kamera divarlarında belə atəşdə qovururdu. Bu rütubətli kamera belə mənim dəvə kinimi soyutmağa yetmirdi. Mən buradan qurtulub hər kəslə- məni balıq kimi sudan alıb nəfəssiz qoyanlarla, tarixin yönünü dəyişdirənlərlə, insanları müharıbələr törədib fiziki və mənəvi məhv edənlərlə haqq- hesab çəkmək istəyirdim. Bəli, bu nöqtədən mənim dastanım başlanır.

Insanın ömrü o qədər məhduddur ki, edəcəyin işlər sənin ümidin, edə bilmədiklərin isə "kaşkilərindən" ibarət olur. Mənim içimdə ümidlər mağarası kaşkilərimin atdığı daşlarla o dərəcədə qapanmışdır ki, onu açmağa nə sehirli sim-sim nə də on kilo dinamit yetər. Butun həyatımı beş dəqiqə ərzində gözdən keçirmək istəsəm yalnız iki gün öncə törətdiyim cinayət istisna olmaqla( bu mənim ailəmin yanına üzüağ aparacaq bir pasportdur) boş və mənasız bəlkə adi insan həyatı kimi keçmışdir.

Uşaqlığımın bir qaranlıq guşəsinə açılan ilk pəncərə Bakıda -Yasamalda oldu. Bura genış bir məhəllə idi.Əvvəl harada olmağımızı xatırlamasamda sonralar bu evə gəldik. Bu iki mərtəbəli geniş otaqlı bir ev idi. İndiki zamanda bu tip evlər xırda villa da sayıla bilər.Biz bura köçəndə dayı bildiyim yeni evlənmişdi.Mən onun bacısıoğlu kimi elə o evdə böyüməyə başladım.Mən qəmimi kədərimi burnumu əynimə daim gödək olan paltarların içinə soxmaqla əridərdim.Heç kəs məndən bu milçək vızıltımın səbəbini soruşmazdı.Paltarımın daim belə gödək olması tezliklə məhəllədə mənə qəribə bir ayama " rəqqasə" ayamasını qazandırdı.Göbəyimin daim çöldə olmasına görə bunu kimsə uydurmuşdu.Bu ayamanı on dörd yaşıma qədər xəcalət çəkə-çəkə daşıdım.

Dayımın evində mənə mətbəxlə yanaşı balaca bir otaq vermişdilər. Uşaqlığımdan divardakı əcaib kölgələrdən hürkə- hürkə yaşamağa alışdım.Dayımın arvadı burada kartof soğan və qış ehtiyatları saxlayar, birdə mənə yatmağa içazə verərdi.Bu otaqda xəyali kölgələrdən başqa bütün gecə xırçıltısı kəsməyən siçanlar da olardı.Bütün bu dağınıqlığın içində məni heç tək qoymayan bir ana xəyalı da var idi ki, bu xəyal yaddaşımın bir küncündə ilişib qalan bir ailə portretinin bir qanadı idi. Arabir yuxuma bir qadın girərdi: o yerdə çapalayır və dayanmadan mənim üç uşağım var deyə çığırardı. Bu yuxunu heç sevməzdim. Bu yuxunun gördüyüm gecənin gündüzündə mütləq başıma bir iş gəlməli idi.. Bu yuxu artıq mənim ehtiyat qalxanım və ulduz falım idi.Beləcə böyüyürdüm dayımın kalafalığında.Yerimi bilirdim, bilməyəndə bildirirdilər.Bu o qədər sürətlə baş verirdi ki, heç kim heç nə hiss etmədən hər şey yoluna, mən də soğan-kartoflu deşiyimə girərdim.İlbiz kimi sürünən həyatımın bir yeniliyi olmazdı ki,...Bayramlarda, seyranlarda əynimə alınan bir- iki təzə paltar və dayımın yanağına qondurduğu öpüşlər

olmasaydı bəlkə də dünya tam qaranlıq olardı.Heç kəs məni bəyənməzdi. Məhəllədə tam tək olsamda məktəbdə “ dördgöz” Eldar var idi.Biz ikimiz də əzik şapalaq altı “çumolar”idik. Mənim günü- gündən uzanan boyumun ətrafdakıları necə narahat etdiyini isə sonralar anladım.

Elə dərs oxuyan olmamışam amma bədii ədəbiyyatı sevərdim. Bəlkədə bir az cəhd etsəydim məndən yaxşı şair də çıxardı.Bu qabiliyyətimin öhdəsindən də məsuliyyətsizliim deyil, cəsarətsizliyim gəldi. Ağzımı açan kimi şapalaq təki yediyim sözlər mənim içimdəki çox şeyi məhv edibmiş. Lakin mən bunda da yanılmışammış... yəni bir gün məndən içəridəki mən.....

Və bir gün mən bu rəqqasə ayamasına üsyan etdim. Məni bu ayama ilə çağıran mütrüfün başını daşla elə əzdim ki, onun qanını təcili yardım maşını da kəsə bilmədi.Mən qan görmüş canavar tək yenidən hücum çəkdim ona. Istəyirdim parçalayıb dişimə keçirəm bu əclafı. Imkanım olsaydı illərin xıncını çıxarardım onun boğazından amma qollarımı dəmir kimi sıxan barmaqlar yalnız polis gələndə məndən aralaşdı.Şikayət etmədilər. Bəlkə də dayım xahiş etdi.Bax burası mənə naməlumdur.. Başına on tikiş qoyulmuş uşaq məhəllədə peyda olanda onun sarğılı başı hamıya görk oldu. Mən yenə göbəyim açıq , qarnımı qaşıya- qaşıya onlara baxırdım. Əmin idim ki, o an üzümə” hə, ağzınınzı açın cəsarətininz çatırsa dillənin”ifadəsi yazılmışdı.Elə o an o başıyarılmış mənə “dəvə” deyərək qaçdı.Bax bu dəvə ləqəbini anlamadım.pis idi, yaxşı idi?!. Əynimdəki idman köynəyini aşağı darta-darta çəkməçi Adilin yanında yerə çökdüm.O, əlindəki çəkmənin cırıq yerini gözəyə-gözəyə :- hə, rəqqasə nə kin varmış səndə. Dəvə kimi yeddi il sonra tüpürdün.Dəvə! hər halda o birisini görkəminlə qazanmışdın, bunu kişiliyinlə”

Mən çəkməçi Adlin yanından ayrılanda ürəyim snəmə sıxmırdı.Kişi adını qazanmışdım.dəvə- bu heyvanın adının mənə bu qədər ləzzət verəcəyini heç ağlıma da gətirməzdim. Kinim dastan oldu.Yanımdan ehtiyatla keçdi məhəllənin keçiləri.Sonrakı addım isə məni öz aralarına qəbul etmək oldu.Ta altı ildən sonra- o məşum toqquşmaya qədər məhəllədə heç bir problemim olmadı.

Mənim ata-ana problemim sən demə tək mənim qanlı yerim deyilmiş.Bunu bir xəncər kimi kürəyimə saplamaq üçün neçəsi fürsət gəzirmiş.

Gecə yenə o məşum yuxunu gördüm. Yenə o qadın üz-gözü qan içində çapalayırdı.Bu gün ehtiyat günü idi.Artıq körpüləri qaldırılmış qala kimi idim.

Gəncliyin verdiyi şövq bir başqa cürdür.Günəş səmadan bir başqa cür boylanır, yarpaqların tünd yaşıl rəngi, torpağın xoş qoxusu insanın gözündə bir ayrı cür olur.Sanki bütün havanı ciyərlərinə çəksən onun hamısını tutacaq qədər geniş olacaq ciyərlərin. Əsgərlikdən döndükdən sonra da köhnə adətimdən vaz keçməyib çökdüm çəkməçi Adilin köşkünün dibinə.

Əlimi gölgəlik edib ətrafa baxdım. Məktəbdən və ya əsgərlikdən sonra iş-güç sahibi olmayanların məskəni olan bu tində sanki öz sakinlərinə öyrəşmişdi.Adamlarsız çox miskin görünürdü.Adilin çəkmə köşkünün kral olduğu bu tin.

Desəm ki,səhv məndə oldu, yalan olar. Heç indi də tam xatırlaya bilmirəm hər şey necə baş verdi.Günəş çox parlaq idi.Qəfildən yanımda bir "murano"dövrə vuraraq saxladı.Təkərlərin altındakı toz dənəcikləri havalanıb yernən-göynən bir oldu.Gözlərimi mexaniki olaraq qapadım. Maşından düşən Rüfət- bir neçə  il öncə başını yardığım-şəstlə irəli yeriyib mənə:

-Ot istəyirsən?- dedi.

- Ehtiyacım yoxdur- mən bu sözləri bütün nifrətimlə dedim.

- Dəvə, səni sürüdəki eşşəyin quyruğuna bağlamaq lazımdır.-Rüfət kinayə ilə mənə dedi.

- Rüfət, qaşınırsan deyəsən. Get güzgüdə başına bax! (onun başındakı çapığın yerində tük bitməmişdi)Orada tük nədi heç ot da bitməyib.Əlindəkiləri get ora ək!- bu sözılərimə cavab olaraq Rüfət üstümə qolaylandı:

- Bir yetimə görə dilin yaman uzundur.

- Atam, anam yoxdu. Şəxsiyyətimə nolub?!

- Atan var, ay bədbəxt amma vay o atadan ki, atalığını danıb özünü dayı kimi qələmə verə-Rüfət nəhayət, ilan kimi zəhərini tökdü.

- Sən nə deyirsən, it?- mən yalnız o toz-dumanın içində Rüfətin məni vurmasını xatırlayıram.Toz yatanda ortalıqda nə Rüfət, nədə Muranosu var idi.Ağzımın qanını silə-silə qalxıb oturdum.Yediyim yumruq eşitdiyim sözün yanında heç qalırdı.Əgər həqiqətən dayım mənim atam idisə... Əslində nə baş verib ki o atalıqdan imtina edıb? Bəs bu məlumat bu itin əlinə haradan keçib? Qalxıb yerimdən özümdən asılı olmadan məhəlləni tərk etdim.O gün axşama kimi Notrdam qozbeli tək dolaşdım.şəhərin küçələrində. Özümə gələndə artıq qaranlıq çökmüşdü. Ayaqlarımı nə vaxt gəlib dənizə sallamışam, ondan belə xəbərim olmayıb. Dalğalar gəlib ayqlarıma çırpılır, sanki onları qucaqlamaq istəyirdilər.Bunları hiss edəcək və duyacaq vəziyyətdə deyildm. Zamanı itimişdim. Evə necə döndüm, yoli necə tapdım yaddaşımda bu barədə bir iz yoxdur.Gecənin bir aləmində əsas zala keçəndə dayım və arvadı  axşam çaylarını içə-içə söhbət edirdilər.Dayımın o ağarmış saçları ona həmişəki nuraniliyini verimişdi.Dayımdan fərqli olaraq bibimin üzü həbsxana divarları tək bum –buz idi. Onun heç nə ifadə etməyən üzündən çətin ki, nə isə bir şey anlaşılardı. Onun məndən zəhləsi getdiyi ya xoşu gəldiyini bu

keçən illərdə qətiyyən anışdıra bilməmişdim.Amma bu gün heç nə vecimə deyildi.İrəliləyib dayımla üzbəüz oturdum.O, mənim indiyə kimi belə hərəkət etdiyimi görmədiyindən əlindəki fincanı yanındakı stolun üstünə qoyub təəccüblə üzümə baxdı.Dayımın arvadı ilan kimi fısıldadı.Bu fısıltı qulağıma elə gec gəlib çatdı ki, elə bil onunla mənim aramda neçə zaman dolanbacı var idi. Qulaqlarım guruldayır,ürəyim bərk- bərk döyünürdü.Gözlərimin qarşısında rəngli işıqlar yanıb sönürdü.Dayımın sualedici baxışları cəmi iki kəlməyə sığıb üstümə töküldü:

-Nə olub bala?.

-“Bala”-bəlkə doğurdandan da bu ötən illərdə gercək ola biləcək sözü sən məndən əsirgədin. Bu gözəl otaqlarda yatan uşaqlarından məni ayırdın.Harri Potter kimi evin zirzəmisində öl sənin orada yaşayan siçan qədər də qiymətin yoxdur.Bax, bu münasibəti gördüm sizdən.

-Çörək itirən, sənin həddin nədir ki, bizimlə belə danşırsan- bibimin bayaqdan qulağımımn dibində eşidilən fısıltısı indi açıq- aydın zəhərləməyə keçdi.

-Sakit ol, aaaz- dayımın ötkəm səsi onu susdurdu-görək bu uşağın dərdi nədir. Hə, bala de görüm indi nə demək istəyirsən?

Mən aralığa çökmüş ağır sükutu nifrətlə qayçılayaraq:

-Mənim atam kimdir?  Əgər sənsənsə, bunu mənə dərhal de! Braziliya serialına döndərməyin və mən də bu evə tüpürüm gedim- dedim.

Dayımın arvadı bunu eşidərək “hiyy” edərək içini çəkdi. Dayım sakitcə üzümə baxdı və bu zaman onun üzünün necə saraldığını müşahidə etməmək mümkün deyildi. O üzünü arvadına tutaraq:

-Dur mənim dərmanımı gətir!- dedi. O, neçə illər idi ki qan təzyiqi xəstəliyindən əziyyət çəkirdi. Ani bir əsəbi pozğunluq onu xəstəxanalıq etməyə yetirdi. Onun dərman istəməsi evdə məndən başqa hamını bir- birinə qatdı.Dayımın uşaqları haradasa gizlənmiş gizli mühafizəçilər kimi tez meydana çıxdılar və dərmanı, suyu gətirdilər.Hamısının şərtləşmiş kimi tərs baxışları sanki məni bölmək istəyirdi.Dayım isə dərmanını içəndən sonra arvadına və uşaqlarına otaqdan çıxmaq göstərişini verdi. Sonra bundan vaz keçərək ayağa durdu və mənə arxasınca gəlməyimi işarə verdi. O, daim istirahət etdiyi kabinetin qapısını açaraq içəri girdi. Bura mənim də sevimli yerim idi, amma buranı mən ancaq yay tətillərində görərdim. Cünki yay tətilində dayımın o həbsxana nəzarətçısınə bənzəyən arvadı Gürcüstana- anasıgilə gedər və ev boş qalardı.Ev boş və qarnımın da yarıac olmağıma baxmayaraq yay tətilini dəli kimi sevirdim. Ona görə yox ki,

məktəb olmazdı. Ona görə ki, yay tətillərində dayımın bu zəngin kitabxanası mənə qalardı. Istədiyim qədər bu kitabxananın dadını çıxarardım. Dayım daim buradakı kitabları yeniləyir və beləliklə, yaydan yaya da olsam demək olar ki, bütün kitabları oxuya bilirdim.İndi yenə kabinetə girəndə əsgərlikdən bəri qoxusun belə almadığım bu otağa girəndə bir anlığa sanki hər şeyi unutdum. O, isə mənə fikir vermədən kitab şkafının aşağısındakı siyirtməni cibindən çıxartdığı açarla açdı.Oradan cildi clrılmış bir albomu çıxarıb stolun üstünə atdı.Sonra yumşaq kreslonu çəkərək oturdu. Mən dediklərimin bu albomla nə əlaqəsi olduğunu anlamadan onun üzünə baxdım. O, isə dərindən nəfəs alaraq albomu açdı və ilk səhifədəki şəkilin üstünə barmağı ilə döyəcləyərək dedi:

-Bizim nəsildə namussuzluq olmaz. Biz vicdansız hərəkət etmərik əgər bu olarsa biz bunun hesabını verəcək qədər cəsur böyüdüldük.Bu şəkildəki insanları görürsən- o yenə barmaqlarını onların üstünə döyəclədi- bunlar sənin ailəndir. Mən bütün bunları sənə deyəcəkdim, lakin əsgərlikdə nə isə bir axmaqlıq edəcəyindən qorxdum.

-Axı nə baş verir ki?- mən səbirsizliklə demək ilar ki, qışqırdım.

-Sakit bir az səbir. Heç mənim üçün də keçmişi xatırlamaq asan deyiıl. Bilirsən, yox yaxşısı budur mən səni hər şeyi əvvəldən danışım.

O, dərindən nəfəs alaraq yeni bir siqaret yandırdı və səbirsizliklə bir ah çəkdi. Üzünü turduşudub iyrənc bir şeydən danışacamış kimi ikrahla sözə başladı:

-Tarixin üzərindən tullanmaq ya da onu yox saymaq olmaz. Biz hər şeyin hesabını əvvəl-axır veririk. Ya bu dünyada, ya o dünyada bunun elə də fərqi yoxdur. Lakin zalımların cəzası bəzən uzun çəkir, bunu mən öz həyatımda gördüm. Indi elə bir məqama gəlib çatmışam ki, bıçağı boğazıma dirəmisən. Deyirsən qus . Bax mən bunu edurəm və olsun ki bu qusacaqlarım heç də sənin xoşuna getməsin.- O,bir anlıq söhbətinə ara verərək albomu əlinə aldı . əlini ağ qara şəkillərin üstündə gəzdirərək yenidən sol əlində tutduğu siqaretə bir qullab vurdu.mavi duman sifətinin qarşısında hörük kimi burulurdu.Mən nəfəsi tıncığmış adam kimi sanki gözlərimlə onu yeyirdim. O, isə orta əsr dərvişi kimi tam səbirlə sözünə davam etdi:

-1988-ci ilin noyabrın əvvəllərində Leninikanda qəribə bir şaiə yayıldı.Hə sən Leninikan harada, biz haranın qaçqınıyıq bunu bilmirsən. Sən və sənin timsalında bütün gənclər bizimkimiləri “yeraz” yəni Yerevan azərbaycanlısı kimi tanıyırsınız.Sənə bu gün tarix dərsi keçmək fikrim yoxdur Onsuzda boş tarix dərslərindən hamımız bezmişik.Sənə bunu danışmaqda məqsədim baş verən hadisənin harada və nə cür olması haqqında məlumatının olmasıdır.Leninikan Ermənistanın şimalında Azərbaycanın qərbində yerləşən bir bölgədir.Bu

bölgənin tərkibində yerləşən Spitakda da biz yaşayırdıq. Əslində oranın adı Spitak deyildi. Bunu sonralar Ermənilər Hamamlı adını dəyişərək qoymuşdular. Biz ora yenə Hamamlı desək də, bu dəftərdə- kitabda Spitak adını daşıyırdı. Nə isə harada qalmışdım hə... Hamı burada böyük bir qırğının olacağından danışırdı.Əslində bunu heç kəs yüksək səslə müzakirə etmirdi, pıçıldaşşırdılar desək daha doğru olar.Amma bu qırğını kim edəcəkdi nə üçün olacaqdı bunun izahatını kimsə bilmirdi. Bir qapıya çıxdığımız qonşunun səni öldürə bilməsi nə qədər absurdusa, biz də ermənilərin bizi öldürə bilməsinə elə yanaşırdıq. Baban- nənən Şuşadan qayıdanda maşın qəzasına düşmüşdülər.Atam elə orda ölmüşdü, anam yəni nənən isə bir ay sınıqlarından əziyyət çəkərək dünyasını dəyişmişdi. Ondan sonra mən də Leninikandan köçərək Spitaka anangilə- sizə gəlmişdim.Ötən –bitən altı ay ərzində elə bu ailənin bir parçasına çevrılmisdim. Mən də Spitakda yaşaya-yaşaya bu şaiələri eşidirdim amma təəssüf ki, buna inanmayanların cəbhəsində yer almışdım. Amma bir səhər............

O siqaretinin topalanmış külünü külqabıya boşaltmağı unutmuşdu.Siqaretin külü qəfil üstünə dağılanda bunu qayğısız şəkildə üstündən üfürdü.və bu zaman mən onun üzündə həddindən artıq bir əzab sezdim. Hər halda artıq hadisə haqqında təxminlərim yaransa da yenə onu dinləməyimdə davam etdim. O siqretin kötüyünü külqabıda əzərək, yenə sağ əlinin altındakı albomu sığalladı və sözünə davam etdi:

- Mən səs –küyə yuxudan ayıldım. Həmişə orta zalda televizora baxa- baxa yuxuya gedərdim amma öncəki axşam  sənin qulağının ağrısı heç kəsmədi. Səni bütün otaqlarda gəzdirdik hamı demək olar ki, sənin üçün səfərbər olmuşdu. Iki yaşına təzə keçmişdin. Heç unutmaram elə şirin uşaq idin ki, mən sizə gələndən qucağımdan enməzdin, mən isə sənin daim süd iyi verən ağzını öpər-öpər doymazdım. Gecə bacım- bədbəxt Səlimə yorulub elə divanın böyründəcə yuxuya getdi. Mən səni onun qucağından götürüb arxa otağa keçdim. Elə orada da uşaqların otağında da yuxuya keçmişəm. O səhər qopan səs- küy sənin yuxunu poza bilmədi.Mən pəncərədən baxanda əli avtomatlı bir neçə şəxsin bacımgili- üç uşağı və yeznəmizi apardığını gördüm Bir şey anlamadan özümü bayıra atıb nə baş verdiyini araşdırmaq istəyirdim ki, qəfil yadıma gəzən şaiələr düşdü. Yavaşca düşüb səni  sandıqla çarpayının arasında düzəltdiyim yerə qoydum. Əslində bunu nə üçün etdiyimi anlamırdım, yəqin ki, bu mexaniki hərəkətin arxasında  Allahın o qeyri adi möcüzəırından biri durur.Sonra sürətlə evi tərk etdim. Dolayı yolla onları izləməyə başladım.Mənim getdiyim yoldan onları görə bilrdim. Bu silahlı və saqqallı adamlar evlərə girir və qarşılarına uşaq- böyük fərq qoymadan hamını avtomatın qundağı ilə itələyir, müqavimət göstərənləri elə yerindəcə güllələyirdilər.İnsanlar səslərini udmuş və qurbanlıq qoyun kimi səssiz – səssiz  onların önünə düşərək gedirdilər.Onların hamısını Spitakın ucqarındakı sıldırımın yamacına topladılar. Mən kənardan hələ nə baş verdiyini anışdıra

bilmirdim. Bax, onda onda gördüm ki, kaş görməyəydim- o daha davam edə bilməyərək hönkürdü. Mənə nə onun danışdığı, nə də göz yaşları çatırdı.Sanki mən televizorda maraqlı bir film izləyirdim və bu zaman ortalığa reklam girdi. Bəzən özümdəki bu zalımlığın haradan gəldiyini anışdıra bilmirəm.Elə indi o zalım damarım tutmuşdu...Dayımın bu səsinə dayımın arvadı içəri soxuldu. O cəld özünü dayımın yanına verərək saxta bir nəvazişlə(hər halda mənə elə gəlidi) ona bu qədər narahat olmanın ziyanını xatırlatdı. Onun hər gözündə bir ifadə var idi. dayıma baxan gözü şəfqət saçırdısa, mənə baxan gözü sanki ilan yuvasına baxar kimi baxırdı.Dayım isə əli ilə ona çıxmaq işarəsi verdi. Dayımın arvadı yarıkönülsüz otağı tərk etdi. Bu evə gəldiyimdən bəri ilk dəfə idi ki bu kabinetdə mən qalırdım, O çıxırdı.Hər şeyin əksinə çevrildiyi bu axşamda mən daha nələri görəcəkdim, bu mənə mübhəm idi.Dayım gözünün yaşını silləræk öskürdü. Həmişə beləydi, azacıq həyacan keçirən kim onu quru öskürək boğurdu.Öskürəyi kəsən kimi sözünə davam etməyə çalışdı

-Onda gördüm ki, uşaqları o məsum körpələri anaların qucağından qopararaq bir yerə topaladılar. Bu zaman mən sıldırımın düz yanında böyük boru gördüm. O boru ora haradan gəlib çıxmışdı?!.. O nəyə lazım idi və mən onu niyə indi görürəm bunu anlaya bilmədim. Sanki bir sehirli əl o nəhəng borunu ora gətirmişdi. Eldarı- səndən böyüyü ananın qucağından zorla qopartdılar.Atanı müdafiəyəyə keçən kimi güllələdilər. Bütün bunları etdikcə qəh-qəhə çəkib gülür və içki şüşələrini təpələrinə çəkirdilər.Mən sakitcə durub izləməkdən başqa bir yol tapa bilmədim. Bəlkə də cəsarətim çatmadı qorxdum.O körpələri hamısını, sən inanırsan, hamısını o borunun içinə doldurdular. Kaş güllələyəydilər. Sən təsəvvür edə bilməzsən onlar nə etdilər. Onlar o körpələri çığırda-çığırda o botrunun içinə doldurdular və....... və borunun ağzını suvarkaladılar..Mən o fəryadları öləndə də unumda bilməyəcəm. Analar çığırır, atalar tərpənən kimi başlarından bədənlərindən güllə alaraq qan içində yerə sərilirdilər.Sonra o borunu içində -sonradan sayını öyrəndim- yetmiş uşağı uçuruma atdılar sonra...

-Dayan!- deyə mən onun sözünü kəsdim. – indi sən deyirsən onların hamısını atdılar. Yəni bu doğrudur? Əgər doğrudursa bunu mənə niyə əsgərlikdə olanda demədin? O boyda əlimdə snayper var idi. Ən azından bir iki erməni zıraması öldürərdim, ürəyim soyuyardı.

-Bax elə buna görə də demədim.məsənin tamam başqa çözümü var.

Mən susdum. Niyə susdum. Bəzən insanın deyəcək və saçacaq o qədər çox sözü olur ki, lakin onları düzüb –qoşub deyə bilmirsən. Bax, mən o vəziyyətdəydim. Içi lava ilə dolmuş vulkan kimi idim.Sonra dayım nələrsə danışdı.O, anamın təsəvvur edin üç balası uçuruma atılandan sonra onları mənim üç balam var sözünə inandırmaq üçün qabıqdan çıxdığını anlatdı.Onun son sözləri indi də beynimdə dumanlı şəkildə dövr edir.

-Mən ermənilərin evi axtarmaq niyyəti ilə yola çıxdığını görəndə mənə əvvəl heç nə çatmadı.Qəfil xatırladım. Səni xatırladım. Evimizdəki dördüncü uşağı xatırladım.Evə sarı qaçmağa başladım. Elə bil yollar ilana döndü bitmək bilmədi. mən artıq evə gələndə artıq gec idi. Evi axtarıb sonra da od vurub getmişdilər.Bu qədər kinin arxasında nə dururdu. Bunu indi də anışdıra bilmirəm. Insan nəyə görə qatil olar....,? Mən özümü tüstünün- dumanın içinə atdım. Evin altını ustünə gətirmişdilər. Səni tüstüdə bayılmış tapdım.Yəqin ki, sandığın arxasında bir uşağın olması onların ağlına gəlməyib, ya da Allah sənin yaşamanı istəyib.əni götürüb oranı tərk etdim. Mənim onları müdafiə etməyə nə gücüm yeti nə də cəsarətim. Həyat film deyil ki,,,, həyatda adətən şər qələbə çalır. Mən gecə yarıya kimi Spitakın ətrafında girləndim. Gecəyarı o dəhşətli qətliam törənmış yamaca gəldim. Qaranıqda heç nə sezilmirdi. Qaranlıq əjdaha kimi uçurumu udmuşdu. Ürəyimdən elə keçdi ki, özümü ora atib öldürmək.bax ona da cəsarətim çatmadı.- dayımın səsini yenə həminki quru öskürək boğdu.Dayım hey öskürdü, öskürdü və öskürəyi kəsmədi. Sonra dayım boğulmağa başladı, sonra təcili yardım gəldi. Sonra.... bu sonraların hamısını məm hissiyyatsız halda izləyirdim. Ətrafımda adamlr on dəqiqə boyunca o yana bu yana qaçdılar sonra hamısı yoxa çıxdılar.Mən isə bilmirəm nə vaxtsa özümə gəldim və oranı tərk edərək otağıma getdim. Yatağıma uzanıb sadəcə olaraq ölmək istədim. Lakin insan ölmək istəyəndə  sanki ölüm də beş ayaq borc alıb ondan kilometrlərcə uzaqlara qaçır. Bu da ölümün gicikliyidir. Mən ölümlə həyatın arasında o gecə bir sonuca vardım. Getmək. Ayağım tutduqca başım getdikcə getmək.

Artıq bir sutka sonra mən Rusiyanın çöllərinə külək kimi sovrulan qatarın içində idim.Hamının əvəzinə yaşamağa gedirdim . Əsgərlikdən dönəndə Biləcəridə bir əsgər yoldaşım onunla Sibirə getməyimi mənə təklif etmişdi. Mən isə buna gülərək etiraz etmişdim. Bu təklifi heç bir ay keçməmiş dəyərləndirəcəyimi xəyal belə etməzdim. Dayımın evini tərk edəndə onun salamat olub hələ də həyatla təpikləşmək niyyətində olduğuna arxayın oldum. Hər halda kiminsə ölümünə səbəb olmaq heç yaxşı hiss deyil. Evə dönüb paltarlarımı yığışdırdım və bir də . bir də dayımın kitabxanasından Tolstoyun “ Hərb və Sülh” əsərini və  albomdakı mənim aralarında olmadığım o ağ- qara şəkili götürdüm.

***

Bu dəfə bura gələnləri heç kəs bura sürgün etməmişdi. Sibirin bu soyuq çöllərinə hər kəsi bir səbəb dartıb gətirmişdi.kimi çörək ücündan, kimi daha çox pul istəyi. Mənim kimilər isə canını qoymağa yer tapmayıb bura gəlib çıxmışdı. Yol çəkimi ilə məşğul idik.Ən pisi isə burada ermənilər də var idi.Dişim bağırsağımı kəsə-kəsə birtəhər içimdəki kini yola verməyə

çalışırdım.Onlar da “Qarabağ  bizim müharıbəmiz deyil” deyib özlərini qoruyudular.Amma bir gün dananın quyruğu göründü.

Artıq bura gəldiyimiz iki ay olmuşdu. Yolun əsas hissəsi təhvil verdiliyinə görə axşam şirkət böyük qonaqlıq verəcəkdi. Geçə yenə o qadın yuxuma girdi. Bu dəfə nə çığırmadı, nə çapalamadı. Üzümə baxdı və xeyli gülümsədi sonra da ağ işıqlı dumana qərq oldu.Bu əlamət ya nəyinsə başlanğıcı ya da sonu olmalı idi.Yuxudan qalxan kimi ağlıma gələn fikir bu oldu.Gündüz hər şey yolunda idi. Gecə qonaqlıqda biz ermənilərlə paralel stollarda oturmuşduq. Qonaqlıq irəlilədikcə hərə ağzına gələni danışırdı.Azca içmişdim. Birdən qəfildən qarşıdakı stoldan qırx yaşlarında olan Raçik adlı erməni qalxıb içki badəsini özündən də yuxarı qaldırıb:

- Bunu arsakda qəhraman kimi ölən ermənilərin şərəfinə içək.- ətrafdan qalxan yarırus yarıerməni səsləri onun səsini batırırdı.Artıq bizim stolda oturan bəzi gənclər etiraz etmək üçün qurcalandılar amma Raçikin yenidən gurlayan səsi bizi gözləməyə məcbur etdi.Şəxsən mən dünənə qədər ermənilərin içində ən yaltağı olan Raçikin nə yumurtalayacağını maraqla gözləyirdim.
- Biz ermənilər Arsakda türkləri öldürərək öz övladlarımımzın qisasını almışıq. Mənim üzüm övladlarımın yanında ağdır çünkü mən Arsakda nə etdiyini bilən oğlanlardan olmuşam.Bir hadisəni heç unutmayacam. Mən bütün ömrümü Spitakda keçirmişəm.

mən Spitak sözünü eşidəndə diksindim.Stoldan duraraq onu ayaq üstə dinləməyə başladım.O isə heç kəsi saya salmadan davam edirdi. Deyəsən içki onu təmiz dəli eləmişdi:

- Oranı və adamlarını beş barmağıım kimi tanıyıram.Orada biz 1988-ci ildə yetmişə yaxın türk vələdini boruda qaynaq edib uçurumdən atdıq. Oradakı türklərin içində heç unutmadığım bir qadın var idi. Gənçliyimin o qaynar çağında onun öldürülməsini heç istəmirdim. O çox gözəl idi.Balalarının üçünü də  alıb boruya qapatdıq lakin qonşulardan biri onun bir uşağının da olduğunu dedi və o avtomatın qundağı ilə qadını vurdu. Qadını o ki var döydülər(ərini artıq öldürmüşdük) amma tərs boynuna almadı. Ölənəcən mənim üç uşağım var deyə çığırırdı.amma mən də əmin idim ki onun dörd övladı var. Mən bu gün burdakı türklərə görə də həm bizim qəhrəmanların sağlığına içirəm həmdə gözəl və qorxmaz türk qadınlarının şərəfinə badə qaldırmaq istəyirəm. Eşq olsun..

Mən bu sözlərdən sonrasını xatırlamıram. Gözlərim qarşısında hər kəs dumana büründü. Yalnız bir insanın üzü bu qədər insanın içində böyüdü, böyüdü və bütün dünyanı götürdü. Mən nə zaman onların stolunda oturan polisin qoburundan tapançanı götürdüm nə zaman onun sifətinə atəş açdım bilmirəm. Birçə onu bilirəm ki, onu parçalanmış başının içki

zəhərləndiyi stola enməyi sanki saatlar çəkdi.Mən isə silahı kənara ataraq elə o stolun üstünə əlimi qoyaraq o ki var qusdum. Bədənimdəki qisası, kini,üfunəti qusdum.

## Nigah yaşı on səkkiz və ya Yəqin

Hani nə yazacağını bilməzsən ..... Dolanıb durarsan bir mövzunun kənarında. Sanki kimsə sənə lazım olan qapını baglayıb və açarını hara gəldi vızıldadıb....... Bax mən indi eləyəm....Sanki mən altına ördək yumurtası qoyulmuş hindquşu kimi suya tullanıb üzən balalarımın ardından qışqırıb özümü dağıdıram. Əslində anlamadığımız işlər də elədir . Ördək balaları üzər, biz isə anlamsız təlaşımızda.

Dolanıb dururam mövzunun kənarında .bir atılsam. Bax budur məsələ: dönsəm uçurum, atılsam uçurum. Qurtulma ehtimalım sıfıra bərabər. Hadisələrin başlangıc ucunu ələ keçirə

bilsəm...........

Hamı kimi bizimki də bir eşq. Məni onun zindanına atan eşq .
Əslində eşq insanıın içində qövr edən bir əzaba yanlış adın qoyulmasıdır. Bəlkə də eşq elə bu deməkdir.

Eşq – bütün yaradılışların dib nöqtəsi, məsuliyyətdən azad, azadlıqdan məhrum bir duyğu.....

Ən pisi isə zənnin aldanışına uğramaq . Mən arxayın sevgimin badəsini içərkən ,yalnış zamanda yalnış adamla bir ömrü xərclədim. Budur məsələ: yalnış yumurta, yalnış ana ,boşuna təlaş....

- Mən səni sevmirəm. Biz ayrılmalıyıq.
- Bu zorla deyil ki, mən bu evə gəlmək istəmirəm.

Azərbaycanda boşanmaların qarşısını almaq üçün yaş həddinin on səkkizə çatdırılması qarşımızda duran vacib məsələdir.-televizordan ucalan səs sanki üçüncü şəxs kimi söhbətə qarışırdı.

Əlindəki telefondan gələn mesay cikiltisini kəsmək üçün baş barmağını səssiz düyməsinə sıxmışdı. Bunu hiss etdiyimi duyanda əlini qeyri –ixtiyari cibinə apardı. Utandı deyəsən.

- Bizim uşaqlarımız var axı?!........
- Onlar belə gözümdə deyil. Mən başqasını sevirəm.
- Axı sən mənə də sevirəm deyib evlənmişdin. Sən qırx yaşında etdiyindən utanmırsan?

- Mən səninlə necə evli olmuşam, bunu belə anlamıram

Nigah yaşının on səkkizə qaldırılması....-əlimi televizorun qapat düyməsinə atdım. Otağa dəryalar qədər dərin bir sükut çökdü.

- Bəs biz?! ...........
- Aliment ödəyəcəm. Mən məsuliyyətdən qaçmıram ki.........

Daha sonra uzun bir sükut. Içimdə açılan bir böşluğun divarına  bir boşanma kağızı asdılar. Bu qədər sadə. Yəni biz də sıradan boşananların sırasına qatıldıq. Statistikanın bir rəqəmi də bizdən ibarət oldu. Bütün hisslər , yaşanmışlar balaca bir kağıza sığışdı. Cəmiyyətin bir şikəsti də mən oldum:boşanmış qadın..............

Nədən doydum ki......

Insanın ağlı bir az qanunlara satılmış casus kimidir.. Ürək isə yağışda büzüşmüş tüksüz cücələr tək bir ümidlə boylanır . Boylanır ki, bəlkə yağış yaxın saatlarda kəsəcək xəbərini ona kimsə yalandan da olsa desin.

- Sən boşanan ilk qadın deyilsən ki,,
- Bunlar primitiv hadisələrdir . Hər kəsin başına gələ bilər.
- Sən yəqin lazımı diqqəti ərindən əskik etmisən.
- Sən yəqin.......sən yəqin......

Bu yəqinlər və ağlımın casusluğu ürəyimi təpiklər altına salmışdı. Mən içimə çölümdəkilərin hesabını verib qurtara bilmirdim

Sükut. Sükut.

Sonra telefonlar susmadı. Həyat öz axarına düşdü. “Mənim otuz yaşım var. Mən gəncəm hər şeyi yoluna qoya bilərəm . Məni bir natəmiz birinə dəyişibsə ............ Mən hər halda onun tapdığı qadından daha gözələm. Ən azından bunu mənimlə on il yaşamağı sübut edir.   Özünə haqq vermələr çoxaldıqca, həyat məni ağuşuna daha sürətlə almağa başlayırdı.

-Iş qadını olmaq öz ayaqları üzərində durmaq ...........

-Onun alimenti mənə lazlm deyil, alsın başına çaxsın

-Çox gözəl qadınsan, sən müstəqilsən  istədiyini edə bilərsən.

- Özünü yığışdır! Son zamanlar qulağıma axmaq- axmaq sözlər dəyir- gözəl komplimentlərin ardından pis hədələr gəlməyə başladı.

Nə yalnış idi ki, ........Harada yalnışa yol vermişdim?!.... Əslində mən olduğum vəziyyəti qəbullanərkən hər şey onun üçün bitməyibmiş.....Əslində sönmüş bildiyim bir vulkanın ta ətəyində yeni yuva qurmağa çalışirdım. Çifayda....

Mən balasını hər dəfə div yeməsinə baxmayaraq, hər yaz bala çıxaran simurq təki "bəlkə alındıların" ardınca yuvaralanarkən kimlərinsə mənim üçün hazırladığı  planlarının içində özümü tapdım.

Insanlar əlləri yetməyəndə ya iftira atarlar ya da ...........İkinci ya da yüksək insanlara məxsus bir hərəkət olur. Yəni sadəcə hörmətlə çəkilmək...Məğlubiyyəti qəbullanmaq. Bu hər kəsin edəcəyi iş deyil. Mən eşqdə məğlub oldum . Budur meydan mən çəkilirəm.

Amma insan keçmişindən qurtula bilməz ki,. Bu qeyri-mümkün bir işdir. Keçmişin səni bir kabus təki izləyəcəkdir. Sən onu ha gizləsən ,......O bir cəsəddir sən ondan ha qurtulsan:  onu üzə çıxaracaq bir yalnış hərəkətin mütləq olacaqdır.

Mənim də keçmişim bir anda gələcəyimin içində peyda oldu. Silahını üzərimə qaldırdı.

-Eşitdim ərə gedirsən?

-Bundan sənə nə? Sən gedib evlənərkən mənə gənəşdin?!

-Mən kişiyəm. Kişi ilə qadın bir deyil.

- Mən sənin bu hərəkətini necə başa düşüm? Məni hədəliyirsən?

-Bu gün hər şey bitəcək. Yəqin camaat da mənə haqq qazandıracaq.

- Sənə camaatın yəqini lazımdı yoxsa ......... niyə məndən əl çəkmirsən ?... Getdin qoşuldun birinə . Mənim öz həyatımı yenidən qurmağa haqqım yoxdur?

***

Indi mən parkda qanlar içində sərilib qalmışam . Ətrafda yenə yəqinlər səpələyən insan toplumu var . Mənim gözüm isə səmanın lap dərinliklərinə dikilib qalıb.Səma nə qədər mavi nə qədər gözəl imiş .......

Gülümsəmək istədim. Sonra bədənimə boşaldılan güllələri xatırladım. Əlim qatı bir mayenin içində idi. Yəqin ki qanım idi. Yəqin ki... Bir təbəssüm qondu dodağıma. Mənim bu yəqini bol insanlardan fərqim nə idi ki........ Bir yəqin ucundan mən bu gün burada uzanmışdım. Tərpənə bilmirdim.

Sonra təcili yardım gəldi. “Məni aparmayın! Mən yaşamaq istəmirəm.....”. Danışdırmadılar. Ağzıma oksigen ambusunu basdılar.

Amma bir şeyə yəqinim dəqiq idi: Mən üzərimə güllələr saçan bu adamı hələ də sevirdim..

. Ən dəhşətlisi isə deyəsən son nəfəsimdə belə ona bir şərqli beyni ilə haqq qazandırırdım....................

## On üç yaşlı insan

Soyuq küçələrin möhkəm yaddaşı var idi. Onu heç unutmazdılar ki,... Özünü bildi-biləli buralarda böyümüşdü. Ona -“sənin qanında it genləri var”- desəydilər buna təccüblənməzdi. Bu qışda soyuq, yayda qaynar küçələrin “insan” adlı iti  idi. Onun illərdir yuyulmamış üzü bu küçələrin daşları tək yağışlar yağanda sevinirdi. Ovucları daim açıq, gözləri yazıqlıq ifadəsi ilə dolu olardı. O, bu meqapolisin cazibədar sifətinin “dilənçi” adlı şıramı idi. Bu şıramı şərqin qoynundakı bu avropa şəhərinə elə  buranın da yaradıcıları atmışdılar. Bəli, O bu meqapolisin dilənçi adlı gözmuncuğu idi.

Haradan gəlmişdi , göydənmi düşmüşdü, yoxsa elə bu şəhərə də bir dilənçi torbası cırılıb da  düşmüşdü?!

Keçmişi yox idi! Gələcəyi də yox idi!

Onun üçün bu gün var idi. O, bu günün övladı idi.

Səhərin qoynuna günəş doğmamış, gecənin qınına girmiş dilənçi topluluğu oradan çıxaraq, şəhərin canına birə kimi daraşardı. Onun üçün öz bildiyi,  on üç il belə keçmişdi.

Ad günü olmazdı. Doğulduğu yer kimi, doğulduğu zaman da onun üçün mübhəm idi. Ad günü olan  insanlar onun üçün dilənməyə daha avantajlı idilər. Vəssalam.

Zaman onu da, bu şəhərin dolanbaclarında hərləyə- hərləyə qarnında əridirdi.

Ona edilən müraciətlərin ən yumşağı “ rədd ol” idi. Əl-ayaq təmasından isə ən yaxşı tanıdığı təpik idi.

Bu səhər də, günəşdən erkən oyanıb tərk etdi məskənini. Payızın yelləri Bakının saçlarını qarışdırıb, ətəyini qaldıra-qaldıra, bu səhərdə öz sataşmağında davam edirdi.. Dünənki planı verə bilməmişdi. Bir təpiklə canını qurtarsa da, bu günü başqa cür qurtarmalı idi. Külək pərişan saçlrını qarayanız üzünə dağıdıb, ona da sataşdı. Amma O bu gün bütün bunları görəcək vəziyyətdə deyildi.Pul! Pul bu günün yeməkdən və küçədə oturub insanlara tamaşa etməkdən də, daha vacib məsələsi idi. Universitetə, işə və daha bir çox yerlərə tələsən insanlar ona fikir vermədən yanından o yana bu yana ötürdülər. O insanların bəzisinin üzündən kədər, bəzisinin üzündən yarıxöşbəxtlik, bəzilərinin üzündən isə onun anlamadığı nələrsə yağırdı. Yenə pul üçün ona aid küçələrdə insanlardan sallaşmağa başladı. Əllərinə toxunduğu bəzi yaraşıqlı xanımlar cəld çantalarından çxardıqları ətirli dəsmallarla onun təmas etdiyi yerləri silərdilər. Bu səhər də eyni mənzərələr, eyni hərəkətlər. Daha bunları dərd edəcək vaxtı da yox idi.

Plan!

Plan! Bu axşam da yerinə yetirilməsəydi döyülməyi daha sərt olacaqdı.

Universitetin qarşısında toplanmış gənclərdən yan ötmək istəsə də, bir ümid onu onlara tərəf itələdi.

-Siz sevdiklərinizin canı, bu sabah məni sevindirin. Nooolar- həmişə əzbərində olan sözləri işə saldı.

-Aaz bəri gəl- gənclərin arasından ən balaca boylusu ona səsləndi.- bəri gəl mən deyəni et, gör sənə nə verəcəm.

“Verəcəm”- bu sözün sehirli qüvvəsi onu bir anda gənclərin ortasına itələdi.

-Gözəl, bax! Bu əyri gədəni öpsən sənə bu yaşıl pulu sənə verəcəm-həmin gödəkboylu onun gözündə iri yağlı tikəyə çevrilmiş əskinazı sifətinin qarşısında yellədi.

-Əə, rədd ol yox bir- ona göstərilmiş oğlan çığırdı.

-Əə əzik ,atamın canıycın yüz dollar da sənə verəcəm. Bax, cıqqılı Beyoncedir. Gödək boylu əlini onun üzündə gəzdirib, çənəsindən tutub qaldırdı. Gəncin əli o qədər yumşaq və isti idi ki, bir anlıq özündən asılı olmayaraq canı titrədi. O an anladı ki, bunlar ona pul verməyəcəklər. Istədi şütüyüb aradan çıxsın lakin həmin gəncin əli sürətlə çənəsindən sürüşüb, kəlbətin kimi qolundan yapışdı.

-Az, sən bilirsən qəşəng geyindirilsən, yuyundurulsan nə qəşəng olarsan. And içərəm ki, sən qaraçı deyilsən.Ə, bir bunun gözlərinin alalığına, dərisinin qarayanızlığına baxın- bunu deyərək onun sifətini əllərinin arasına alıb, onun bərabərincə yerə çökdü. Bu hərəkətdən onun canı lap titrədi. İlk dəfə idi ki, kimsə onu gözlərinə baxırdı və ilk dəfə idi ki bu bir gənc oğlan idi.Canına özünün anlamadığı istilik qarışıq titrətmə gəldi.

-Səlim, gözlə vurularsan. Yavaş- ətrafdakı digər gənclər necə səs-küy saldılarsa O, qəfil qızı buraxaraq:

- Səndən nə əcaib iy gəlir. – deyib cəld əllərini digərlərinin həmişə etdiyi kimi yaş salfetlə silməyə başladı.Oradan qaçaraq neçə aralandısa bir də iki küçə o tərəfdə dayandı.Nəfəsini almaq üçün səkiyə çökdü.Ürəyi quş balası tək sinəsində çırpınırdı. Qarşısında bir dükanın böyük bir vitrini rəngli paltarlarlı manikenlərlə sanki gəl-gəl deyirdi.Qalxıb yerindən vitrinin önünə gəldi. Paltarlar əvəzinə, şüşəyə düşən rəsminə baxdı.Son zamanlar bədənində gedən dəyişikliklər, üzündə əmələ gələn sızaqlar ona nədənsə xəbər versə də bunun nə olduğunu hələ anışdıra bilməmişdi.Bayaq o gənclərin yanında da, oldu həmin şey. Sanki birdən tənəffüs etdiyi havanın da dadı dəyişərdi, içindəki o qəribə hiss tərpənəndə. Bu acmaq, susamaq kimi bir hiss deyildi. Bu bütün yeniyetmə qızlarda baş verən əsrarəngiz təbii bir qüvvə idi. İndi yenə oksigenin başqa dad verdiyi aləmdən baxırdı vitrin şüşəsinə.Mənsub olduğu dünya az qala yadından çıxmışdı ki, qulağınım dibində "rədd ol" kəlimələri şaralaq kimi partladı. Dabanına tüpürüb qayıtdı həmin doğma küçələrə.

Axşam düşənə qədər lazım olan məbləğin demək olar ki, yarısını toplamışdı. Tez-tez dayanıb topladığı pulları sayır və saydıqca ona elə gəlirdi ki, bir sehirli əl onları mütləq artıracaq.Yarıümidlə özünü işdən evə ya da haralarasa tələsən insanlara çırpırdı. Bu gün pulun azalmasından qorxaraq heç nahar da etməmişdi. Aclıqdan mədəsi sıyrılıb gedir, gözünün qarşısında sarı nöqtələr oynayırdı. Son bir şans. Günəş artıq yatağına doğru gedirdi. Ümidinin son damlasını içirdi ki, qəfil qarşıdakı restorandan bir topa insan çıxdı.Dayanmadan gülüşür, ətrafa xöşbəxtlik səpələyirdilər. O da instiktiv olaraq onlara tərəf irəlilədi. Yolu keçmək üçün keçidə girməyə qorxdu. Qorxdu ki, keçiddə itirəcəyi vaxtda onlar çıxıb gedərlər.Özünü yola atdı. Dörd qanadlı işləyən yolun birincisini keçdi, ikincisini keçdi üçüncüsünü.......

Üçüncüsünü keçəndə sanki üstünə bir canavar düşdü.Çox əcaib bir vıyıltı eşitdi. Sonra yerdə olduğunun fərqinə vardı, sonra sinəsinin üstündə yekə bir təkər gördü. Bu təkər ona o qədər nəhəng gəldi ki, elə bildi üstünə dünya yıxılıb. Çapaladı. Tora düşmüş balıq kimi çapaladı.Tərpəndikcə heyi kəsilir, ağzından qan şoralanıb yerə tökülürdü. O can atdığı topa insan

da, başqa digər insanlar da hamısı onun başına toplaşdı. Əvvəllər bir balaca diqqətdən ötrü qabıqdan çıxardı indi isə ......

Polis gələndə artıq hamı dağılmışdı. Ölən dilənçi idi. Bu hər kəsi oradan dağıdacaq qədər tutarlı dəlil idi. Bu nəhəng "cip"i kobud şəkildə üstündən çəkdilər." Canı it canıdır hələ də ölməyib" – deyib onu da kənara sürüdülər.Yolu yarımsaat sonra gediş-gəliş üçün açdılar.

Onun üçün geçikmiş təcili yardım gələndə, mələk ruhu dilənçi cildini artıq tərk etmişdi.

## Qardələn

-Adam öldürmüsən heç?- sualımın necə səfehcəsinə səsləndiiyini hiss edib tez susdum.

O, çapıq-çapıq olmuş sifətini soyuq ifadə ilə mənə çevirdi. Protez qolunu stola söykəyərək üzümə baxdı.Gözlərində anlamadığım dərin bir ifadə yarandı.

-Müharibədə olmuş birinə belə sual vermək axmaqlıqdır. Unut unut.- Mən əlimi yelləyərək ona dedim.

Mən verdiyim sualı unutmağa çalışanda O, yavaşca dilləndi:

- Öldürmüşəm Bir dəfə olub. Əgər ona da, adam demək mümkündürsə...- onun cavabını uzun bir sükut böldü.

Həmişə beləydi. Danışdığını nadir hallarda görərdik.Qısa və Kəsə. Onu hamı belə tanıyırdı. Sükutundan daha danışmayacağını gözləyirdim ki, O, barmaqlarının arasında titrəyən siqaretə dərindən qullab vurub davam etdi:

-Biz müharibə başlayanda beş nəfər idik. Könüllü beş nəfər. Beşın biri Mardakert döyüşlərində itkin düşdü. Izini tapa bilmədik. Heç elə bil belə bir adam yox imiş. Yoxluğuna özümüzü öyrəşdirməmiş, o birisini iki gün sonra snayperlə vurdular. Bax, onda ilk dəfə bir beyin üstümə dağıldı.Qan qarışıq lax yumurta qoxusu verən beyin barmaqlarıma yapışıb qaldı. O isə öləcəyinə inanmırdı. Qollarımın arasında üşüyə-üşüyə can verdi.Mən onu, mənim qucağımdan dartıb alana qədər "şşşşşş" deyərək sakitləşdirdiyimi zənn edirəmmiş. Bunu sonralar yarıqaranlıq xatırladım.

Yenə növbəti döyüşlərdən birində idik.Uzun bir gurultudan sonra düzənliyə ölüm sükutu çökdü. Parçalanmış cəsədlər, yerə- yurda səpələnmiş boş gilizlər, insanın insanı gəmirdiyi bu yerə fevral küləyi bütün nəfəsi ilə üfürməyə başladı. Sağ qalanlar ağır yaralıları daşıyır, az yaralılar isə meyidləri sürükləyirdilər. Hər döyüşdən sonra alışdığım bu mənzərənin bircə yeniliyi, bu dəfə kantuziyamın tutmaması idi..Mərmilərin açdığı kalafaların birində oturdum. Ayaqlarımı iylənmiş "botinkalarımın" içindən çıxarıb azca havalandırmaq istədim amma bu da çox çəkmədi. On dəqiqə sonra biz, bu qanlı düzənlikdən iki kənd aralı, evimizə doğru yol aldıq.

Məhəmməd lap qabaqda gedirdi. Bölükdə gedəcəyimizi heç kimə bildirmədik. Iki saat, iki saata gedib qayıdacağımızı nəzərdə tutsaq da, elə alınmadı.Bir gün çəkdi. Bir az çətin oldu evin istiliyindən ayrılıb soyuq düzənliklərə qayıdıb gəlmək. Özümüzü toplayıb birtəhər geri döndük. Döyüşün bütün qanını, qoxusunu yuyub təmizləyib gəlmişdik Biz geri dönəndə, bizi sökülməkdə olan çadırların qarşısında öz veş-meşoğları ilə əlləşən rabitəçilər qarşıladı. Onlardan biri batalyonun yoxluğunu bizə iki kəlmə ilə anladıb" fərarilər" işinizi verdilər "bədbaxt" oldunuz cümləsi ilə timsah kimi soyuq-soyuq dişlərini ağartdı. "Bu yekebaşın başını əzəcəm" deyib tullanan Məhəmmədin havasını birtəhər alıb batalyonun getdiyi istiqamətə yollandıq. Təmiz qanımız qaralmışdı. Səssizcə yolumuza davam etdik. Gecə yarını haqladıqca güllə mərmi səsləri sanki bizə yaxınlaşırdı. Döyüşün tam ortasında özümüzü tapdıq. Yenə nəfəs-nəfəsə, kürək-kürəyə döyüşün sonuna qədər vuruşduq. Ağır itki verərək acı məğlubiyyətlə geriyə-arxadakı mövqelərə çəkildik. Çox şəhid vermişdik. Mənim kantuziyam da bu döyüşdə yenidən təzələnmişdi. Ətrafımda səssiz film kimi gedən döyüşün sanki alt yazısını mən yazırdım. Axşam qulağım açılanda ilk eşitdiyim səs "sıraya düzlən" əmri oldu. Kambat gəlmişdi. O komandirlə nə üstündəsə bərk mübahisə edir, əlini qaldıraraq bizə-əsgərlərə tərəf işarə edirdi.Komandirin yorgunluq yağan üzünü əlacsızlıq bürümüşdü. Kambat sıranın əvvəlindən axırına doğru addımlayaraq hamını demək olar ki,tək-tək nəzərdən keçirdi. Nə baş verdiyini anlayacaq qüvvəmiz yox idi. Hamı yorğun və gecənin yuxusuzluğunun verdiyi halsızlığın altında idi. Kombat bu uzun uzadı baxışından sonra komandirə tərəf dönərək:

- Siz mənə əlli nəfərlə döyüşə girməniz haqqında məlumat vermişdiniz. Elədirmi?- rəsmi bir soyuqqanlıqla soruşdu.
- Bəli elədir.- komandir sanki məcburən o kəlmələri ifadə etdi.
- Indi hal hazırda qarşımda neçə nəfər var və neçə nəfəri döyüşdə itirdik?
- Səkkiz nəfər itirdik və qırx səkkiz nəfər də bizimlədir yoldaş kambat.
- Indi kim kimi aldadır?

Artıq söhbətin hara yuvarlandığını mən başa düşməyə başlayırdım. Az sonra bizi – məni, Məhəmmədi, İntiqamı və bizdən əlavə üç nəfəri – qubalı uşaqları sıradan çıxardılar. Bizi

icazəsiz bölüyü tərk etməkdə günahlandırdılar və hərbi tribunala veriləcəyimizi bildirdilər. Komandirimiz son cəhdini edərək elə bizim yanımızda heç bir rəsmiyyət- filan gözləmədən:

- Onlar mənimlə olublar. Döyüşün qızgın yerində də. Qanun axtarmağın burda nə mənası var?!. Hə, siz nə edirsiinz. Onsuzda qaçan qaçanadır. Bu vətəni qoruyan o qədər azdır. Bəlkə də siz haqlısınız Onlar qanunsuzluq ediblər amma onlar qayıdıblar, bu gün burdadırlar.- hey danışaraq sanki onu yola gətirəcəyinə ümid edirdi.

Kombat isə ona fikir vermədən bizi mal sürüsü kimi qabağına qatdı.Bizim əllərimizi kəndirləyərək yük maşının kuzasına doldurdular. Mən dönüb geriyə baxanda heç vaxt unutmayacağım iki simanı gördüm. Bunun biri bizim komandir idi. O,əlləri ilə üzünü qapayaraq  palçığa qarışıb rəngini itirmiş qarın üstündə çömbəldi.digəri isə ..... Digəri bizi rabitə çadırının qarşısında qarşılayan həminki timsah sifət idi. Elə onda, mən əslində işimizin kimin verdiyini anladım. Bizi aparan maşın batalyondan uzaqlaşdıqca sanki o timsah sifətin dişlərini ağardaraq bizi izləməyində davam etdiyini hiss edirdim.

Fevralın insanın dişlərini sızladacaq sazağı axşam düşdükcə iliyimizə işləyirdi. Bizi mal tövləsinə bənzər bir yerə gətirib saldılar. Mal tövləsindən fərqli olaraq bu hündür divarlı tikilinin dam örtüyü yox idi. Sazağ şiddətləndikcə yavaş-yavaş qar da başlayırdı. Kombat şəstlə “ sabah sizi şəxsən özüm güllələyəcəm” – deyərək bizi o sazağın içində tərk edib getdi.

Qubalıların üçü də büzüşərək bir –birlərini qucaqlamışdılar. Mən qardan dəstəmaz alıb elə ordaca namazımı qılmağa başladım. Intiqamla Məhəmməd isə divar boyunca var- gəl edirdilər.

Mən dayanmadan dodağımın altında dua edir, haqqın üzə çıxmasını diləyirdim.Soyuq şiddətləndikcə qubalılardan birinin iniltisi yüksəlirdi. Iniltinin sahibi qəfil yerindən sıçrayaraq bağırmağa başladı:

- Mənim üç balam var eyyy........ Eşidirsiniz məni, köpəkuşağı. Bu gün mən, qarnıyoğunlardan fərqli olaraq Qarabağdayam. Öldürün bizi sabaha saxlamayın.Oğraşlar, vətəni satmışlar. – onu bağırtısını söyüşlər əvəz etdi. Nəfəsi kəsilənə qədər çığırdı.

O gecə-o “mındar” gecəni yatmadıq. Sabahın korunda, qarın ardınca yağış başladı. Qardələn. Qarabağın fevralın qucağında oturmuş havasının özəlliyi. Yağış bizi isladıb donduracaq vəziyyətə saldı. Elə bu zaman biz kambatın səsini eşitdik. Onun səsindən içkili olduğu anlaşılırdı. O, əlindəki silahı oynadaraq havaya atəş açır və bizi də oradan çıxmağa məcbur edirdi. Saniyələrin söhbəti gedirdi artıq. O qubalılardan birini- bayaq çığıranı sürüyüb bayıra

çıxardı. əlindəki tapançanı onun başına dirəyərək qəfil tətiyi çəkdi. Onun bu hərəkətiylə mənim elə bil ayaqlarımı doğradılar. Dizlərim yerə gəldi. Bizim bu şəkildə şoka düşdüyümüzü görən o əclaf eyni filmlərdə olduğu kimi soyuq qəhqəhələr çəkirdi. O qubalı balası ölməmişdi, amma ölüdən betər olmuşdu. Onun sabahın ayazında gömgöy olmuş rəngi, indi lap meyid rənginə çalırdı. O it isə “xalıstoy” gullələri bizim üstümüzə saçaraq daha da zövq alırdı. Bizi bu əzabdan, onu da bu zövqdən qəfil alaqaranlığın içindən peyda olan vilis qurtardı. Vilisin qapısı açılanda oradan kombriqin düşdüyünü  gördük. Öz aləmində kral kimi əylənən kombat  nə hiss etdisə, qəfil geri döndü. Onun qəhqəhəsi dodaqlarında dondu. Kombriq palçığın içində diz üstə çökmüş qubalıya və mənə  baxdı və bayaqdan sakit görünən bu rütbə sahibi bir neçə saniyə sonra kombatı təpiyinin altına salmışdı.

Bizim hamımızı qospitala göndərdilər.Başına silah tuşlanan qubalı elə oradaca-qospitalda öldü. Beyninə qan sızdı. Yəqin ki, gecəki qorxunu adlada bilməmişdi. Biz geriyə batalyona qayıdanda kombatımızı dəyişmişdilər.

Bəs kombriqin bu işdən necə xəbəri olmuşdu?- Mən qorxa-qorxa ona sual verdim.

-Bizi kombat aparandan sonra komandirimiz əlini hər yerə atıb. Səsinə səs verən olmayıb. Gecəyarıya kimi gözləyib birbaşa kombriqin yanına gedib. Silahı onun başına dirəyərək onu dinləməsini məcbur edib. Kombriq bundan sonra qalxıb məsələni yoluna qoyub. Bunu sonralar bizə kombriqin  “axranası”  dedi.

-Yəqin ki, öldürdüyünüz də elə kombat idi, eləmi?- Mən artıq söhbətin məğzini tutan biri kimi arxayın-arxayın soruşdum.

O, mənim çiynimin üzərindən uzaqlara baxaraq sanki sualımı eşitməyibmiş kimi davam etdi:

- Mövqelərimiz Ağdama qədər geriləmişdi. Yaz yağışı kimi idik. Gah iki üç kənd irəliləyir qələbəni dadırdıq, bəzən elə o axşam da hər şeyi itirib beş-altı mövqe geri otuzdurulurduq. Bəzən döyüşün qızğın yerində bizə geri çəkilmək əmri verilə bilərdi. Ağdamın Güləbirdində başqa bir batalyonla eyni mövqelərə düşdük. Mən “akopa” girmək istəyəndə onu gördüm. Kürəyində rabitə “veş-vüşü” bizim tərəfə gəlirdi. Məhəmmədi dümsükləyib onu göstərdim. Bəli, tamam əmin idik . Bu o idi . Timsah sifət.O, bizi görmədi. . Məhəmməd ona tərəf qalxıb getmək istəyəndə qolundan yapışdım. O isə “indi nəyi gözləyirik” – deyərək əlimi itələdi. Timsah sifət isə bütün bunlardan xəbərsiz halda, bizdən doqquz-on metr aralı akopa girdi.

O hadisədən sonra bizim batalyondan kombatdan başqa O da yerini dəiyşmişdi. Oradan qayıdandan sonra onu axtardıqsa da tapa bilməmişdik. Indi cəbhənin qızğın yerində onun haqqında necə qərar verəcəkdik: bunu belə bilmirdik.

Yağış göydən sel kimi səpələyəndə onu tapdıq. Gecə həminki gecə idi, lakin zaman və bizim hiss etdiklərimiz fərqli idi. Yenə o gecəki kimi bu gecə də göyün üzü yagışlardan görünmürdü. Bu gecə də səma  gözlərinə dəm vermişdi amma dərddən, yoxsa sevincdən yaş tökdüyü bəlli deyildi. Silahı onun alnının ortasına dirədim. O gecə hədəf olunananlar  bu gecə hədəfə almışdı. Əynimdəki "buşlatın" qollarından süzülən sular onun üzünə süzülürdü. Onun bəlkədə göz yaşları onu artıq satmışdısa da, biz bunu çətin ki bu suların arasından seçə biləydik. Silahın soyuq tətiyi əlimin altında idi.  Əslində onu niyə öldürməliydik ki..- o boğuq səslə dedi- Axı, o erməni deyildi, axı o düşmən deyildi amma ........-o susdu.- amma -əlləri titrəyə-titrəyə yenə bir siqaret yandırdı.bir qullab vurub külqabıya qoydu.Alnını ovuşduraraq çətin bir qərar verəcəkmiş kimi düşüncəli bir görkəm aldı və ağır-ağır davam etdi:

-Gecənin qaranlığında bir anın hökmü idi ki, əlimdəki silahın tətiyini çəkəm və onu cəhənnəmə vasil edəm  amma bunu edə bilmirdim.O qədər döyüş görmüşdüm amma kimisə öldürəcək   qədər insanlığımı itirməmişdim. Yox! Mən onu öldürməyəcəkdim. Onu bu qaranlıq təpələrin arxasına Məhəmməd sürüyüb gətirmişdi. Tam bir ildən sonra yenə fevral soyuğunda bir yerdə idik. Qubalı əlindəki lapatkanı onun çiyninə endirdi. Sümüyünün şaqqıltısından çiyninin qırıldığını bütün beynimlə hiss etdim. O yerə yıxılaraq nəfəsi təngiyə-təngiyə " mənə yazığınız gəlsin üç balam vaarrr"- deyə zarıdı. Kaş o sözləri deməyəydi. Qubalı isə lapatka ilə onun başına döşəyə-döşəyə"İt, bəs mənim qardaşım........... Mənim qardaşımın üç balası yox idi ki.. Niyə kişi kimi başına bir güllə sıxmadınız haa. Bizim qoyun kimi sıraya vurub çıxdınız. Tula, şpiyonluq edəndə bunun sonrasını niyə düşünmədin".Timsah sifət al qan içində çapalayırdı. Mən qaranlıqda bunu sezməsəm də, qanın qoxusu ağzıma burnuma dolurdu.  Mən tətiyi çəkdim. Dəfələrlə çəkdim. Qulağıma gələn zarıltı səsi kəsilənə qədər çəkdim. Sonra sürətlə oranı tərk etdim.

Səhər alatoranında bizim mövqelər yenə dəyişiləndə yenə qarın ardınca qardələn başlamışdı. Təpənin arxasındakı gecəki izləri isə palçıq çoxdan udmuşdu. – o dərindən nəfəs alaraq susdu.

Mən əmimin bütün bunları danışdıqdan sonra üzündəki əzabı gördüm. Ona nələrisə xatırlatmağıma peşman oldum. Bunu sezdiyimi bildirməmək üçün  yerimdən qalxıb samovardan çaylarımızı təzələdim.

*Ülviyyə Tahir:Şeytanın missiyası*

***Bu uzaq, gözdəniraq məkanda yovşanlardan və yalnız qoyuna-mala şirin gələcək otlardan başqa heç nə yox idi. Bu düzənlik ayda və ya da həftədə bir kərə gördüyü "cip" maşınlar istisna olmaqla sanki sivilizasiyadan xəbərsiz idi. Buranın əsas qəhramanları qoyunlar idi.***

Onlar yeyır, yatır və nə vaxtsa öləcəklərini xəyallarına belə gətirmirdilər.

Onların burada nökərləri insanlar idi. Bir tikə çörəkdən ötrü bu qədər zülmə qatlanmaq yalnız belə doğulub, belə yaşamağa öyrənmış insanların əlindən gələ bilərdi. Yayda günəşin yandırıcı şüaları, qışda yolların keçilməzliyi bu insanların mətanətini qıra bilmirdi. Burada xəstələnən uşaqları ehtiyat dərmanlar olmayanda Allahın köməyi sağaldırdı. Qarabağ əldən gedəndən sonra yaylaq görmüş çox insan arançılığa dözməyib öldü. Bəlkə də qoyunlar da öldü, amma bunu heç kəs bilmədi. Onsuzda bu düzənlikdən kimin xəbəri var idi ki?!..

Çiçək gözünü bu əcaib yerdə açmışdı. Bu yer Çiçəyə ta gedib rayonu görənəcən əcaib gəlməmişdi. Onun oyuncaqları qoyun yunu, kəndir bir də atasının haradansa tapdığı qırıq bir maşın idi. Çiçək heç məktəb üzü də görməmişdi. Rayona əmisigilə gedəndə əmisiuşaqları Tarzan gormüş kimi tez bütün şeylərini gizlədərdilər. Çiçək onlarda gördüyü rəngli televizoru, başgicəlləndirici ətir iyi verən evi qoyub daim qoyun pendiri iyi verən qamış dəyələrinə dönmək istəməzdi. Amma anası yenə onu bəlkə də, Allahın da yaddan çıxardığı bu düzənliyə sürüyüb gətirərdi.Burada yaşanılan günlərin bir-birindən fərqi olmazdı.Beləcə Çiçək zamanın hamını sürüyüb müxtəlif şəkillərə saldığı dünyada böyüməkdə idi.Özünə üfüqlə yerin qovüşduğu, bəlkə də dünyanın mərkəzi olan bu yerdə qardaşı,anası və atasından başqa bir şey tapmışdı. Onun həyatına rəng qatan bu yeganə şey günün sonunda tamaşa etdiyi mənzərə idi. Çiçək işini qurtaran kimi gedib yaxınlıqdakı təpəyə dırmaşar,günəşin üfüqün qoynuna necə girdiyinə tamaşa edərdi. Bunu hər gün etsə də bundan bezmir, hər gün günəşin zərrəsində bir rəng kəşf edərdi. Onun üçün günəş hər gün yatmağa gedir, səhər isə oyanıb gəlirdi .Ona "günəş batmır, yer fırlanır"

desəydilər O, buna çətin inanardı. O, hər gün öz sevgilisini uğurlayan kimi qaçaraq evə gələr, yeməyini yeyən kimi toyuqların yatdığı vaxtda yatardı. Çünki onun aid olduğu həyatda gün bu zaman başa çatır, həyat isə dan yeri ağaran kimi başlanırdı.

Və bir gün. Bir gün hər şey dəyişdi. Həmişəki kimi günəşin qürub çağı Çiçək işlərini cəld yerinə yetirərək təpəyə qaçdı. Bu gün gecikmişdi. Təngənəfəs təpəyə dirmaşanda orada adi insan boyundan boyu hündür olan bir varlıq gördü. Bu varlıq ona tərəf dönmədən:

Çiçək, bu gün sən niyə gec gəldin ?-deyə məlahətli səslə soruşdu.
Çiçək bu ətrafda kiminsə yaşadığını bilmirdi. Onun bu ucsuz-bucaqsız düzənlikdə indiyə kimi gördüyü yeganə yad adam bu fermanın sahibi Moran kişi idi.Bu yekəpər və özündən razı kişi bəzən iki həftədən bir, bəzən də ayda bir dəfə bura gəlir, dünyanın ən pis sözlərini onlara deyərdi.

Amma atası bir dəfə demişdi ki, “onun burada xoruzlanmağına baxmayın, O, heç buranın sahibi deyil.” Amma Moran nə qədər pis olsa da, Çiçək onun gəlişini gözləyərdi ,çünki onun parıldayan cip maşını, tərtəmiz paltarı uzaq bir həyatdan xəbər verirdi. Ikinci bir yad Çiçək üçün sürpriz idi. Bu tanımadığı varlığın onun adını da bilməsi Çiçəyi təəccübləndirdi. Uşaq marağı qorxusuna üstün gəldi. Bir az irəlilədi.Varlıq ona tərəf döndü. Varlığın əynində yayın istisinə baxmayaraq qara uzun bir plaş var idi. Bir neçə yerindən cırıq olan bu plaş sanki min il idi ki , onun əynində idi. Onun üzünü uzun buruq saçları qapamışdı. Bu ona daha da əsrarəngiz bir hal verirdi. Çiçəyə ən çox qəribə gələn isə onun qaranlığın içində gah yox olması, gah da yaxınlıqda peyda olması idi. Çiçək cəsarətini toplayıb ondan:

– Sən kimsən? –deyə soruşdu.
Varlıq elə o an qulağının yanında peyda olaraq pıçıldadı:

Sən məni tanıyırsan, Çiçək . Mən hər gün buradayam.
Onun pıçıltısı isti nəfəsə çevrilib Çiçəyin boynunu, boğazını qarsdı. Bu isti nəfəs onu elə hərarətləndirdi ki, bir anlıq bunun əbədi davam etməsini istədi. Bundan sonra Çiçək ondan heç nə soruşmadı. Çiçəyin artıq on dörd yaşında ikinci sevgilisi peyda oldu. Bu sevgilisi əvvəlki sevgilisi tək uzaqda deyildi. Birinci sevgilisi onu hər gün ikinci sevgilisinin qucağına verərək yatmağa gedərdi. Çiçək sehirli bir aləmdə idi. Bu sehirli aləm onun titrətməli qızdırmaya düşməsi ilə dağıldı. Çiçək yatağa düşdü. Hər gecə sayıqlayır, paltarlarını cırıb tökürdü. Bu cırıq paltarlarla da həmin təpəyə qaçardı.

Təpədə isə onun bir gördüyü min olardı. Üstünə tökülən bu əcaib varlıqlar ona zövq verən varlığa bənzəməzdilər. Üzü- gözü şırımlanmış qızdan artıq evdəkilər də qorxurdular. Onun bu

xəstələyi ciddiləşdikcə, atası daha da ,başını itiridi.Bir gün uzaqdan-Çiçəyin də heç vaxt olmadığı yerdən babası onlara gəldi. Çişək babasını heç vaxt görməmişdi. Yalnız bir dəfə anası ağlayanda atası: “Zırıldama! Onlar səni daha axtarmazlar. Atan səni gərək bağışlayaydı”-deyəndə bu sözləri Çiçək də eşitmişdi. Hələ o vaxtı Çiçək uşaq ağlı ilə anasının nə isə səhv bir iş tutduğunu başa düşmüşdü. Indi isə babasının bura necə gəlib çıxdığını başa düşəcək qədər sağlam beyinə malik deyildi.

Gələndən səssiz oturan qoca nəhayət dilləndi:

-Mən gedim Ağanı gətirim. Bizim belə işlərdən başımız çıxmaz.

Qoca özü kimi qoca olan yabısını rəhmsizcəsinə qamçılayaraq uzaqlaşdı. Çiçəyin isə saatbasaat sayıqlamaları artırdı. Belə bacarıqlı bir adamın işini atıb, ucqar bir fermaya gələcəyini nə evdəkilər, nə də baba gözləyirdi. “Hər halda getməklə nə itirirəm ki,”-deyə baba öz-özünə düşündü.

Şər qarışan vaxtı rayona çatan baba, yarıümid halda Ağanın evinə yollandı. Bu adamı hamı Ağa adı ilə tanıyırdı. Onun əsl adını xatırlayan tək-tük adam qalmışdı. Ona el arasında inam o qədər qüvvətlənmişdi ki, xəstələnən insanlar birinci həkimdən öncə onun yanına baş çəkərdilər. Sovet rejiminin domokl qılıncı belə Ağanın nüfuzuna xələl gətirə bilməmişdi.

Ağanın evdə olduğunu bildikdə babanın sevincinin həddi-hüdudu olmadı. Ağanın otağına girib, elə salamdan sonra nəvəsinin xəstəliyi barədə olan –bitəni nəfəs belə almadan doğrayıb tökdü. Babanı ağ saqqalını tumarlaya-tumarlaya dinləyən Ağa :

-Dur! Dur gedək. Deyəsən, məsələ ciddidir.-deyərək rəfdən qəhvəyi rəngli bir kitabı götürüb balaca bir çantaya atdı.Həyətə çıxanda babanın atına baxaraq, azca nə isə düşündü və üzünü evə tərəf tutaraq səsləndi: --Ay uşaq, mənim atımı çıxarın.

–Ağa, sənin üçün gecə getmək çətin olmayacaq?- Baba ürkək-ürkək onun üzünə baxaraq soruşdu.

–Çox qoca görunurəm?-deyə Ağa gulumsəyərək suala sualla cavab verdi.

Gecəyarı fermaya çatdılar. Ağa yeməkdən və yatmazdan da öncə xəstəni görmək istədi. O, Çiçəyə və bədənindəki ləkələrə baxaraq dodağının altında anlaşılmayan dildə nə isə dedi. Qayıdıb xalçanın üstündə yerini rahatlayan Ağanın üzündə çox sakit bir ifadə var idi. O, qabağındakı ala-bəzək sufrənin iplərini dartışdıraraq qoyunu, malı və fermaçılıq işlərini soruşurdu.Dəyənin küncündə hıçqıran qızına;

-Ay qız, dur! Dur bura qulluq elə! –deyən babanın səsində rəhm qarışıq qəzəb var idi.
-Heç nə lazım deyil –deyə Ağa etiraz etdi: Gecənin xeyrindənsə, sabahın şəri yaxşıdır Yataq! Sabah durub bir qərar verərik.

Düzənliyin altı nəfər sakini gündüzün verdiyi həyacan və yorğunluqdan sonra şirin yuxuya getdi. Səhərin gözü açılan kimi Ağa işinə başladı. O, qarşısına qoyulmuş çayı birnəfəsə başına çəkib  çantasını qurdaladı. Oradan vərəqləri tökülən bir köhnə bir kitab çıxardı.
-Bu, nə vaxtdan başlayıb?
Ağanın qətiyyətli səsi dəyədəkiləri diksindirdi.
- Yazbaşı. Hə deyəsən yazbaşı idi. Ağa, vallah bu qız elə sakit uşaq idi ki....-səsi boğulan ata daha danışa bilmədi.
-Sizdə də günah var. Uşağın şər vaxtı nə işi var orada?!..-deyərək sözünə davam etdi: Mən əlimdən gələni edəcəm, təki Allah səbəb salsın. Qıza elə bir şeylər müsallat olub ki.mən özüm belə belələrini on ildən bir görürəm. . Kitabını qatlayıb kənara qoyaraq Ağa çantasından çıxardığı ətirli kağıza sürətlə nə isə yazmağa başladı.Yazdığı kağızı büküb patron şəklinə saldı:
-Bunu onun üstündən asın. Gecə sayıq yatın. Evə ehtiyat su qoyun.
Gün əyiməyə başlayanda Ağa atına minib getdi. Lakin o məşum gecəni uzun zaman nə Çiçək, nə də evdəkilər unuda bildilər.Qızının təkidlərinə baxmayaraq baba qonaq yatağına keçmədi.

-Heç nə olmaz. Elə burada qıvrılıb yatacam- deyən baba nəvəsinin ayaqtərəfini göstərdi.
Günün həyəcanından hamı yorğun düşərək bir tərəfə yıxılıb yatdı.Qaranlıq öz qanadını yerin üzərinə çəkdikcə babadan başqa hamının şirin mışıltısı dəyəni başına götürdü.Baba qaranlıqda cibini eşələyib tütün qabını tapdı. Kibrit tapmaq üçün yavaşca qalxıb ehtiyatlar saxlanılan dolaba tərəf getdi. Yenicə yerindən aralanmışdı ki, arxasında hənirti duydu. Geri döndükdə qarşısında üç-dörd dənə əcaib varlıq gördü. Onların üzü qaranlıqda görünməsə belə baba nə baş verdiyini anladı. Bu varlıqlardan biri Çiçəyin yatağına doğru getdikdə baba ona mane olmaq istədi, lakin buna ehtiyac qalmadı. O, Çiçəyə yaxınlaşan kimi bir topa alova döndü. Bu alov əvvəlcə Çiçəyi, sonra isə bütün dəyəni alışdırdı.
Səhərin nurlu üzü qaranlığın qoynundan doğulmağa başladı. Günəşin dünən salamat qoyub getdiyi balaca şenlikdən, yerdə bir topa qara kül qalmışdı. Şehli otların üzərinə uzanan adamların hərəsinin bir yeri yanmışdı. Gecə yarıyoldan

qayıdan Ağa da onların arasında idi.

- Ağa, başına dönüm, nə yaxşı qayıtdın?! Sən olmasaydın indi Çiçək yox idi.-deyə baba gücü çatdığı qədər ona minnətdarlığını bildiməyə çalışırdı. Baba daha gecə heç kəsin suya əl atmadığını, hər kəsin can hövlü ilə bayıra qaçdığını söyləmədi. Onsuzda bunların hamısını Ağa öz gözü ilə görmüşdü.

Çiçəyə dayanmadan dualar oxuyan Ağanın boğazı qurumuşdu. Gecədən huşsuz yatan Çiçək nəhayət ayıldı. Son iki aydakı sərsəm səsindən fərqlənən ayıq bir səslə su istədi. Ona su verən anası onun yanında yerə çökərək ağlamağa başladı:

-Biz indi nə edəcəyik?

-Arvad, səsini kəs!-deyə ata hiddətlə söylədi.

-Siz buralardan getsəniz yaxşı olar.İşin bir hissəsi başa çatdı.

-Mən Çiçəyi özümlə apara bilərəm-deyən baba bunula həm Ağaya cavab vermiş oldu həm də kürəkənindən cavab gözlədi.

-Hə. Əmi sən uşaqları götür get, mən də bir neçə gündən sonra gələrəm.

Atadan başqa hamı toplanıb yola çıxdı. Onların bir daha dönməyəcəyi bu düzənlik onlar uzaqlaşdıqca onların arxasında okean kimi böyüyürdü. Çiçəyin aşiq olduğu təpə isə getdikcə kiçik bir nöqtəyə dönürdü.Hər kəsin yadından çıxmış bu düzənlik təkcə şeytanın yadından çıxmamışdı. Şeytan iki gün sonra puldan başqa Allahı olmayan Moranın Çiçəyin atasını öldürməsindən də ayrıca zövq alacaqdı.

## SON ARZU

Gecənin qaranlığı düşdükcə şəhərin neçə müddətdir mülayim keçən qışı öz sərt üzünü göstərməyə başlayırdı. Yalnız bu gün, Xocalıda başlayan qar əsl qışın xəbərini verirdi. Sanki hər şey buradakı insanlardan üz döndərmişdi. Əli , ünü bir yerə çatanlar şəhəri vaxtkən tərk

etmişdilər. Heç kəsin söyləməyə belə cəsarəti çatmayan sözləri ,elə bil qışın sərt çovğunu insanların üzünə çırpırdı. Çovğundan betər olan bu sözlər qəlbləri, beyinləri elə keyitmışdi ki, qışın soyuğunu az qala hiss etmirdilər. Simsiz teleqraflar tək evlərə soxulan qırıq-qırıq xəbərlərin qorxusunu körpələr də başa düşmüşdülər. Mənasını bilmədikləri sözləri böyüklər bir-birinə deyir, qadınlar "hiiy" deyərək içlərini çəkir, kişilər isə səsizcə siqaretlərini yandırırdılar. Hansısa dəhşətli bir hadisənin baş verəcəyini hamı gözləyirdi amma yenə haradasa- qəlblərinin bir küncündə bir ümid qırıntısı qalmışdı. Bu ümid qırıntısı isə qorxularının və həyacanlarının altında elə əzilmişdi ki, ona yenidən can vermək üçün möcüzə gərək idi. Müharibə insanların kəşf etdiyi elə bir nəhəng qüvvədir ki, o insanların hansı təbəqədən və hansı ölkədən olmasına baxmayaraq, onları həyatlarından və qismətlərindən qopararaq öz cızdığı taleyə məhkum edir. Alınlarına basılmış müharibə taleyindən qurtulmaq üçün Xocalıda da hərə bir yanda can çəkirdi.

Xocalının ucqarındakı Ramizin kasıb koması da bundan nəsibini almışdı. Taxta qapını ehmalca aralayıb içəri girən ailənin yeganə yeriyən başıpapaqlısı olan oğul, çovğunun onunla bərabər içəri soxulmasının qarşısını almaq üçün cəld qapını örtdü. Islanmış papağını və köhnə paltosunu dəhlizdə əlindən alan arvadına:

- Atam necədir?-deyə pıçıldadı.
- Qoyub getdiyin kimi.- arvadı ümidsizcəsinə cavab verdi.

Oğul içəri otağa keçən kimi atasının çarpayısının yanında diz çökdü. Atasının əlini əlinə alaraq:

- Necəsən?-deyə səsindəki kədəri gizlətməyə çalışaraq soruşdu.
- Bir az yaxşıyam- atası xırıltılı səslə cavab verdi və
- Sən əsas Gülərlə maraqlan- deyə qonşu çarpayıya boylandı .

Fevral girən kimi evdə hər şey bərbad olmuşdu. Atasının qəfil iflic olması evdəkilərin başını yeni qatmışdı ki, Gülər- evin böyük uşağı- yıxılıb qıçını qırdı. Bir tərəfdən şəhərin mühasirəsi, bir tərəfdən naməlum vəziyyət , - biz nə edəcəyik?- sualı domokl qılıncı tək başlarının üzərindən asılmışdı.

- Bala nə deyirlər? Camaat nə etmək fikrindədir?- Ramiz kişi balışından azca başını qaldıraraq soruşdu.
- Heç nə. Qaçan qaçıb. Deyirlər Əlifi, Tofiqi öldürüblər. Mühasirə daralır. Bəlkə də bir- iki gün qala-qalmaya bizi Spitakda etdikləri kimi...
- Əliyar- arvadı özündən asılı olmayaraq onun sözünü kəsdi. Ananın qucağında oturan on yaşlı Əli anasının yaxasını dartışdırdı:
- Ana atam nə deyir? Spatak haradı?

- Spitak, bala, Spitak – baba səhvi düzəltdi.
- Nə fərqi var. Cəhənnəm olsun hər şey.  Qonşular məsləhətləşib bu gecə çıxmalıyıq
- Hə gedin lazımdır. Bakıdan bir mədət ummağın yeri yoxdur..- Ramiz  köksünü ötürərək dedi.

Qapının qəfil döyülməsi aralarındakı söhbəti kəsdi. Əlyar qapını açmağa getdi və içəri qonşuları Səfi ilə qayıtdı. Yerdə bardaşqurma oturdular.  Səfi başının aşağı salaraq yerdəki palazın ilməklərini oynadırdı. Az sonra gözünü yerdən qaldırmayaraq:

-Ağırdır, vallah ağırdır. Az qala ürəyim partlayacaq. Vallah silah olsa bilərdik neyniyək .əliyalın qalmışıq . Bədbəxt millətik də.... hanı? Hanı yiyəmiz?

- Bala, elə demə . Yəqin bundada bir xeyir var.

- Ay  baba nə xeyir ?  Milləti gözgörəti qoyublar güllənin qabağına . Yaxşı. Sən özün fevralın əvvəlinə qədər əlində silah bu camaatın arasında idin. Sən axı hər şeyi öz gözünlə görürdün.

-Daha gecdir . İndi müzakirə zamanı deyil.-  azca dikələn Ramiz kişi ötkəmlə söylədi-yığışın şəhərdən çıxın.Ölmək betər deyil, ondan betəri əsir düşməkdir.

Ramiz sözünü yenicə bitirmişdi ki, o biri otaqda açılan qapının şaqqıltısı hamısını diksindirdi. Əliyar cəld əlini divara söykənmiş avtomata atdı. Özünü içəri təpən adamın üstü-başı zığ içində idi. Üstünə tuşlanmış avtomatı gördükdə:

- Ayə, neynirsən? Mənəm ey: Cəfərəm . Zibilini o yana elə- deyərək üzünün zığını qoluna sildi

Cəfəri tanıyan kimi hamının beynindən ildırım sürəti tək bircə süal keçdi.Cəfər niyə səngəri qoyub gəlib, yoxsa.... Bu "yoxsa" kəlməsini sanki onların üzlərindən oxuyan Cəfər:

- Tez eləyin!  Onlar şəhərə girdilər.   Telefon məntəqəsi dağıdılıb . Bakı ilə tamamilə əlaqə kəsildi.  Tez eləyin! Çox az vaxtımız var.

Onun sözləri bitməmiş Səfi evlrinə tərəf qaçdı, Əliyarın arvadı isə sürətlə uşaqları geyindirməyə başladı. O,  əlləri əsə-əsə paltarları seçir , uşaqların ağlamağna baxmayaraq əyri- düz geyindirirdi. Əliyar heç nəyə fikir vermədən,  atasının çarpayısının yanında yerə çökdü.  Əli ilə onun yorğanın qaldırmaq istəyəndə, qoca sağ əli ilə yorğanı möhkəm özünə tərəf çəkdi.

- Olmaz-onun gözləri öğlunun üzünə sərt şəkildə dikildi. – sən Güləri aparacaqsan . Gəlin də əkizləri. Olmaz mən qalıram.

- Səni erməni dığalarını içində qoyub gedə bilmərəm. Getsəm də, vicdan əzabından ölərəm.
- Yox sən məni də, aparsan asta gedəcəksiniz. Onlar yəqin ki sizi izləyəcəklər . Uşaq olma . Balalarımı oda atma. Təsəvvür et: mən yoxam . Bir ay bundan qabaq ölmüşəm .
- Yox! - Əliyarın bu bağırtsına uşaqlar daha möhkəm ağlamağa başladılar. Qapıda Əliyarı gözləyən Cəfər içəri girərək, onları daha da tələsdirdi. Əliyar isə elektrik vurmuş adam kimi heç nəyə reaksiya vermirdi. Cəfər onu sirkələdi:
- Qardaş, tez çıxmalıyıq. Atışma səslər yaxınlaşır. Uşaqları çıxarmalıyıq .Mən sizi meşəyə çıxarıb, yenidən geri qayıdacam . Bizim üşaqlar da, Səfigil də sizi gözləyir.

Əliyar başını bulaya- bulaya adyala bürünmüş qızını qucağına aldı – “Allah məni seçim qarşısında qoydu. Ya balam, ya atam . İkisi də yeriyə bilmir . İkisinin də mənə ehtiyacı var amma mən kimi seçirəm?!” - Əliyar bunları düşündükcə gözünün yaşı sel kimi yanaqlarından axırdı.

-Ata mən sənin üçün qayıdacam. Söz verirəm, Ata , söz qayıdacam.

- Bilirəm, bala. bilirəm qayidacaqsan. – Ramiz kişi gözünün yaşını uda-uda evi tələsik tərk edən qafiləyə baxdı. Elə bil onların gedişi ilə, evin istiliyi də yoxa çıxdı. Ramiz bir anlığa tənhalıqdan ürəyinin ağzına gəldiyini hiss etdi. Özünü birtəhər ələ alaraq vəziyyəti götür –qoy etməyə başladı. Uzaqdan eşidilən atışma səsləri getdikcə səngiyirdi. Bu da axırı ,deməli atışma zəifləyirsə, döyüş bitir. Ah, kaş bir az uzun sürəydi. Onlar gələnə qədər Əliyargil bir az aralana biləydilər. Qoca azacıq tərpənərək sağ əlini döşəyin altina atdı. Həmişə ehtiyat olaraq özü ilə gəzdirdiyi ov bıçağını çıxardı. Dəstəyi qızılı rəngdə olan bıcağı əlində fırlayaraq qolunu hərəkət etdirməyə çalışdı. “Bu bıçaqla nə qədər xatirələr var. Heç vaxt mənə xəyanət etməyib . Etibarlı dost indi səndən son dəfə istifadə edəcəm.” – deyə Ramiz kişi bıçaqla danışmağa başladı. “İndi, bəlkə də bir saata onlar gələcəklər. Yəqin ki bu çürümüş ayağım olmasaydı onların başını daha çox qatardım.”- sol əlini qaldıraraq ayağına çırpdı. “Hissiyatsız . Heç nəyə reaksiya vermir. Yəqin donuzuşağı məni gülləyəndə də bu murdar ayaq hiss etməyəcək. Kaş elə o an öldürsünlər . Allah sən mənə əsir düşməyi qismət etmə . Görəsən uzaqlaşa bildilər?! Yox ! Cəfər onları ələ keçməyə qoymaz. Meşəni, çay qırağını o yaxşı tanıyır. Əsgəran, Əsgəran yoluna çıxa bilsələr daha qorxusu yoxdur. Nə yaxşı razılaşıb getdilər. Allah elə qorxurdum, elə qorxurdum ki, Əliyar mənimlə razılaşmaya ... Allah sənə şükürlər olsun. Hərçənd səninlə məni həyatda tanış edən olmadı, amma mən səni yenə tanıdım. Sən də mənə pis bəxt vermədin. Bu son arzumu da mənə qismət etsən .....” Ramiz yerində qurcuğa-qurcuğa qapı ilə arasındakı məsafəni gözəyarı ölçməyə başladı. “Içəri girəndə yəqin bir anlığa qapının ağzında dayananı tapılacaq . Atam da məni kim yiyəsiz ölüb. Yəqin tək ölüb ki, heç qara kağızı da gəlmədi. Qırx iki də getdi. Bilmədik

faşist öldürüb yoxsa rus . Bilinmədi. Kişini elə bil məchulluq uddu. Yaxınlıqda açılan atəş səsi fikirlərini darmadağın etdi. Atəş səslərinin ardınca, ermənicə gedən danışığı eşidən qoca bıçağı əlinə aldı. Bu ucqar evə gəlib çatıblarsa, deməli şəhər tamamilə alınıb. Daha ümid yoxdur. Indi evləri tək-tək araşdırırlar. Yaxşı ki, lənətə gəlmiş iflic sol tərəfimi vurdu . Allaha şükür , Allaha şükür ki, ən azından bir bıçaq atacaq qədər qüvvəm var. Yəqin ki, var . Bunun olması, mənim son ümidimdir" – qoca diqqəti yayınmasın deyə, daha fikirləşməkdən də vaz keçdi. Səslər getdikcə yaxınlaşırdı. Qapını bir həmlə ilə qırdılar. Içəri girməmiş, yoxlamaq üçün bir –iki dəfə atəş açdılar.Cavab gəlmədikdə, sərbəst şəkildə evə doluşdular. Dəhlizdən qonaq otağına gedən qapını ilk açan, erməni yalnız "ya Allah" sözünü eşitdi. Boğazına sancılan bıçaq onu dəhlizin divarina mismarladı.

-
-

DÖNÜŞ

Siqaretini külqabıda əzərək söndürdü. Ayağa qalxaraq pəncərəyə yaxınlaşdı. Pərdəni yana çəkərək gözünü şəhərin qaranlıq boşluqlarında ulduz kimi yanan işıqlara dikdi." Izmirlə Bakı sanki bacı-qardaşdı. Bəlkə də, heç vaxt bir- birini tanımayan bacı-qardaş kimi. Kimlərsə onları görüb, bənzədir amma hamı bəlkə də, boş bir ehtimal üçün ağzını açmaq istəmir". Bu düşüncələrlə könlündən ikinci siqareti yandırmaq keçdi amma qarşısındakı sehrli mənzərəni qoyub getmək istəmədi. O, həmişə Bakıya gələndə eyni oteldə, mümkün olduğu qədər eyni otaqda qalır və hər zaman gecəyarı olana qədər öz fikirləri ilə bu əsrarəngiz şəhərin işıqlarına qərq olub gedərdi. Bakı müasirləşdikcə işıqlarının da rəng çalarları artırdı. Hər nə qədər dəyişsə də, Bakının gecələrini sevməkdən vaz keçə bilmirdi.

Iki il öncə onu Bakıda , gecə işıqlarının altında sehrli və cazibədar tələ yaxaladı. Bu tələ əvvəl ayaqlarını, sonra əllərini ən axırda isə qəlbini ovsunlayaraq onu əvvəli-axırı olmayan bir labirintə həbs etdi. Ehtiyatsız yaxalanmışdı. Bir yalanın dəryasında boğulub gedirdi. Ana yalan bu iki il ərzində çoxlu şikəst balalar doğmuşdu. Bəzən O, hansı yalanın kimn anası olduğunu unudur, "yalançının yaddaşı olmaz" teoremininin onun həyatında təsdiqini tapmasını acı-acı seyr edərdi. Allahın bir şeydə ona lap yazığı gəlmişdi. Bu rəhm onun səbirli arvadı idi. Hər dəfə Bakının adını tutanda, arvadı dinməz- söyləməz onun çamadanını hazırlayar və bu zaman onun üzünə baxmamağa çalışardı. O hiss etmişdi, sümüyü duymuşdu ki, arvadı nəsə bilir. Sükut

ürəyini deşsə də, getdiyi ünvan narkotika kimi qanına oturmuşdu. Vaxtı gələndə özünü Bakının küçələrində tapırdı. Əvvəl vərdiş etdiyi kimi otele gedir, sonra onun yanına. Gecə gedərdi. Ona elə gələrdi ki, əgər gündüz getsə, hamı barmağı ilə onu göstərəcək və -Ey, dayan hara gedirsən- deyə arxasınca qışqıracaqlar. Gecə oteldəki nömrəsindən çıxar, cüssəsinə yaraşmayan kiçik addımlarla "şirin günah" adlandırdığı gənc sevgilisinin yanına gedərdi. Onun yanında keçirdiyi gecələri cox vaxt meyxoş olardı. Arvadı ilə onun arasında müqayisə aparmaq istəməsə də, müqayisə istər- istəməz gedirdi. Sevgilisi daha gənc və daha təravətli ruhu ilə onun ağlını oğurlamışdı. İki il idi ki, ikili həyat sürürdü. Iki il idi ki, "ayrılacam" sözünü hey vicdanına verir, amma çifayda.... Bəzən özü-özünə: yəqin bu üsyankar vicdanı oteldə qoyub gedirəm ki, onun yanında dillənmir -deyə bir yəqinlik uydurmuşdu.

Nəhayət iki il ərzində toplanmış buludlar başının üzərində sıxlaşmağa başlamışdı. Deyəsən gözlədiyi tufan yaxınlaşırdı. Evdəkilər daha da səssizləşmişdilər. Artıq evdə olan-keçən xəbərlər belə müzakirə olunmurdu. Arvadı vaxtının çoxunu ya anasıgildə, ya da rəfiqəsigildə keçirirdi. Hətta onun "necəsən" sualına belə cavab verməmək üçün sualı eşitməməzliyə vururdu. "Qiyam yaxınlaşır"- deyə o düşünürdü.- amma kim- kimi devirəcək bax orası naməlumdur.

Ona arabir elə gəlirdi ki, dərin bir quyunun başındadır və içəridə iki adam var. Amma burada birinci və ya ikinci məsələsi yoxdur. Bu quyudan bircə adam çıxmalıdır. O bircə adam ....... o bircə adam dilemma olmuşdu. Bu dəfə Bakıya gəlməzdən öncə o səssiz qadın, onun dinməz arvadı ayrılmaq istədiyini sakit –sakit bildirdi. Bunu elə adi şəkildə dedi ki, sanki min il idi, bu sözü özü üçün çeynəyib, çeynəyib saqqıza döndərmişdi. O, bu sözü, bu çıxışı gözləsə də yenə yaman ağır gəldi on yeddi illik arvadından bu sözləri eşitmək. Udqundu. Istədi səbəbini soruşsun, amma vicdanı yenə onu boğazladı. Arvadı onun üzünə baxaraq nə isə gözlədi. Bu keçən müddətdə arvadı ilk dəfə idi onun üzünə baxırdı. Dik və yenilməz baxışlar məğlubiyyət ifadə etməsə də, onun vaxtilə canını belə verməyə hazır olduğu o gözlər qıpqırmızı idi. Ürəyi sıxıldı. Qırmızı gözlər sanki onu bir anda tərkisilah etdi. O, bilmədi onu boğazlayan vicdanı özündən aralasın, yoxsa yenə qalaqlqanmış yalanlardan birini seçib arvadına desin. Çırpındığı vəziyyətin içindən çıxmağa çalışarkən, arvadı onun üçün hazırladığı çamadanı qapının yanına qoyub getmışdı.

* * *

Bakıya gedən yol acı bağırsaq tək uzandıqca, qəlbindəki sıxıntılar daha da artırdı. "Yox, o ciddi deyildi, yəqin bir az məni silkələmək üçün o sözləri söylədi. Qadın tayfasıdır da,

aləmi bir-birinə qatmaq xasiyyətləridir. Əlini siqarət qutusuna atanda qutunun boş olduğunu görüb, daha da əsəbləşdi. Əsəblərini cilovlayıb, olub keçən haqqında məntiqli düşünmək üçün maşının sürətini azaltdı. Motorun uğultusu azaldıqca, beyninin içində qəribə və ikili dialoq başladı.

- Sən ondan ən azı niyə ayrılmaq istədiyini soruşmalıydın.
- Necə soruşum, axı, üzüm gəlmədi.
- Bu dünyada o qədər sənin kimi iş tutan adamlar var . Sən də onlardan biri. Adəm babamızdan üzü bəri... Sən indi vicdanlı çıxmısan?!..
- O bu iki ildə məndən "hara gedirsən"nin hesabını belə soruşmayıb. Əgər bu qədər müti bir qadın belə üsyan edirsə, demək bıçaq sümüyə dirənib.
- Amma sən yenə gedirsən. Bir qucaqdan qopmamış, o birisinə axırsan. Bəs bu hansı ağıla və məntiqə dayanır?
- Hə. Mən sözün bitdiyi yerdəyəm.

Əlini yenə özündən asılı olmayaraq siqaret qutusuna atdı. Onun bayaqdan boş olduğunun fərqinə varıb, pəncərədən çölə vızıldatdı.

* * *

Bakıya çatan kimi yenə adəti üzrə maşını otelə sürdü. Bəxti gətirmişdi: həmişə qaldığı otaq boş idi. Bu otağa girəndə ona elə gəlirdi ki,  köhnə dostunu yanına gəlir. Köhnə və səbirli dost.....Gecələrin dərdini yüklənə bilən, gündüzlərin cılpaqlığını örtən bu dost onu sükutundan başa düşürdü.

Otağa yerləşən kimi aclığına və susuzluğuna baxmayaraq, otelin yaxınkığında əldə etdiyi siqaret qutusundan birini götürüb pəncərənin qarşısına keçdi. Bakının əsrarəngiz işıqları onu fikirləri ilə birlikdə qucaqladı.Telefonu əlinə alaraq, istədi ona zəng edib Bakıya gəldiyini bildirsin, qəfil vaz keçdi. Telefonu əlində oynada-oynada yenə fikrə daldı. Qəlbində gələn arzularla, ağlından keçən "olmaz"  işarələri sanki qarşı-qarşıya bir-birlərinə qılnc çəkmişdilər. Telefon əlində balıq  kimi çırpınanda, telefonu titrəşimə qoyduğunu xatırladı. Telefonun ekranına baxanda təəcccubləndi. Gələn zəng İzmir nömrəsi  idi. Bir anlığa xəyal onu ağuşuna alaraq üç ay öncəyə- İzmirli günlərinə apardı. Bakıdan qaçaraq özlərini İzmirin qucağına atmışdılar. On günə doymamışdılar, daha beş gün qalmışdılar. Gələndə özlərinə təsəlli olaraq " Bakı İzmirə çox bənzəyir nə fərqi var " deyərək birtəhər o şəhərin sehrindən

qurtara bilmişdilər. Telefonun ikinci çırpınışı başlayanda , birinci zəngə cavab vermədiyini anladı. Telefonu yaşıl düyməsini basaraq , qulağına apardı.

- Salam- telefondan onun tanış səsini eşitdi.
- Salam .
- Nə əcəb İzmirdəsən?
- Artıq bilirsən- deyə telefonda həmişə məlahətli gələn səsi bu dəfə xırıldadı.- zəng eləmişəm ki, zəng eləmişəm deyəm ki,............
- Nə olub niyə sözləri çeynəyirsən?- o artıq nəyinsə baş verdiyini anlayaraq cəld soruşdu.
- Heç demək istəyirəm ki, daha məni axtarma!
- Sən İzmirdə bizim şəhərdə ..............-sözü ağzında qaldı Telefon artıq onun üzünə söndürülmüşdü. Əli titrəyə-titrəyə sürətlə həmin nömrəni geri yığdı. Lakin ona yalnız " bu nömrəyə zəng çatmır "və sairə sözləri tutuquşu kimi əzbərləyən robotdan başqa kimsə cavab vermədi. Hey elə o nömrəni yığdı, yığdı , axırda boş siqaret qutularını vızıdatdığı kimi otelin pəncərəsindən telefonu qolu gəldikcə qaranlıq boşluqlara atdı. Gündüzdən içində açılmış boşluqda indi elə bil bomba partlamışdı. Ozünə otaqda yer tapa bilmədi. nəfəsi çatmadı əlini atıb pəncərələri açdı. Titrəyə-titrəyə cıbından ürək dərmanını çıxarıb dilinin altına qoydu. Ürəyi azca sərinləyən kimi qayıdıb kresloda oturdu. Nə edəcəyini kəsdirməyə çalışdı. Sonra cibindən telefonu çıxarıb arvadına zəng vurdu və bu neçə illərdən sonra ilk dəfə onun Bakıdan nə istədiyini və nəyi alsa ürəyincə olub olmadığını soruşdu.

## TAPŞIRIQ

Hər ayda bir dəfə qəsəbəyə bir nəfər növbətçi gedərdi. Bu dəfə növbə Fərhada çatanda üzə vurmasa da, içində donquldana-donquldana yola düşdü. Əslində ora getmək elə də çətin deyildi, lakin gecənin o zəhirmarlarını- açcaqanadların diri –diri yemi olmaq əcaib bir duyğu idi.Qəsəbənin yeganə yanğın qulləsi rayon işğal olunandan sonra B rayonuna tabe edilmişdi. Səhər erkən olmağına baxmayaraq günəş sanki hakimiyyətini bərqərar etməyə tələsirdi. Fərhad öz işini sevməsə də, bir loxma çörək qıra olub keçmişdi boğazına. Arabir heyf deyildi "subaylıq"- deyib gileylənəndə evdə civildəşən körpələrə baxıb tez də susardı. Qışda soyuqdan,

yaydasa istidən gileylənməyi isə heç kəsməzdi. Indi yenə günəşə acıqlı-acıqlı baxaraq yoldan keçən maşınlara əl etməyə başladı.

Hər ay belə idi. Yolda girinə keçən bir maşına minib gedərdi. Gecəni ağcaqanadlarla müharibə ilə keçirib sabahı gözləri şişmiş şəkilə evə qayıdardı. Elə donquldan-donquldana da evə girərdi" bax bu yanğın qülləsinə nə ehtiyac var. Biz iki ildi orada növbə çəkirik. Hələ bir dəfə pajar olmayıb. Erməni də gəlib  taxıl odlayarsa bunu görməyə qüllə lazım deyil. Bunu elə hamı görür də......." əsaslı əsasız ağzı öyrənmişdi. Sanki şikayet etməsə bağrı yarılacaqdı.

Bir dəfə cavanlardan eşitmişdi ki, yalnız dişi ağcaqanadlar qan sorur. "Yox qardaş, bu yalan söhbətdi"- boynunda-boğazında əlinin şapıldadaraq özü-özünə deyirdi-" nouldu bunların hamısı elə dişi oldu, basıb yedilər ki məni"

Yenə gecənin qara qaydı canını ala –ala yolda keçən maşınlara əl eləməyə başladı.Yayın istisi bir tərəfə, yoldan keçən maşınların da tozu dilinə dodağına hopmuşdu. Nəhayət bir maşın insafa gəlib saxladı. Fərhad donquldana – donquldana Allaha şükür etməyə başladı. Maşın erkəndən yola çıxan adamlarla dolu idi. Balaca bir yer var idi, orada Fərhadı sığışdırdılar. Tezliklə sürücünün insfanın əslində tamah olduğunu anlayıb Fərhad buna daha da hirsləndi. Birtəhər daracıq yerdə hirslə özünə yer edib, gözlərini ətdən divarlardan bir pəncərə qırağı tapıb zillədi.Maşında lap qabaqda özünə yer etmiş bir Bəxtəvər( Fərhad maşına miən kimi ona bu adı ürəyində yapışdırmışdı) elə hey xəstəliklərdən danışır və özünün həkimlərdən çox bildiyini iddia edirdi." Bu həkim tayfasına, xüsusilə də Azərbaycanda etibar yoxdur. Hamısı cibişdanını güdür" deyə O, filasofanə şəkildə nitqinə son verib qürurla lap qıraqda oturmuş qadının üzünə baxdı."İyrənc oğlu, iyrənc özünü arvadına göstərir and içərəm ki, bu həkimlərdən çox bilən dördüncü sinifdən qaçıb. İndi beş- altı qoyunu  pulu da onu danışdırır.Ağlına gələn bu fikirlərə görə Fərhad dar yeri azacıq unudaraq özü-özünə gülümsədi. Bəxtəvər sanki fərhadın fikirlərini oxuyurmuş kimi " Vallah beş altı qoyunun çatısını boğazımıza salmışıq, yoxsa nə işimiz var bu fermalarda Allahın zülümünü çəkirik."Fərhad bunu eşidəndə müşahidə qabiliyyətinə görə azcıq qürurlandı. "Mənimki də burada olsaydı, bir az da onun üzünə baxıb mən lovğalanardım.Dodağı qaçdı, lakin həmin bəxtəvər deyəsən marağını boğa bilməyib qəfil ona tərəf dönəndə Fərhad ciddi görkəm aldı.

- Ay qardaş, sən hara bu sabahın korunda?- Bəxtəvərin sualı sarımsaq qoxusu ilə fərhadın üstünə töküldü. Fərhad çımçəşsə də bunu üzə vurmamağa çalışdı və cavabı tez verməyə çalışdı ki bu qoxulu ağız səmtini dəyişdirsin.
- Mən oraya-yanğınsöndürmə qülləsinə gedirəm. Fövqalədə halların işçisiyəm.- axırıncı sözləri pafosla dedikdən sonra özünə möhkəm açığı tutdu. "Elə sadəcə pajarnikəm

desəydim nolacaqdı ki,," Fərhadın bu sözlərindən sonra kişi, deyəsən onun işlədiyi yerin hara olduğunu müəyyənləşdirmək üçün üzünü çevirərək başını qaşıdı. Köhnə ələngə sıfır altının çala –çökəyə düşməsinin yaratdığı səs- küy istisna olmaqla içəri sükut çökdü.Fərhad bu sükuta görə özünü qınayırdı ki, Bəxtəvər ona tərəf dönərək:

-Mənim bircə balam var .Elə oralarda xidmət edir.Yeddi aydır gedib. Bizim toyuq qovalayanın azar-bezarı imkan verdikcə- O, başı ilə az qala maşının yarıaçıq pəncərəsinə yapışmış arıq qadına tərəf işarə etdi- gedib onu yoxlayıram.- yazıq-yazıq dedi.

Fərhad anladı ki, bu adam onu elə əynindəki hərbi geyimə və bayaq eşitdiyi nazirlik sözünə görə onu hərbiçi zənn edib. Fərhad elə bu yanlışı düzəltmək istəyirdi ki, sürücü onu qabaqlayaraq çox bilmiş adam tərzi ilə:

-Ay qardaş, tanışlıq ver tapşır balanı, nolacaq insanlıq ölməyib ki,

Fərhad ağzını açmağa macal tapmamış kişi oğlunun bölməsini , adının Kamal olduğunu, komandirindən belə, hamısını sadaladı. Fərhad kişinin bütün bir həvəslə bunları saydığını görüb fikrindən vaz keçdi. Hətta işi ciddiyə mindirmək üçün cibindən kağız- qələm çıxararaq bütün lazım olan məlumatları qeyd etdi. O an boynu geri qatlanmış o kişinin üzündə elə ümidli bir ifadə var idi ki, sanki Fərhad göydən enmış bir mələk kimi onun oğlunu mühavizə edəcəkdi.

Az sonra üzündəki səcdə ifadəsi dəyişməyərək kişi arvadı ilə xəstəxananın qarşısında düşdülər.. Fərhad onları xəstəxana darvazasına qədər gözləri ilə müşayət edərək bilmədi nəyə sevinsin: yerinin genişlənməyinə, yoxsa sabahdan canını sığma- boğmaya salan yalandan canın qurtarmağına.

Ələngə qülləyə qədər gəlib çatmadı. Yolda xarab olan maşını sürücü və söyüşləri ilə baş-başa buraxıb yarı yola piyada davam etdi. Buraya narazı gəlsə də həmişə bu köhnə sovet dövründən qalma qülləyə dırmaşmaq ona ayrıca zövq verirdi. Indi də qülləyə yaxınlaşdıqca ora dirmaşmaq istəyi artırdı. Çantasını içəridəki otağa atıb üzünə azacıq su vurub, günəş yeri göyü yandırmamış qülləyə dırmandı. Son zamanlar qüllədə əsmə əmələ gəlmişdi. Bunu yuxarıya- rəisə bildirəndə həmişəki əzbərdə olan şablonlardan birini eşitmişdi:"yaxınlarda yoluna qoyulacaq". "Bu rəis qısmı niyə həmişə məchul növdə danışırlar: Ediləcək, yoluna qoyulacaq sonra məlum növdə bir hadisə baş verir, biri qüllə və ya nə qarışıqsa kəlləmayalaq gəlir aşağı və onlar onda nə deyirlər. Əşi, nə deyirlər, desinlər bu mənzərənin dadı buradan yıxılmağa dəyər" deyə O, bu düşüncələrlə əllərini durbin kimi gözlərinin qarşısına gətirərək ətrafı seyr etməyə başladı. Buradan ta ermənilərin səngərlərinə qədər görünürdü. Ətrafda

qəribə bir mənzərə yaranırdı. Qüllənin qarşı tərəfi ermənilərə qədər uzanan boş və neytral zona və ondan bəri sarı lent kimi uzanan taxıl zəmiləri var idi. Hətta buradan azacıq diqqət edəndə hər iki tərəfdəki səngərlərdəki hərəkəti də sezmək mümkün idi. Qüllənin digər tərəfləri isə sanki  yaşayış evləri ilə mühasirə edilmişdi.Fərhadı bu qüllədəki mənzərə istisna olmaqla burada heç nə cəlb etməzdi.Xüsusilə üzü gecəyə getdikcə ağcaqanad kabusu ətrafda vızıldaşmağa başlayanda.

Günəş uzun yay günün qürubunu edəndə artıq Fərhad siqaretinin tüstüsü ilə özünə mühavizə məkanı yaratsa da, siqaret sönəndə ağcaqanadlar onun üzərində istədikləri təcrübəni keçmək üçün neştərlərini itiləyirdilər.Bu axşam Fərhadın donquldamağa və özü-özünə gileylənməyə də həvəsi yox idi. Arada bir əsən axşam mehi üzünə zərif bir qız əli kimi nazlı-nazlı sığal çəkir, onu xoşalandırıdı. Yuxusu gəlsə də bunu gözlərindən qovmağa çalışırdı. Ən azından buna cəhd edirdi. Qalxıb özü ilə gətirdiyi yeməyi çantadan çıxararaq taxta stolun üstünə qoydu. Çörəyi çantanın ön cibindən götürdüyü  cırıq qəzet parçasının üstünə qoydu. Yeməyini çeynəyə - çeynəyə gözlərini o qəzet parçasının üzərində gəzdirdi. Başlığı cırılsa da məqalənin yerdə qalan hissəsində orduda qətllərin və əsgər ölümlərinin artmasından bəhs olunurdu. Məqaləni sona kimi həvəssiz oxusa da beyninə ilişmiş axmaq bir fikirdən canını qurtara bilmədi “Axı orada nə baş verir, niyə bir əsgər komandirə silah qaldırsın ki,..... Mən də on  beş il öncə o xidməti keçmişəm. Yəni bu on beş ildə nə dəyişdi ki,,,,,,” Sabahkı maşında gördüyü o kasıb atanın üzündəki yazıqlıq qarışıq ümid işartısını xatırlayanda özünə möhkəm acığı tutdu. Kimlərisə aldatmağa haqqı olmadığını anlayan kimi yediyi yeməyi də yarımçıq buraxıb bir siqaret yandırdı. Siqareti nə vaxt söndürüb, nə vaxt yuxuya getməyindən xəbəri olmadı.

Ayılanda bütün bədənin qıc olduğunu hiss etdi. Elə skamyada yuxuya getdiyinin fərqinə vardı. Əlini, üzünü ağcaqnad dağıtmışdı. Amma indi ətrafda biri də qalmamışdı. Cinayətlərini torədib ağzı qanlı uçmışdu gecə vampirləri.Elə bundan da səhərə az qaldığını anladı Fərhad. Həmişə beləydi bu qan ovçuları. Danyeri ağarmağa başlayanda yoxa çıxırdılar.” Smeni təhvil verdi əclafuşağı mənimkinə az qalıb” deyə qıc olmuş boynunu o yan, bu yana hərləyərək açmağa başladı. Elə bu an içəridən bir xışıltı eşıtdı. Sanki kimsə özünə yer düzəldirdi.Fərhad ilk öncə bu səsə elə də fikir verməsə də, sonra taqıltı duyaraq lap şübhələndi.Yavaşca içəri otağın qapısının arxasına keçərək içərini nəzərdən keçirməyə başladı.İçərinin yarıqaranlığını ay işığı ortadan bölmüşdü. Qaranlıq tərəfdə bir insan sülueti güclə sezilirdi. Fərhadın soyuq tər kürəyindən süzülməyə başladı.Ağlına min cür fikir gəldi. Bu qorxunu içində bir avtomat şaqıltısı da eşıtdi Az sonra ay işığının  tam ortasına bir hərbi geyimli adam çıxdı.Fərhad onun heç də xoş niyyətindən əmin ola bilmirdi. Hərbiçi birbaşa

onun tərəfinə gəlirdi. Elə o an Fərhad yeganə çıxışın qarşısında durduğunu xatırladı. Artıq gec idi. Qapının arxasından çıxaraq bir başa yolun üzərində durdu. Hərbiçi qapıdan çıxanda onu min ildir tanıyırmış kimi süzdü və dedi:

-Durmusan?! Mən gələndə yaman şirin yatmışdın.

Fərhadın dili- dodağı təpimişdi. Hərbiçinin azərbaycanca danışması onu bir az sakitləşdirdi. Ən azından əsgərin paltarındakı işarələr və dili onu erməni olmadığını sübut edirdi. Bu Fərhadı azcıq da sakitləşdirdi.Birtəhər özünü ələ alıb:

- Sən kimsən- deyə soruşa bildi.
- Əsgər.
- Sənin bu vaxtı burada nə işin var?- Fərhad əsgər cavabından sonra bir az ötkəm çəkildə soruşdu.
- Komandiri öldürmüşəm. - Əsgər yumru və uşaq məsumluğu sifətinə yaraşmayan dəli məşumluqla dedi.
- Niyə aaadam kooomandiri öldürər?- Fərhad yenə dili dolaşa-dolaşa soruşdu
- Hə. adam öldürməz amma..
- Bala, sənin adın nədir? – Fərhad bilmədi hirslə, yoxsa qorxu ilə soruşduğu bu sualı nə üçün verdi.
- Kamal idi. İndi yəqin ki, daha belə olmayacaq- əsgər bədbəxtcəsinə dedi. Fərhad elə o an onun üzünün necə saraldığının fərqinə vardı.
- Otur, bəlkə sənə çay verim bir az özünə gəl hə..... – Fərhad əlindən gələn yardımı vermək üçün canfəşanlıq etdi.Bir qatilə bunu nə üçün etdiyini özü üçün anışdıra bilmirdi.Əsgər yerindən tərpənmədən daş kimi qüllənin dəmirinə söykənmişdi.
- Bala, haralasın, kimlərdənsən? – Fərhad aradakı sükutu pozmaq məqsədi ilə ağlına gələn ilk sualı verdi.

Əsgər onun üzünə uzun müddət nəzər saldıqdan sonra yavaşça dilləndi. Sözlər ipə düzülmüş kimi onun ağzından tökülməyə başladı:

- Mən onu öldürdüm. Avtomatı qaldırdım və onun bağırsaqlarını yerə tökdüm. Elə bilirsən özümü öldürə bilməzdim. Vallah özümü öldürəcəkdim. Bu gecə öldürəcəkdim . Gəldi çıxdı, itoğlu it. Vurdu məni. Daş saldım Mayısın başına. Mən tək oğulam eyyyy bilirsən?. Gərək özümü öldürəydim. Haradan gəldi çıxdı. Canımızı boğazımıza yığmışdı. Bu işi biri görməli idi.

Fərhad artıq onu eşitmirdi. Səhər cibinə qoyduğu kağızı bürmələyib ovcunda əzik- əzik etmişdi. əsgər isə dil-boğaza qoymadan rabitəli-rəbitəsiz danışırdı.Nəfəsi kəsilənə qədər

danışdı.Sonra qüllənin dibinə çökərək ağlamağa başladı. Elə hönkürtü vururdu səsi artıq Fərhadın ürəyini parçalayırdı. Azacıq sakitləşəndən sonra qəfil qalxdı və dəli bir ifadə ilə Fərhadın üzünə baxaraq su istədi. fərhad ona su töküb verəndə hər ikisinin əllərinin tirədiyinin gördü. İkisi də sarsılmışdı.suyu içəndən sonra əsgər üst-başının tozünü çırpıb :

- Yolçu yolda gərək mən gedim.

Fərhad ona nə isə deməmiş artıq əsgər kəndalaş kollarının arasına uzaqlaşırdı.Alatoranda səma qırmızı bənövşəyi rəngə boyanmışdı. Günəş artıq doğmaq üçün zəmin hazırlayırdı. Fərhad uzun müddət kəndalaş kollarının tərpənməsinə tamaşa etdi. Bir azdan çantasından cib telefonun zəngini eşitdi.Onu oradan çıxarıb ekranına baxdı. Qardaşı idi.

- Salam. Vəziyyətin yaxşıdı?- cavab gözləmədən davam etdi- sənin yaxınlığındakı hərbi hissədə bir əsgər komandiri öldürüb. Ehtiyatlı ol,qadası,.oldumu?!
- Hə oldu, narahat olma .- Fərhad bunu deyərək söndür düyməsinə baş barmağını sıxdı. Günəş artıq alovlu nəfəsini püskürməyə başlayanda Fərhad həmişəkindən fərqli olaraq səsi- səmirsiz növbəni təhvil verib asfalt yola çıxdı. Dünənki sakit yolların hər tərəfində polis maşınları və polislər nəzər çarpırdı.